## “Statistika xəbərləri” elmi-praktik jurnalının redaksiya heyəti


### Baş redaktor

**Sakit YAQUBOV** *iqtisad elmləri doktoru, professor*

### Redaksiya heyəti:

**Ziyad SƏMƏDZADƏ** *iqtisad elmləri doktoru, professor*
*Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü*

**Şahin SADIQOV** *iqtisad elmləri doktoru, professor*

**Ədalət MURADOV** *iqtisad elmləri doktoru, professor*

**Vahid NOVRUZOV** *iqtisad elmləri doktoru, professor*

**Nazim İMANOV** *iqtisad elmləri doktoru, professor*

**Süleyman QASIMOV** *iqtisad elmləri doktoru, professor*

**Tahir BUDAQOV** *tibb üzrə fəlsəfə doktoru*

**Azər ƏMİRASLANOV** *iqtisad üzrə fəlsəfə doktoru*

**Mehman TAĞIYEV** *iqtisad üzrə fəlsəfə doktoru*

**Saleh MÖVLAMOV** *iqtisad üzrə fəlsəfə doktoru*

**Aleksey PONOMARENKO** *iqtisad üzrə fəlsəfə doktoru, dosent (Rusiya Federasiyası)*

**Roumen VESSELİNOV** *iqtisad üzrə fəlsəfə doktoru, dosent (Amerika Birləşmiş Ştatları)*

**Alxan MANSUROV** *məsul katib*

## *“Statistika xəbərləri” elmi-praktik jurnalının rubrikaları*

Statistikanın inkişaf strategiyası və taktikası

Statistik təsnifatlar, standartlar və registrlər

Statistik müşahidə metodları

Statistik məlumatların toplanması, işlənməsi, saxlanması və yayılması texnologiyası

İnformasiya şəbəkəsi, məlumat bazası, məlumat bankları

Statistik informasiya sisteminin təkmilləşdirilməsi

Milli Hesablar Sistemi

Statistik tədqiqatlar

Statistika sahəsində beynəlxalq əməkdaşlıq

Statistika: xronika, informasiya

Biblioqrafiya: yeni nəşrlər

Oxucuların rəy və təklifləri

Statistika: rəsmi sənədlər

Statistika: metodoloji təminat (metodoloji əlavələr)

Statistika: faktlar və proqnozlar (statistik əlavələr)

# Mündəricat


səh.

**İQTİSADİ-STATİSTİK TƏDQİQATLAR**

***Şəfiqə Məmmədova***
Azərbaycanın bərpa olunan enerji mənbələri və onların qiymətləndirilməsi.................................... 4

***Əbülfəz Kərimov***
Azərbaycanda energetikanın inkişafı - statistik icmal.................................................................... 12

***Samiddin Qasımov***
Naxçıvan Muxtar Respublikasında ev təsərrüfatlarının inkişafının əsas zəmini kimi sahibkarlıq fəaliyyəti........................................................................................................................... 20

***Elnur Rüstəmov***
Azərbaycanın regionlarının tarazlı sosial-iqtisadi inkişafında əmək bazarının rolu......................... 32

***Sevinc Əhmədova***
Ölkənin davamlı inkişafında əmək ehtiyatlarından səmərəli istifadə............................................. 38

***Nuray Kazimli***
Zangazur corridor: new economic development opportunities for the region……………………..… 44

**METODOLOGİYA**

***Эльдар Гулиев, Натик Гурбанов, Фикрет Хосровлу***
Некоторые проблемы и перспективы применения экологического маркетинга-менеджмента в Азербайджане.................................................................................................................. 51

***Vaqif Quliyev***
Uçot- hesabat sistemində normativ və pozitiv metodologiyalar....................................................... 62

***Leyla Hacıyeva***
Turizmin rəqabətqabiliyyətliliyinin əsas göstəricilərinin kompleks təhlili...................................... 74

***Vüqar Qənbərov***
Sığorta şirkətlərinin rəqabətə davamlılığının qiymətləndirilməsi.................................................... 82

**2021-ci İLİN YANVAR-SENTYABR AYLARININ YEKUNU ÜZRƏ ÖLKƏNİN SOSİAL-İQTİSADİ İNKİŞAFINA DAİR GÖSTƏRİCİLƏR**

Makroiqtisadi göstəricilər.......................................................................................................... 92
Ümumi Daxili Məhsul istehsalı.................................................................................................. 94
Maliyyə mənbələri üzrə əsas kapitala yönəldilmiş vəsaitlər.............................................................. 94
İqtisadiyyatın sahələri üzrə əsas kapitala yönəldilmiş vəsaitlərin dəyəri........................................... 95
Pərakəndə ticarət dövriyyəsinin məhsullar üzrə strukturu................................................................. 96
İqtisadiyyata kredit qoyuluşu...................................................................................................... 96
Dövlət büdcəsinin gəlirləri........................................................................................................ 96
Dövlət büdcəsinin xərcləri......................................................................................................... 97
Nəqliyyat sektorunda yük dövriyyəsi.......................................................................................... 97
Nəqliyyat sektorunda sərnişin dövriyyəsi..................................................................................... 98
Azərbaycanın tərəfdaş ölkələrlə xarici ticarət göstəriciləri................................................................ 98
İxrac olunan mühüm növ məhsullar............................................................................................ 99
İdxal olunan mühüm növ məhsullar............................................................................................ 100

**AZƏRBAYCANIN STATİSTİKA TARİXİ SƏHİFƏLƏRİNDƏN**

Gindin Aleksandr Moisyeviç (anadan olmasının 120 illiyinə)......................................................... 101
2021-ci ildə "Statistika xəbərləri" jurnalında dərc olunmuş məqalələrin mövzu-əlifba üzrə siyahısı...................................................................................................... 102

UOT: 338
DOI: 10.338.70/2413-6557-2021-7-4-4-11

# AZƏRBAYCANIN BƏRPA OLUNAN ENERJİ MƏNBƏLƏRİ VƏ ONLARIN QİYMƏTLƏNDİRİLMƏSİ

***Şəfiqə Məmmədova***
*Sumqayıt Dövlət Universiteti*
*Dünya iqtisadiyyatı və marketinq kafedrasının dosenti, i.f.d.*
*AZ5008, Azərbaycan, Sumqayıt, 43-cü məhəllə*
*e-poçt: shafigha_mammadova@mail.ru*

**Açar sözlər:** bərpa oluna enerji mənbələri, milli sərvət, elektrik enerjisi, potensial güc, istehsal, külək, günəş və bioenerji, qiymətləndirmə.
**Ключевые слова:** возобновляемые источники энергии, национальное богатство, электроэнергия, потенциальная энергия, производство, ветер, солнечная и биоэнергетика, оценка.
**Key words:** renewable energy sources, national wealth, electricity, potential energy, production, wind, solar and bioenergy, assessment.

Su resursları bərpa olunan resurslardan hesab olunur. Amma bugünə qədər aydın deyildir ki, su istifadə olunduqdan sonra hansı sürətlə bərpa olunur və onun çox kəskin şəkildə çatışmazlığı planetin ekosistemini təhlükədə qoyur. Bununla əlaqədar, daha dogrusu hidroenerji ilə yanaşı, digər alternativ və bərpa olunan enerji mənbələrinin yaradılması zərurətilə bağlı hələ yaxın keçmişdə Azərbaycanda istilik-enerji kompleksinin inkişafı üzrə 2005-2015-ci illər üzrə Dövlət Proqramı [1] qəbul edilmişdir. Proqramda alternativ və bərpa olunan enerji mənbələrinin, o cümlədən bərpa olunan enerji mənbəyi kimi su resurslarının istifadəsində mineral enerji mənbələrinin istifadəsini daha səmərəli həyata keçirmək məqsədilə bərpa olunan enerji mənbələrinin də inkişafına üstünlük verilmişdir. Bununla əlaqədar, 2012-2020-ci illərdə alternativ və bərpa olunan enerji mənbələrinin istifadəsi üzrə Milli Strategiyanın (2011) reallaşdırılması üzrə fəaliyyətlər həyata keçirilmişdir [2]. Qeyd etmək lazımdır ki, bütün dünyada alternativ və bərpa olunan enerji mənbələrinə olan tələbatı nəzərə alaraq, ölkəmizdə də bu sahədə fəaliyyətlərin aktivləşdirilməsinə və Qarabağın azad edilməsi proseslərilə əlaqədar yeni strategiya və Dövlət Proqramının qəbul edilməsinə zərurət yaranmışdır. Bərpa olunan enerji mənbələrinin (BEM) inkişafına dövlət büdcəsindən 60 milyon dollar vəsait də ayrılmışdır [3,səh.11].

Azərbaycan Respublikasının gələcəkdə milli sərvətinin artırılmasının əsas istiqamətlərindən biri kimi dəyərləndirilən və ilkin enerji sistemi kimi ənənəvi enerji mənbələrinə nisbətən qeyri-ənənəvi müasir strateji enerji sistemi olan alternativ və bərpa olunan enerji mənbələrinin inkişafını, qiymətləndirilməsini, qorunmasını, iqtisadi cəhətdən çox səmərəli olan bu enerji mənbələrində yeni texnologiyaların tətbiqini mühüm zərurət kimi dəyərləndirmək olar.

Beynəlxalq Enerji Agentliyinin (İEA) təsnifatına əsasən alternativ və bərpa olunan enerji mənbələri beş istiqamətə ayrılır (şəkil 1).




Şəkil 1. Alternativ və bərpa olunan enerji mənbələrinin strukturu

Su enerjisindən-hidroenerjidən istifadə axar suyun kinetik enerjisinin elektrik enerjisinə çevrilməsinə əsaslanır. Hidroenerji istehsal edən su elektrik stansiyaları (SES) çayların üzərindən bəndlər və su anbarlarının tikilməsi yolu ilə yaradılır. SES-lərin əsas üstünlüyü tükənməyən enerji mənbəyindən istifadə etməsi, əlavə yanacağa ehtiyacın olmaması və bunun nəticəsində maya dəyərinin aşağı olması ilə bağlıdır. Bununla yanaşı, onların mənfi cəhətləri tikintisinin kapital tutumu , həmçinin su anbarlarının çox yer tutması və yerləşdiyi coğrafi mühitin dəyişməsinə səbəb olmasıdır.

Hidroenerji ümumdünya elektrik enerji istehsalının 19%-ni, BEM-lərdən alınan enerjinin isə 63%-ni təşkil edir. SES-lərdən alınan adambaşına enerjinin miqdarına görə dünyada ilk yerləri Norveç, İsveç və Kanada tutur. Amma Beynəlxalq Bərpa olunan Enerji Agentliyinin (İRENA) təqdim etdiyi məlumatlara əsasən hal-hazırda dünya üzrə ən böyük hidroenerji istehsalçısı Çindir. 2020-ci ildə bu ölkənin hidroenerji istehsalı 339840 mlyn.kvt/saat olmaqla dünya üzrə ümumi hidroenerji istehsalının (1210616 mlyn.kvt/saat) 28%-ni təşkil etmişdir [4, səh. 8].

Külək enerjisindən istifadə atmosferdə olan hava kütlələrinin kinetik enerjisinin elektrik enerjisinə çevrilməsinə əsaslanır. Qeyd etmək lazımdır ki, külək enerjisinin dünya üzrə potensial ehtiyatları hidroenerji ehtiyatlarını yüz dəfələrlə üstələsə də, faktiki 2020-ci ilin göstəricilərinə görə dünya üzrə külək enerjisinə nisbətən hidroenerji daha çox istehsal olunur (uyğun olaraq: 1210616 və 733276 mlyn.kvt/saat).

Geotermal enerji yerin təkində olan istilik enerjisindən istehlak və elektrik enerjisinin istehsalı üçün istifadə edilməsi ilə bağlıdır. Vulkanik regionlarda yeraltı sular qaynama temperaturundan da artıq qızır, sonra isə təbii qeyzerlər və ya qazılmış quyular vasitəsilə yer səthinə qalxır. Qaynar su və buxar evlərin qızdırılmasında, isti su təminatında və ya elektrik enerji istehsalında istifadə olunur. Soyumuş sular isə yenidən borular vasitəsilə yerin təkinə qaytarılır. Geotermal elektrik enerjisinin dünya üzrə ən iri istehsalçı ölkələri ABŞ və İsraildir.

Günəş enerjisindən istifadə günəş şüalarının hər hansı digər enerji istehsalında istifadəsini nəzərdə tutur. Bu proses müxtəlif üsullarla həyata keçirilə bilər: məsələn, günəş fotoelementləri, yaxud buxar maşınları vasitəsilə elektrik enerjisi istehsal oluna bilər. Günəş enerjisindən ən səmərəli istifadə heliotermal energetika hesab olunur. Belə olduqda günəş şüaları toplanaraq suyu qızdırır və isti sudan müxtəlif məqsədlər üçün istifadə olunur. Günəş enerjisindən istifadə ətraf mühit və təbiət üçün ən zərərsiz enerji hesab edilir və bu sahədə ən qabaqcıl ölkələr Yaponiya, Almaniya və ABŞ hesab olunur.

Okean və dənizlərin qabarma enerjisindən istifadə hidroenerjinin bir istiqaməti olmaqla, qabarmaların, daha doğrusu, Yer kürəsinin fırlanmasının kinetik enerjisindən faydalanmağa əsaslanır. Qabarma elektrik stansiyaları dəniz və okeanların sahilində xüsusi bənd vasitəsilə tikilir. Günəş və Ayın təsiri ilə belə sahələrdə suyun səviyyəsi 13 metrə qədər dəyişə bilər. Qabarma enerjisinin üstünlüyü əldə edilən elektrik enerjisinin maya dəyərinin aşağı olması, çatışmazlığı isə tikintinin kapital tutumluluğu və gün ərzində enerji verimliliyinin dəyişməsi ilə əlaqədardır. Qabarma elektrik stansiyalarının əsas istifadəçi ölkələri Fransa, Britaniya, Kanada, Hindistan, Çin və ABŞ hesab edilir.

Bioenerji və yaxud bioyanacaq bioloji xammalın (şəkər qamışı, qarğıdalı, soya, üzvi tullantılar və s.) emalından əldə olunan yanacaqdır. Bioyanacaqlar bərk, maye və qaz halında ola bilər. Bioqaz qurğuları həm də təmizləyici qurğular kimi qlobal istiləşmə ilə mübarizənin ən yaxşı qısamüddətli üsullarından biridir. Bioenerji istehsalı Braziliyada, ABŞ-da və Qərbi Avropada geniş yayılmışdır.

Hal-hazırda dünyada, o cümlədən Azərbaycanda alternativ və bərpa olunan enerji mənbələrindən daha çox istifadə olunanı əsas hidroenerji mənbəyi kimi çıxış edən təbii su mənbələrinin enerjisidir. Faydalı qazıntı və nüvə enerjisinə əsaslanan, ilkin sistem kimi təzahür edən ənənəvi enerji sisteminə nisbətən alternativ və bərpa olunan enerji mənbələrinə əsaslanan qeyri-ənənəvi enerji sistemini tükənməyən yeni və müasir strateji sistem hesab etmək olar [5].

BEM-lərin gələcəyin strateji enerji mənbəyi olmasına baxmayaraq, müasir dövrdə bütün dünya üzrə qeyd edilən enerji mənbələrinə nisbətən elektrik enerjisinin əldə edilməsində ənənəvi enerji mənbələrindən daha çox istifadə olunur. Belə ki, hazırda dünya üzrə enerji istehlakının

81,7%-i (o cümlədən 2,2%-i nüvə enerjisi) ənənəvi enerji mənbələri və 18,3%-i isə alternativ və bərpa olunan enerji mənbələri hesabına təmin edilir. Əlbəttə, gələcəkdə bərpa olunan enerji mənbələri (BEM) elmi-texniki tərəqqi və yeni - yüksək texnologiyalar əsasında çox sürətlə inkişaf edən müasir enerji mənbələri olması proqnozlaşdırılsa da, ənənəvi enerji mənbələri, xüsusilə təbii qaz və nüvə enerjisindən istifadə hələ uzun müddət öz üstünlüyünü qoruyub saxlayacaqdır.

Dünya və Azərbaycan üzrə BEM-in elektrik enerjisi istehsalının 2011-2020-ci illər üzrə dinamikası cədvəl 1-də verilmişdir.

**Cədvəl 1**

**Dünya və Azərbaycan üzrə bərpa olunan enerji mənbələrinin ümumi elektrik enerji istehsalının 2011-2020-ci illər üzrə dinamikası, mln.kvt/saat [4]**

| | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Dünya | 1329886 | 1442763 | 1564390 | 1694061 | 1847258 | 2010005 | 2180389 | 2358749 | 2538441 | 2799094 |
| Azərbaycan | 999 | 1024 | 1125 | 1120 | 1154 | 1184 | 1194 | 1277 | 1291 | 1296 |

Cədvəldən göründüyü kimi, Azərbaycanın dünya üzrə BEM-in ümumi elektrik enerji istehsalında payı çox azdır və bu göstərici 2020-ci ildə cəmi 0,05% təşkil etmişdir.

Proqnozlara görə, 2040-cı ilə qədər ənənəvi enerji mənbələri ümumi enerji istehlakının 77%-ni təşkil edəcəkdir. Amma ənənəvi enerji mənbələrinin, xüsusən neft, təbii qaz, daş kömürün tükənən və məhdud olması (hesablamalara görə, mövcud resurslar və texnologiyaların səviyyəsilə neft bəşəriyyətin tələbatını təxminən 43-50 ilə, qaz 65-73 ilə, daş kömür 150-170 ilə, boz kömür isə 500-550 ilə ödəyə biləcək) BEM-ə tələbatı artıracaqdır. Bundan başqa, BEM-in aşağıda qeyd edilən üstünlükləri onların tətbiqi və istifadəsinə geniş imkanlar açır:

1. Ənənəvi enerji mənbələrinə nisbətən BEM tükənməz və bərpa olunandır (baxmayaraq ki, bu amil su mənbələrinə münasibətdə nisbi xarakter daşıyır).
2. İstifadəsi ətraf mühitə müxtəlif zəhərli qazların (kükürd qazı - $SO_2$, azot oksidi - $NO_2$, metan - $CH_4$ və s.) buraxılması ilə nəticələnən ənənəvi enerji mənbələrinə nisbətən alternativ və BEM ekoloji cəhətdən təmiz və səmərəlidir.
3. Azərbaycanda milli sərvətin artırılmasının əsas mənbələrindən biri kimi dəyərləndirilə bilən BEM-in təbii şəkildə mövcudluğu və bolluğu belə enerji mənbələrinin istifadəsi və tətbiqini, iqtisadi cəhətdən ucuz və səmərəli olmasını şərtləndirir.

Azərbaycan BEM-in təbii şəkildə mövcud olan, demək olar ki, bütün növlərinin: günəş, külək, geotermal, biokütlə və hidroenerjinin geniş ehtiyatlarına malikdir. Belə ki, ölkədə kənd təsərrüfatı məhsullarının əhəmiyyətli həcmi kənd təsərrüfatı istehsalının tullantılarından biokütlə və qazlaşdırma məqsədləri üçün istifadə olunmasını təmin edə bilər. Bundan başqa, əlverişli təbii şəraitə görə Azərbaycanda günəş enerjisindən və həmçinin küləyin orta illik sürətinin yüksək olmasına görə külək enerjisindən istifadə potensialını çox səmərəli edir. Eyni zamanda ölkəmiz geotermal və hidroenerji ehtiyatlarına da kifayət qədər malikdir. Bu mənada, BEM-in imkanlarından tam istifadə olunmasa da, milli sərvətin artırılmasının əsas mənbələrindən biri kimi, bu enerji mənbələrinin inkişafı dövlətimizin qarşısında duran əsas strateji və prioritet vəzifələrdən biri olmalıdır. Belə ki, Azərbaycan Respublikası Energetika Nazirliyinin təqdim etdiyi məlumatlara əsasən Azərbaycan BEM üzrə yüksək potensiala malik ölkə kimi ölkəmizin iqtisadi cəhətdən çox əlverişli və texniki cəhətdən istismarı və istifadəsi səmərəli olan bu enerji mənbələrinin ehtiyatları 26940mvt, o cümlədən külək enerjisi üzrə 3000mvt, günəş enerjisi üzrə 23040mvt, bioenerji potensialı 380mvt, dağ çaylarının potensialı isə 520mvt həcmində qiymətləndirilir [6]. Bu sahədə intensiv həyata keçirilən işlərin davamı olaraq Azərbaycan Respublikasında BEM və onlardan səmərəli istifadə sahəsində fəaliyyətin təşkili və tənzimlənməsini təmin etmək, bu istiqamətdə dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 sentyabr 1159 nömrəli Fərmanı ilə Azərbaycan Respublikası Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi yaradılmışdır. Ölkəmiz BMT-nin üzvü olan dövlətlərin Dayanıqlı İnkişaf Sammitində təsdiqlənmiş Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM)

qoşulmuş və BMT-nin "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn vəzifələrin icrasına başlamışdır [7]. Bu istiqamətdə ölkəmizin bərpa olunan enerji sahəsinə və yaşıl iqtisadiyyata diqqətin artırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədinin uyğun bölməsində bərpa olunan enerjinin iqtisadiyyatın bütün sahələrinə tətbiqi məsələləri öz əksini tapmışdır [8]. Azərbaycan Respublikası Energetika Nazirliyi "Azalternativ enerji" MMC-nin stansiyalarında 2019-2020-ci illərdə istehsal olunan elektrik enerjisinin dinamikası cədvəl 2-də verilmişdir.

**Cədvəl 2**

**"Azalternativ enerji" MMC-nin stansiyalarında bərpa olunan enerji mənbələrindən istehsalın göstəriciləri [4]**

| Göstəricilər | Ölçü vahidi | Hesabat | | |
|---|---|---|---|---|
| | | 2019<br>illik | 2020<br>illik | 2021<br>6 aylıq |
| Məhsulun ümumi buraxılışı:<br>Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı (ƏDV-siz) | min manat | 532,5 | 476,6 | 239,7 |
| Alternativ enerji mənbələrinin sektorlar üzrə istehsal göstəriciləri | | | | |
| Dövlət, o cümlədən: | | 10,99 | 10,00 | 4,85 |
| Su elektrik stansiyalarının elektrik enerjisi | QVt.s | 0,37 | 0,48 | 0,14 |
| Külək elektrik stansiyalarının elektrik enerjisi | QVt.s | 4,21 | 3,76 | 2,52 |
| Günəş elektrik stansiyalarının elektrik enerjisi | QVt.s | 6,41 | 5,76 | 2,19 |

Cədvəlin məlumatlarından göründüyü kimi, "Azalternativ enerji" MMC-nin stansiyalarında bütün əsas BEM-in növləri üzrə elektrik enerji istehsalında 2020-ci ildə 2019-cu ilə nisbətən azalma müşahidə olunmuşdur.

**Azərbaycanda bərpa olunan enerji mənbələrinin potensialının qiymətləndirilməsi və ondan istifadə istiqamətləri**. Əvvəldə qeyd edildiyi kimi, Azərbaycan BEM üzrə yüksək potensiala malik ölkələrdəndir. Belə ki, ölkəmizin iqtisadi cəhətdən əlverişli və texniki cəhətdən istifadəsi mümkün olan bərpa olunan enerji mənbələrinin potensialı 26940 MVt, o cümlədən, külək enerjisi üzrə 3000 MVt, günəş enerjisi üzrə 23040 MVt, bioenerji potensialı 380 MVt, dağ çaylarının potensialı 520 MVt həcmində qiymətləndirilir (Cədvəl 3).

BEM-lərin qeyd edilən proqnoz potensial güclərinə uyğun illik elektrik enerji istehsalını müəyyən etmək üçün hesablamalarda Azərbaycan Respublikası Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Agentliyi tərəfindən təqdim olunan həmin alternativ enerji mənbələrinin illik enerji istehsalı müddətlərindən istifadə olunmuşdur:

1. Külək elektrik stansiyası üzrə: illik 3500÷4500 saat.
2. Günəş elektrik stansiyası üzrə: illik 2400÷3200 saat.
3. Bioenerji üzrə: illik 2300 saat.

BEM-lərin proqnoz potensial gücləri və onların orta illik elektrik enerji istehsalı müddətlərindən istifadə edərək (uyğun olaraq orta hesabla, külək üçün 4000 və günəş üçün 2800 saat qəbul etməklə), onların ümumi illik elektrik enerji istehsalı potensialını aşağıdakı kimi hesablamaq olar:

1. Külək elektrik enerjisi üzrə:
   3000 MVt x 4000 saat = 12000000 min kVt s.=12000,0 mln.kVt. s.
2. Günəş elektrik enerjisi üzrə:
   23040 MVt x 2800 saat = 64512000 min kVt.s. =64512,0 mln.kVt.s.
3. Bio enerji üzrə:
   380 MVt x 2300 saat = 874000 min kVt. s. = 874,0 mln. kVt.s.

illik elektrik enerjisi istehsalını proqnozlaşdırmaq mümkündür.

Külək, günəş və bioenerji üzrə proqnozlaşdırılan elektrik enerji potensialının dəyərini hesablamaq üçün Azərbaycan Respublikası Tarif (Qiymət) Şurasının qərarına əsasən BEM üzrə elektrik enerji istehsalının topdansatış qiyməti: 1 kVt.saat=0,057 man qəbul edilmişdir [9]:

1. Külək enerjisi üzrə illik elektrik enerji potensialının dəyəri:
   12000,0 mln. kVt.s x 0,057 manat = 684,0 mln.manat
2. Günəş enerjisi üzrə illik elektrik enerji potensialının dəyəri:
   64512,0 mln. kVt.s x 0,057 manat = 3677,2 mln.manat
3. Bioenerji üzrə illik elektrik enerji potensialının dəyəri:
   874,0 mln. kVt.s x 0,057 manat = 49,8 mln.manat proqnozlaşdırılır.

Beləliklə, Azərbaycan Respublikasının külək, günəş və bio BEM üzrə illik elektrik enerji istehsalının qiymətləndirilməsi üzrə hesablamaların nəticələri cədvəl 4-də verilmişdir. Hesablamaların nəticələrinə görə ölkənin BEM üzrə potensial illik elektrik enerji istehsalı 77386,0 mln.kVt.saat təşkil edir. Əldə edilən proqnoz istehsalın həcminə görə Azərbaycan Respublikasının BEM-in ümumi illik elektrik enerji potensialının dəyəri 4411,0 mln.manat təşkil edir. Bu da BEM-lərin milli sərvətimizin formalaşmasında əhəmiyyətinin kifayət qədər olduğunu göstərir.

**Cədvəl 3**

**Azərbaycan Respublikasının bərpa olunan enerji mənbələrinin potensial gücü, elektrik enerji istehsalı və onların qiymətləndirilməsi (01.01.2021 tarixə)**

| Sıra sayı | Bərpa olunan enerji mənbələrinin adları | Bərpa olunan enerji mənbələrinin | | |
|---|---|---|---|---|
| | | Potensial gücü, MVt | İllik elektrik enerji istehsalı, mln.kVt.saat | İllik elektrik enerji potensialının dəyəri, mln.manat |
| 1. | Külək enerjisi | 3000 | 12000,0 | 684,0 |
| 2. | Günəş enerjisi | 23040 | 64512,0 | 3677,2 |
| 3. | Bioenerji | 380 | 874,0 | 49,8 |
| | Yekun | 26420 | 77386,0 | 4411,0 |

Qeyd: Cədvəl Azərbaycan Respublikası Energetika Nazirliyi Yanında Bərpa Olunan Enerji Dövlət Agentliyinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmiş və hesablanmışdır.

Cədvəlin məlumatlarından göründüyü kimi, ölkəmizdə külək, günəş və bio BEM üzrə ən böyük elektrik enerji potensialını günəş enerjisi təşkil edir (64512,0 mln. kVt.saat). Uca yaradanın bizə bəxş etdiyi bu nemətin illik proqnoz elektrik enerji potensialı (3677,2 mln.manat) milli sərvətimizin yaradılması və artırılmasında, nəticədə isə ölkəmizin davamlı iqtisadi inkişafında əvəzsiz rol oynadığını inamla qeyd etmək olar.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədinin 5-ci bəndində (Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi) iqlim dəyişikliyi və onunla mübarizə istiqamətində, eləcə də ölkəmizdə yaşıl enerji məkanı prinsiplərinə əsaslanan bərpa olunan enerjidən iqtisadiyyatın bütün sahələrində tətbiqi məsələləri öz əksini tapmışdır. Bu Milli Prioritet ölkəmizin bərpa olunan enerji sahəsinə və yaşıl iqtisadiyyata diqqətinin bariz nümunəsi kimi qiymətləndirilə bilər. 2030-cu ilə qədər ölkənin ümumi enerji balansında bərpa olunan enerji üzrə qoyuluş gücünün 30%-ə çatdırılması əsas hədəf kimi müəyyən edilmişdir.

Azərbaycanın ümumi elektrik enerjisi istehsalı gücü 7516 MVt, iri su elektrik stansiyaları daxil olmaqla bərpa olunan enerji mənbələri üzrə elektrik stansiyalarının gücü 1278 MVt-dır ki, bu da ümumi gücün 17%-ni təşkil edir. Hidroenerji gücü 1135 MVt (22 ədəd stansiya, 12-si kiçik su elektrik stansiyası), külək enerjisi gücü 66 MVt (5 stansiya, 1-i hibrid) təşkil edir. 1 ədəd hibrid elektrik stansiyasında (Qobustan) külək - 2,7 MVt, günəş - 3 MVt və bioenerji - 1 MVt əsaslı qurğular quraşdırılıb. Naxçıvan Muxtar Respublikasında ümumi gücü 27 MVt olan 2 günəş elektrik stansiyası fəaliyyət göstərir. İri su elektrik stansiyaları daxil edilmədən bərpa olunan enerji mənbələri üzrə qoyuluş gücü 2020-ci ildə 168,3 MVt olmaqla ümumi elektrik enerjisi istehsalı gücünün 2,2%-ni təşkil edib.

2020-ci ilin 9 yanvar tarixində Azərbaycan Respublikasının Nazirlər Kabinetində Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanının "ACWA Power" və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətləri arasında BEM üzrə pilot layihələrin həyata keçirilməsi ilə bağlı İcra müqavilələri imzalanıb. Müqavilələrə uyğun olaraq, "ACWA Power" şirkəti ilə 240 MVt gücündə külək,

"Masdar" şirkəti ilə isə, 230 MVt gücündə günəş stansiyalarının tikintisi ilə bağlı pilot layihələr icra edilməsi nəzərdə tutulub. 2020-ci ilin 30 dekabr tarixində Energetika Nazirliyi, "Azərenerji" ASC və "ACWA Power" şirkətinin iştirakı ilə icrası nəzərdə tutulan 240 MVt külək elektrik stansiyası layihəsi üzrə "İnvestisiya müqaviləsi", "Enerji alqı-satqı müqaviləsi" və "Ötürücü şəbəkəyə qoşulma müqaviləsi" imzalanmışdır.

Asiya İnkişaf Bankının dəstəyi ilə həyata keçirilən "Üzən günəş panelləri sisteminin inkişafına dair biliklərin mübadiləsi və texniki yardım dəstəyi" pilot layihəsi çərçivəsində Böyükşor gölündə 100 kVt gücə malik fotovoltaik sistemin quraşdırılması, habelə günəş qurğularının quraşdırılmasında özəl sektorun iştirakının təşviqi məqsədilə biznes modellərinin formalaşdırılması, təlimlər vasitəsilə milli potensialın gücləndirilməsi nəzərdə tutulur.

Qeyd etmək lazımdır ki, 2020-ci ilin dekabr ayında Energetika Nazirliyi tərəfindən Qarabağın işğaldan azad edilmiş ərazilərinin enerji təminatı, Qarabağ və ətraf regionlarda BEM-in enerji potensialının qiymətləndirilməsi problemlərinin həllində tələb edilən koordinasiyanın təmin edilməsi məqsədilə işlərə start verilmiş və bu məqsədlə İşçi qrupu da fəaliyyətə başlamışdır [6]. Qarabağ Regionu enerji mənbələri, xüsusilə hidroenerji, günəş, külək, bioenerji və geotermal enerji mənbələrilə zəngindir. Bu istiqamətdə həyata keçirilən önəmli vəzifələrdən biri də BEM üzrə, o cümlədən, hidroenerji enerji potensialının düzgün qiymətləndirilməsi və ondan səmərəli istifadənin təmin edilməsidir. Bu məqsədlə müvafiq qurumlar tərəfindən BEM-in müxtəlif enerji növlərini istehsal edəcək stansiya və qurğuların tikilməsinin ilk növbədə texniki-iqtisadi əsaslandırılması həyata keçirilmişdir. Qarabağ Regionu üzrə BEM-in enerji istehsalı baxımından potensialının qiymətləndirilməsi üzrə ilkin hesablamalara əsasən aşağıdakıları qeyd etmək olar. Belə ki, işğaldan azad edilmiş ərazilər üzrə, 6 rayonda: Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcərdə Günəş Elektrik Stansiyalarının (GES) tikintisi məqsədilə ümumi günəş enerji potensialı 4000 MVt-dan artıq qiymətləndirilən 8 perspektiv ərazi müəyyən olunmuşdur. 100 metr yüksəklikdə küləyin orta illik sürətinin 7-8 m/s olduğu geniş ərazilər, xüsusilə Laçın və Kəlbəcər rayonlarının Ermənistanla sərhəddə yerləşən dağlıq hissələri külək enerjisinin əldə edilməsi üçün çox əlverişlidir. Bu ərazilərin mövcud imkanları, infrastrukturları nəzərə alınaraq, ilkin külək enerji potensialı 500 MVt-dək qiymətləndirilir.

Azərbaycan Respublikasının təbii su resurslarının 25%-nin Qarabağ Regionunda yerləşməsi faktı bu regionun hidroenerji potensialının böyük imkanlarından xəbər verir. Bu məqsədlə Tərtər, Bazarçay, Həkəri kimi əsas çaylar və onların qollarında elektrik enerji istehsalı perspektivləri Azərbaycan Respublikası Energetika Nazirliyində araşdırılaraq, regionda mövcud olan kiçik su elektrik stansiyaları haqqında məlumatlar toplanılıb. Araz çayı üzərində Xudafərin və Qız Qalası SES-nın tikintisi yekunlaşmaq üzrədir. Bundan başqa, azad edilmiş ərazilərdə, Tərtər, Kəlbəcər, Laçın rayonlarında mövcud SES-lərin təmir-bərpa işlərinə başlanmış, yeni elektrik stansiyalarının tikilməsi ilə bağlı İranla əməkdaşlıq perspektivləri həyata keçirilməkdədir. Artıq Laçın rayonu ərazisində Həkəri çayı üzərində yerləşən 8 MVt gücündə Güləbirid SES istifadəyə verilmişdir. Bundan başqa, işğaldan azad edilmiş Suqovuşanda yerləşən və ümumi gücü 7,8 MVt olan Suqovuşan-1 və Suqovuşan-2 SES-də əsaslı təmir və bərpa işlərinə başlanmışdır. Hal-hazırda bu stansiyaların mövcud imkanlarından irriqasiya məqsədləri üçün istifadə olunur. Suqovuşan-1 və Suqovuşan-2 stansiyalarının tam bərpasından sonra ilkin olaraq Suqovuşan qəsəbəsi, Talış kəndi də daxil olmaqla, yaxın ərazilərimizin də elektrik enerjisi ilə təmin edilməsilə yanaşı, daha sonra isə enerji paylayıcı elektrik şəbəkəsinin yeni çəkilən elektrik xətləri vasitəsilə başqa ərazilərə və istiqamətlərə ötürüləcəkdir. Bütün bu imkanlarla yanaşı, qeyd etmək lazımdır ki, nəhəng Cənub Qaz kəməri layihəsinin nəinki Azərbaycanın bütövlükdə, həmçinin onun ayrılmaz hissəsi olan Qarabağ Regionunun bərpa və inkişafında böyük rol oynayacağını inamla qeyd etmək mümkündür.

## Nəticə

1. Müasir dövrdə, mövcud xammal-enerji çatışmazlığı və məhdudluğu problemi ilə əlaqədar alternativ və bərpa olunan enerji mənbələrinə, hidroenerji potensialına olan yüksək tələbatı nəzərə alaraq, Azərbaycanda da bu sahədə fəaliyyətlər intensivləşdirilməli və həmçinin Qarabağın azad edilməsilə əlaqədar bu istiqamətdə yeni strategiya və Dövlət Proqramının qəbul edilməsinə zərurət yaranmışdır.

2. Azərbaycan Respublikasının hal-hazırki dövrdə və gələcəkdə də milli sərvətinin artırılmasının əsas istiqamətlərindən biri kimi dəyərləndirilən və ilkin enerji sistemi olan alternativ və bərpa olunan enerji mənbələrinin, o cümlədən su resurslarının tədqiqi, inkişafı, qiymətləndirilməsi, qorunması, iqtisadi cəhətdən çox səmərəli olan bu enerji mənbələrində yeni texnologiyaların tətbiqini zərurət kimi dəyərləndirmək olar.

3. Azərbaycan Respublikasında milli sərvətin artırılmasının əsas mənbələrindən biri kimi dəyərləndirilə bilən bərpa olunan enerji mənbələrinin, o cümlədən hidroenerji potensialının təbii şəkildə mövcudluğu və bolluğu belə enerji mənəbələrinin istifadəsi və tətbiqini, iqtisadi cəhətdən ucuz və səmərəli olmasını şərtləndirir.

4. Milli sərvətin artırılmasının əsas mənbələrindən biri kimi bərpa olunan enerji mənbələrinin imkanlarının inkişafı və artırılması dövlətimizin qarşısında duran əsas strateji və prioritet vəzifələrdən biri olmalıdır. Bununla bağlı alternativ və bərpa olunan enerji mənbələrinin səmərəliliyinin araşdırılması məqsədlidir.

5. Bərpa olunan enerji mənbələri, o cümlədən hidroenerji potensialına malik ərazilərin müəyyənləşdirilməsi və onların üstünlüklərindən istifadə məqsədilə araşdırmaların, tədqiqatların və layihələrin həyata keçirilməsinin zəruriliyi nəzərə alınmalıdır. Bu məqsədlə hərraclar vasitəsilə potensial investorların cəlb edilməsini səmərəli addımlardan hesab etmək olar.

6. Xəzər dənizi və sahilyanı ərazilərdə də bərpa olunan enerji mənbələrinin əlverişli şəraitini nəzərə alaraq külək və günəş enerjisindən istifadə imkanlarının reallaşdırılması ölkəmizin iqtisadi inkişafına təkan verə bilər.

7. Bərpa olunan enerji mənbələrinin ölkənin ümumi elektrik enerji şəbəkəsinə inteqrasiyasının təmini respublikanın bütövlükdə elektrik təminatı şəbəkəsinin güclənməsinə geniş imkanlar yarada bilər.

8. Bərpa olunan, o cümlədən hidroenerji mənbələri üzrə tələb edilən potensialın və şəraitin hərtərəfli qiymətləndirilməsi üzrə tədbirlər sürətləndirilməli və bu işlərin perspektivliyi üçün beynəlxalq təşkilatlarla əməkdaşlıq yaradılmalıdır.

9. Qarabağ regionunun bərpa olunan və hidroenerji resurslardan səmərəli istifadənin təmin olunması imkanları ətraflı araşdırılaraq, bu istiqamətdə də imkanların reallaşdırılması ölkəmizin itirilmiş milli sərvət dəyərlərinin yaradılması və artırılmasına əlverişli şərait yarada bilər.

10. Ənənəvi xammal-yanacaqdan əldə edilən elektrik enerjisinin saxlanılması mümkün olmadığı üçün onun istehsalı və istehlakı arasında kəskin fərqin olması, enerjinin ötürülməsi zamanı böyük itkilərin mövcudluğu səbəbindən bu sahənin faydalı iş əmsalının aşağı olmasını nəzərə alaraq, BEM-in tətbiqi qiymətli yanacağın mənasız sərfinin qarşısını almaqla, ətraf mühitin çirklənməsinin qarşısının alınmasına səbəb olur.

11. Ekoloji davamlılıq göstəricisi ölkədə innovasiyalı iqtisadiyyatın səviyyəsi ilə müəyyən olunduğu üçün, BEM üzrə müasir texnologiyaların tətbiqi genişləndirilməlidir.


**Şəfiqə Məmmədova**

**Azərbaycanın bərpa olunan enerji mənbələri və onların qiymətləndirilməsi**

**Xülasə**

Məqalədə göstərilir ki, ilkin enerji sistemi kimi ənənəvi enerji mənbələrinə nisbətən alternativ və bərpa olunan enerji mənbələrini gələcəkdə ölkənin milli sərvətinin və enerji potensialının artırılmasında mühüm amil kimi dəyərləndirmək olar. Məqalədə Azərbaycanın bərpa olunan enerji mənbələrinin, o cümlədən, küləyin, günəşin, bioenerjinin mövcud və gələcək potensialı, onlardan istifadə istiqamətləri tədqiq olunmuşdur. Milli sərvətin yaradılması, artırılması və dəyərləndirilməsində bərpa olunan enerji mənbələrinin rolunun müəyyən edilməsi məqsədilə, onların proqnoz-potensial güclərinin illik enerji istehsalı hesablanmış və dəyərləndirilmişdir. Bundan başqa ölkədə bərpa olunan enerji mənbələrinin perspektiv istifadə istiqamətlərinə də baxılmışdır.



**Шафига Мамедова**

**Возобновляемые источники энергии Азербайджана и их оценка**

**Резюме**

Альтернативные и возобновляемые источники энергии, по сравнению с традиционными источниками энергии, такими как первичная энергия, можно рассматривать

как важный фактор в увеличении национального богатства и энергетического потенциала страны в будущем. В статье исследуются вопросы текущего и будущего потенциала возобновляемых источников энергии Азербайджана, включая ветровую, солнечную, биоэнергетику, а также направления их использования. Чтобы определить роль возобновляемых источников энергии в создании, увеличении и оценке национального богатства, было рассчитано и оценено годовое производство энергии, исходя из их прогнозно-потенциальной мощности. Кроме того, были рассмотрены направления перспективного использования возобновляемых источников энергии в стране.

**Shafiga Mammadova**

**Renewable energy sources of Azerbaijan and their evaluation**

**Summary**

Alternative and renewable energy sources, compared to traditional energy sources such as the primary energy system, can be regarded as an important factor in increasing the country's national wealth and energy potential in the future. The article examines the current and future potential of renewable energy sources in Azerbaijan, including wind, solar, bioenergy, as well as directions of their use. In order to determine the role of renewable energy sources in the creation, increase and assessment of national wealth, the annual energy production of their projected potential capacity was calculated and estimated. In addition, the directions of the prospective use of renewable energy sources in the country were considered.

**Ədəbiyyat**

1. 2005-2015-ci illərdə istilik-enerji kompleksinin inkişafına dair Dövlət Proqramı // Bakı: - 2004.
2. Bərpa olunan enerji mənbələri üzrə Milli Strategiya // Bakı-2011.
3. Углубленный обзор политики Азербайджана в области энергоэффективности. // Секретариат энергетической Хартии. Баку:-2013, -123с.(www.encharter.org)
4. İnternational Renewable Energy Agency – IRENA // Renewable Capasity statistics.-Abu Dhabi / United Arab Emirates - 2021.-64 p
5. Məmmədov C. Alternativ və bərpa olunan enerji mənbələri və onun üstünlükləri / C.Məmmədov.-Bakı:- www.science.gov.az. -2021.
6. Azərbaycan Respublikası, Energetika Nazirliyi: // https://minenergy.gov.az/az/alternativ və bərpa olunan enerji /.
7. United Nations “Transforming our World” the 2030 Agenda for Sustainable Development // sdgs.un.org/2030 agenda.
8. Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər // AR Prezidentinin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiq edilmişdir. https://prezident.az/articles/50474
9. Elektrik enerjisinin ölkədaxili tariflərinin tənzimlənməsi barədə Azərbaycan Respublikasının Tarif (Qiymət) Şurası // 28 noyabr 2016-cı il tarixli, 17№-li qərarı.
10. Report_Water and Health-AZE-UNECE.
11. thepresentation.ru / geografiya /.
12. minenergy.gov.az / uloads/energetika / alternativ / BOEM.pdf /
13. trend.az / azerbaijan / politics / 3341801.html
14. Pedro Martinez-Santos. Does 91% of the World’s population really have “Sustainable accessto safe drinking water” // International Journal of Water Resources Development, - 2017,vol33. issue 4, p.514-533. [http: // econpapers. repec.org / RePEc:eee:ecolec:v:33:y:2017:i:4:p.514-533].
15. http: // econpapers. repec.org/scripts / search

Məqalə redaksiyaya daxil olmuşdur: 27.09.2021
Təkrar işlənməyə göndərilmişdir: 30.09.2021
Çap üçün qəbul olunmuşdur: 19.11.2021

UOT: 33.311
DOI: 10.338.70/2413-6557-2021-7-4-12-19

# AZƏRBAYCANDA ENERGETİKANIN İNKİŞAFI - STATİSTİK İCMAL

***Əbülfəz Kərimov***
*Azərbaycan Respubikası Dövlət Statistika Komitəsinin*
*Energetika və ətraf mühit statistikası şöbəsi müdirinin müavini*
*AZ1136, Bakı şəhəri, İnşaatçılar prospekti 81*
*e-poçt: abulfaz.karimov@stat.gov.az*

**Açar sözlər:** enerji balansı, enerji məhsulları, istehsal, istehlak, ixrac.
**Ключевые слова:** энергетический баланс, энергопродукты, производство, потребление, экспорт.
**Keywords:** energy balance, energy products, production, consumption, export.

Azərbaycanda həyata keçirilən uğurlu iqtisadi islahatlar nəticəsində energetikanın inkişafı daha da sürətlənmişdir. Ulu öndər Heydər Əliyevin "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir"[1] kəlamı üzərində qurulan siyasət nəticəsində son illər ərzində əhəmiyyətli uğurlara imza atılıb. Bu sahələrdən biri də energetika sahəsidir. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" ilə əsası qoyulan neft strategiyası sonrakı illərdə də uğurla davam etdirilmişdir. Azərbaycanın qazandığı nailiyyətlərin təməlində məhz bu strategiya dayanır. Ölkə prezidenti cənab İlham Əliyevin bilavasitə rəhbərliyi ilə 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri kimi irimiqyaslı layihələr reallaşdırılmış, 2019-cu ilin aprel ayında "Cənub Qaz Dəhlizi" layihəsinin bir hissəsi olan Trans-Anadolu qaz kəmərinin (TANAP) 1-ci mərhələsi çərçivəsində sınaq qaz tədarükünə başlanmışdır. Xəzərin zəngin karbohidrogen ehtiyatları, ölkəmizin coğrafi baxımdan əlverişli yerləşməsi, Azərbaycanın nəinki öz enerji təhlükəsizliyinin təmin edilməsində, eyni zamanda, digər ölkələrin enerji təhlükəsizliyinin təmin olunmasında getdikcə daha fəal rol oynaması dünya ölkələri arasında layiqli yerini tutmuş ölkəmizə öz mövqelərini daha da möhkəmləndirməyə imkan vermişdir.

Səmərəli neft-qaz strategiyasının reallaşdırılması ölkənin dayanıqlı maliyyə resurslarının formalaşmasına və energetika potensialından səmərəli istifadə imkanlarının daha da genişləndirilməsinə şərait yaratmışdır. 2020-ci ildə ilkin enerji məhsullarının (xam neft və təbii qaz, bərpa olunan enerji mənbələrindən əldə olunan elektrik enerjisi) istehsalı 60458,3 min NET (neft ekvivalentinin tonu - Beynəlxalq Standartlaşdırma Təşkilatının tövsiyəsinə uyğun olaraq enerji məhsullarının istilik törətmə qabiliyyəti üzrə qəbul olunmuş etalon şərti ölçü vahidi) olmuşdur.

**Cədvəl 1**

**Ölkə üzrə enerji balansının göstəriciləri, min NET [2]**

| Göstəricinin adı | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|
| İlkin enerji məhsullarının istehsalı | 68254,6 | 61084,2 | 59977,6 | 57036,0 | 58133,4 | 61724,7 | 60458,3 |
| İxrac | 54343,7 | 46055,5 | 45321,7 | 43311,2 | 44270,1 | 44461,2 | 43510,4 |
| **Ümumi təchizat** | **12566,5** | **15569,4** | **15393,5** | **15471,9** | **15556,1** | **17041,9** | **16611,4** |
| Transformasiya sektorunun prosesləri | 2692,7 | 3817,3 | 3731,2 | 3973,4 | 3737,3 | 3637,9 | 3526,0 |
| Energetika sektorunun daxili istehlakı | 931,1 | 1167,0 | 1133,0 | 1147,7 | 1085,6 | 1128,2 | 928,7 |
| İtkilər | 1428,9 | 1325,0 | 1017,6 | 972,0 | 831,6 | 925,1 | 868,1 |
| **Son istehlak** | **7247,6** | **9110,4** | **9424,4** | **9312,7** | **9842,4** | **11291,9** | **11232,7** |
| ondan: sənaye və tikinti | 797,5 | 1341,7 | 1563,5 | 1098,1 | 1046,8 | 1625,1 | 2006,7 |
| nəqliyyat | 1704,4 | 2314,0 | 2151,0 | 2563,9 | 2823,9 | 2791,7 | 2297,1 |
| kənd təsərrüfatı, meşəçilik və balıqçılıq | 406,6 | 449,2 | 433,9 | 444,1 | 490,7 | 519,0 | 599,6 |
| kommersiya və ictimai xidmətlər | 440,0 | 700,6 | 610,2 | 709,8 | 665,4 | 1240,1 | 718,5 |
| ev təsərrüfatları | 3362,1 | 3436,7 | 3816,6 | 3394,1 | 3575,2 | 3791,4 | 4295,3 |

Cədvəl 1-dən göründüyü kimi, ölkə üzrə ilkin enerji məhsullarının istehsalının azalması nəticəsində onların ixracı da azalmışdır. Belə ki, 2010-cu ilə nisbətən 2020-ci ildə ixrac 43510,4 min NET olmaqla 19,9 faiz aşağı düşmüşdür. İlkin enerji məhsullarının istehsalının azalması isə neft hasilatının azalması səbəbindən baş vermiş, qaz hasilatı demək olar ki, ilbəil artmışdır.

2010-cu ildə ixrac edilmiş 54343,7 min NET enerji məhsulunun ümumi ilkin enerji istehsalındakı (68254,6 min NET) payı 79,6 faiz təşkil edirdisə, 2020-ci ildə bu göstərici 72,0 faiz təşkil etmişdir. Ölkə üzrə enerji məhsullarının ümumi istehlakı isə 2010-cu illə müqayisədə 2020-ci ildə 32,2 faiz artaraq 16611,4 min NET olmuşdur. Eyni zamanda, 2020-ci ildə enerji məhsullarının itkilərinin 2010-cu ilə nisbətən 39,2 faiz azalması müsbət hal kimi qeyd olunmalıdır (Cədvəl 1). Əhalinin və iqtisadiyyatın enerji məhsullarına tələbatı artmışdır. 2010-cu ilə nisbətən 2020-ci ildə əhali tərəfindən 27,8 faiz (933,2 min NET), iqtisadiyyatın sənaye və tikinti sahələrində 2,5 dəfə (1209,2 min NET), nəqliyyatda 34,8 faiz (592,7 min NET), kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda 47,5 faiz (193,0 min NET), kommersiya və ictimai xidmətlərdə 63,3 faiz (278,5 min NET) çox enerji məhsulları məsrəf edilmişdir [2].




Şəkil 1. İlkin enerji məhsullarının istehsalı, min NET [2]

2020-ci ildə ölkədə 68,8 milyon neft ekvivalenti tonu həcmində enerji məhsulu istehsal edilmiş və onun 87,8 faizini ilkin enerji məhsulları (xam neft, təbii qaz, bərpa olunan enerji mənbələri üzrə elektrik enerjisi), 8,6 faizini neft emalı məhsulları, 3,6 faizini isə istilik enerjisi və istilik elektrik stansiyalarında istehsal edilmiş elektrik enerjisi təşkil etmişdir.

**Cədvəl 2**

**Dünya bazarında xam neft və təbii qazın qiyməti, ABŞ dolları [3;4]**

| Məhsulun adı | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Xam neft, 1 barel [1)] | 79,6 | 111,3 | 111,6 | 108,6 | 99,0 | 52,3 | 43,6 | 54,1 | 71,3 | 64,3 | 42,0 |
| Əmtəəlik təbii qaz, 1 milyon BTU [2)] | 4,37 | 4,00 | 2,75 | 3,73 | 4,37 | 2,62 | 2,52 | 2,99 | 3,15 | 2,56 | 2,03 |

[1)] 1 ton = 7,39 barel
[2)] 1000 kub metr = 38,5 milyon BTU (Britaniya istilik vahidi)

2010-2020-ci illər ərzində ölkədə 457,6 milyon ton xam neft (qaz kondensatı da daxil olmaqla) hasil olunmuş, onun 387,4 milyon tonu ixrac edilmiş, qalan hissəsi ölkə daxilində istifadə olunmuşdur.




Şəkil 2. Xam neftin (qaz kondensatı da daxil olmaqla) istehsalı, idxalı və ixracı, min ton [2]

Xarici investisiyaların neft-qaz sənayesinə cəlb olunması bu sahənin inkişafına öz töhfəsini vermişdir. Əmtəəlik təbii qazın hasilatı 2010-2020-ci illər ərzində artaraq 213,3 milyard kub və ya hər il orta hesabla 19,4 milyard kub metr olmuşdur. Təbii qaz ehtiyatlarının 2010-2020-ci illər ərzində (dövr ərzində əmtəəlik təbii qazın 1,1 milyard kub metr həcmində olan qalıqlarının dəyişməsi nəzərə alınmaqla) 51,7 faizi ölkə daxilində istehlak edilmiş, 44,0 faizi ixrac olunmuş, 4,3 faizini isə itkilər təşkil etmişdir. 2020-ci ildə dünya enerji bazarında təbii qaz yanacağının qiymətinin 2010-cu ilə nisbətən 53,5 faiz azalmasına baxmayaraq, ölkədə hasil edilən əmtəəlik təbii qazın həcmi 58,7 faiz artmış və onun böyük hissəsi ixrac olunmuşdur (Cədvəl 2, 3).

**Cədvəl 3**

**Əmtəəlik təbii qazın istehsalı və ixracı, milyard kub metr [2]**

| Göstəricinin adı | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| İstehsal | 16,7 | 16,4 | 17,2 | 17,9 | 18,8 | 19,2 | 18,7 | 18,2 | 19,2 | 24,5 | 26,5 |
| İxrac | 6,2 | 6,8 | 6,6 | 7,3 | 8,1 | 8,1 | 8,0 | 8,9 | 9,9 | 11,8 | 13,8 |

Ölkə daxilində də təbii qaza tələbat artmışdır. 2020-ci ildə elektrik və istilik enerjisinin istehsalı üçün təbii qazdan istifadə 2010-cu ilə nisbətən elektrik enerjisi istehsal edən stansiyalarda 62,1 faiz, istilik və elektrik enerjisi istehsal edən istilik elektrik stansiyalarında 14,0 faiz, istilik mərkəzlərində (qazanxanalarda) 2,8 dəfəyə qədər yüksəlmişdir. Müşahidə edilən dövr ərzində təbii qaza daxili tələbat demək olar ki, hər il artmışdır (Cədvəl 4). Bu da təbiidir, çünki iqtisadiyyat inkişaf edir, əhalinin sayı artır. 2010-cu ilə nisbətən 2020-ci ildə əhali tərəfindən əmtəəlik təbii qazın məsrəfi 31,6 faiz (908,4 milyon kub metr), iqtisadiyyatın sənaye və tikinti sahələrində 2,3 dəfə (773,2 milyon kub metr), kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda 7,5 dəfə (149,5 milyon kub metr), kommersiya və ictimai xidmətlərdə 2,0 dəfə (101,8 milyon kub metr) artmışdır [2].

**Cədvəl 4**

**Ölkə daxilində əmtəəlik təbii qazdan istifadə, milyon kub metr [2]**

| Göstəricinin adı | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|
| **Transformasiya sektorunun məsrəfi** | **4237,4** | **5639,2** | **5258,8** | **5667,9** | **6166,3** | **6170,6** | **6110,8** |
| ondan: elektrik enerjisi istehsal edən elektrik stansiyaları | 2403,0 | 3562,1 | 3552,4 | 3275,1 | 3470,1 | 3655,5 | 3894,9 |
| istilik və elektrik enerjisi istehsal edən istilik elektrik stansiyaları | 1741,8 | 1885,2 | 1487,7 | 2185,4 | 2480,5 | 2301,3 | 1986,5 |
| istilik mərkəzləri (qazanxanalar) | 81,0 | 184,9 | 210,7 | 201,9 | 210,4 | 208,3 | 223,1 |
| **Energetika sektorunun daxili istehlakı** | **330,0** | **503,0** | **436,9** | **490,0** | **477,7** | **498,7** | **271,9** |
| **İtkilər** | **1117,0** | **1087,0** | **804,8** | **769,0** | **580,8** | **720,8** | **667,0** |
| **Son istehlak** | **3647,3** | **4139,9** | **4660,3** | **3915,0** | **3818,3** | **5128,6** | **5585,3** |
| ondan: sənaye və tikinti | 609,8 | 1073,5 | 1207,6 | 749,7 | 529.5 | 996,0 | 1383,0 |
| kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 23,0 | 55,5 | 71,8 | 60,8 | 81,6 | 104,6 | 172,5 |
| kommersiya və ictimai xidmətlər | 97,7 | 220,0 | 154,2 | 251,2 | 115,1 | 679,0 | 199,5 |
| ev təsərrüfatları | 2877,9 | 2750,7 | 3186,9 | 2826,5 | 3055,4 | 3316,9 | 3786,3 |

Son illərdə təbii qazın hasilatı, nəqli, tədarükü sahəsində müasir texnologiyaların, avadanlıqların tətbiqi təbii qaz hasilatının artması fonunda itkilərin azalmasına müsbət təsir etmişdir. Əgər 2010-cu ildə əmtəəlik təbii qazın hasilatı 16672,7 milyon kub metr, itkisi 1117,0 milyon kub metr və ya onun istehsaldakı xüsusi çəkisi 6,7 faiz olmuşdursa, 2020-ci ildə 26487,3 milyon kub metr təbii qaz hasil olunduğu halda itkilər 667,0 milyon kub metr və ya 2,5 faiz təşkil etmişdir [2].

Azərbaycanda elektroenergetikanın inkişaf tarixi 1897-ci ildə Bakıda Nobel qardaşları tərəfindən gücü 550 kVt olan elektrik stansiyasının inşa olunması ilə başlamışdır. Bu stansiyanın istehsal etdiyi elektrik enerjisi əsasən sənayenin tələbatının ödənilməsinə yönəldilmiş, cüzi bir hissəsi isə işıqlandırmaya sərf olunmuşdur. 1901-ci ildə Bakıda 2000 at gücündə "Bibiheybət" elektrik stansiyası, 1902-ci ildə isə Qara şəhərdə (indiki Ağ Şəhər) 2000 at gücündə elektrik stansiyası istismara verildi. 1913-cü ildə Bakıda 109,8 min kVt. saat elektrik enerjisi istehsal edilirdi ki, onun da 95,0 faizi neft sənayesinə və yalnız 5,0 faizi işıqlandırmaya yönəldilmişdir [5].

Energetika sektorunda normativ hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilərək Azərbaycan Respublikasının "Enerji resurslarından istifadə haqqında" (1996-cı il), "Energetika haqqında" və "Elektroenergetika haqqında" (1998-ci il), "Elektrik və istilik stansiyaları haqqında" (1999-cu il) qanunları qəbul edilmişdir. Energetikanın sürətli inkişafını nəzərə alaraq bu sahədə gələcəkdə də yeni qanunların qəbul olunması labüddur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasının yanacaq-enerji kompleksinin inkişafı (2005-2015-ci illər) üzrə Dövlət Proqramı" ilə bağlı və "Azərbaycan Respublikasında elektrik enerjisi təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" sərəncamları ölkədə energetikanın inkişafı üçün yeni bir mərhələnin əsasının qoyulmasına zəmin yaratdı, neft sektoru ilə yanaşı qeyri-neft sektorunun inkişafı üçün imkanlar yaxşılaşdı. Qeyri-neft sektorunda sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi faktiki qiymətlərlə 2020-ci ildə 12179,6 milyon manat olmuş və 2010-cu ilə nisbətən 2,4 dəfə artmışdır. Eyni zamanda qeyri-neft sektorunun ümumi sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmində xüsusi çəkisi 2010-cu ildə 18,1 faiz təşkil edirdisə, artıq 2020-ci ildə 32,7 faizə qədər yüksəlmişdir. Qeyri-neft sektorunun sahələrindən biri olan elektrik enerjisinin istehsalında 2010-cu illə müqayisədə 2020-ci ildə 38,1 faiz artım qeydə alınaraq 25839,1 milyon kVt.saat təşkil etmişdir (Cədvəl 5). Sevindirici hal kimi qeyd etmək lazımdır ki, artıq ölkəmiz xam neft və təbii qaz ilə yanaşı elektrik enerjisini də ixrac edən ölkələrin sırasına qatılmışdır. Əgər 2010-cu ildə elektrik enerjisinin ixracı 462,4 milyon kVt.saat olmuşdursa, 2020-ci ildə bu göstərici 1150,7 milyon kVt.saatadək yüksəlmişdir [2].

Cədvəl 5

**Elektrik enerjisinin istehsalı və ixracı, milyon kVt.saat [2]**

| Göstəricinin adı | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|
| İstehsal | 18709,5 | 24688,4 | 24952,9 | 24320,9 | 25229,2 | 26072,9 | 25839,1 |
| İxrac | 462,4 | 265.0 | 1095.5 | 1282.5 | 1445.2 | 1490.9 | 1150,7 |

Ənənəvi enerji mənbələri hesabına əldə edilən elektrik enerjisi ilə yanaşı, alternativ və bərpa olunan enerji mənbələri hesabına elektrik enerjisi istehsalının artırılması üçün də zəruri tədbirlər görülür. Son illər bəzi obyektiv səbəblərdən su elektrik stansiyalarında elektrik enerjisi istehsalının azalması müşahidə olunsa da, külək, günəş enerjisindən istifadə olunmaqla istehsal olunmuş, habelə tullantıların yandırılması nəticəsində əldə edilmiş elektrik enerjisinin həcmi artmaqdadır (Cədvəl 6).

Cədvəl 6

**Alternativ və bərpa olunan enerji mənbələrindən istifadə etməklə elektrik enerjisi istehsalı, milyon kVt. Saat [2]**

| Göstəricinin adı | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|
| **Elektrik enerjisi istehsalı** | **3446,8** | **1828,5** | **2191,9** | **1976,0** | **2052,2** | **1910,3** | **1413,2** |
| ondan: su elektrik stansiyaları | 3446,3 | 1637,5 | 1959,3 | 1746,4 | 1768,0 | 1564,8 | 1069,5 |
| külək elektrik stansiyaları | 0,5 | 4,6 | 22,8 | 22,1 | 82,7 | 105,4 | 96,1 |
| günəş elektrik stansiyaları | - | 4,6 | 35,3 | 37,2 | 39,3 | 44,2 | 47,0 |
| tullantıların yandırılmasından alınan elektrik enerjisi | - | 181,8 | 174,5 | 170,3 | 162,2 | 195,9 | 200,6 |

Su elektrik stansiyaları bilavasitə çay və su hövzələrinin üzərində qurulduğundan elektrik enerjisi istehsalının artımı və ya azalması çaylarda suyun sürətindən və istehsal üçün nəzərdə tutulan suyun həcmindən asılıdır. 2010-cu ilə nisbətən 2020-ci ilin sonuna su elektrik stansiyalarının gücü 15,5 faiz artsa da, elektrik enerjisi istehsalı 69,0 faiz azalmışdır.

Cədvəl 7

**Elektrik enerjisi üzrə güclər, MVt [2]**

| Göstəricinin adı | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|
| **Quraşdırılmış güc – cəmi** | **6397,7** | **7806,7** | **7910,4** | **7941,5** | **7828,9** | **7639,2** | **7621,6** |
| ondan: yanacaqla işləyən ES və İES | 5401,0 | 6652,8 | 6726,8 | 6748,0 | 6552,2 | 6350,3 | 6326,1 |
| su elektrik stansiyaları | 995,0 | 1103,4 | 1105,0 | 1106,4 | 1130,8 | 1144,8 | 1149,4 |
| külək elektrik stansiyaları | 1,7 | 7,7 | 15,7 | 15,7 | 66,0 | 66,0 | 66,0 |
| günəş elektrik stansiyaları | - | 4,8 | 24,9 | 28,4 | 34,9 | 33,1 | 35,1 |
| tullantıların yandırılması qurğuları | - | 37,0 | 37,0 | 42,0 | 44,0 | 44,0 | 44,0 |
| bioqaz qurguları | - | 1,0 | 1,0 | 1,0 | 1,0 | 1,0 | 1,0 |

Elektrik enerjisi istehlakının son 10 il ərzində 56,9 faiz artması fonunda itkilərin 46,7 faiz azalmasını təqdirəlayiq hal kimi qiymətləndirmək olar. Bu, ilk növbədə, ötürücü və paylayıcı elektrik şəbəkələrində aparılmış yenidənqurma işlərinin və ən son texnologiyaların tətbiqinin nəticəsidir (Cədvəl 8).

Cədvəl 8

**Ölkə daxilində elektrik enerjisindən istifadə, milyon kVt. Saat [2]**

| A | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|---|
| **Göstəricinin adı** | **2010** | **2015** | **2016** | **2017** | **2018** | **2019** | **2020** |
| **Energetika sektorunun daxili istehlakı** | **2158,8** | **3935,7** | **3960,4** | **3779,4** | **3861,4** | **3798,2** | **3740,5** |

| A | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|---|
| **İtkilər** | **3830,1** | **2868,6** | **2350,2** | **2250,6** | **2219,8** | **2225,6** | **2042,2** |
| o cümlədən: ötürücü elektrik şəbəkələrində | 716,3 | 514,0 | 390,0 | 392,9 | 364,9 | 364,1 | 363,1 |
| paylayıcı elektrik şəbəkələrində | 3113,8 | 2354,6 | 1960,2 | 1857,7 | 1854,9 | 1861,5 | 1679,1 |
| **Son istehlak** | **12233,7** | **17619,1** | **17618,0** | **17085,0** | **17811,5** | **18666,2** | **19019,1** |
| ondan: sənaye və tikinti | **1757,6** | **3163,0** | **3517,1** | **3611,2** | **3723,8** | **4397,9** | **4559,0** |
| kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 665,9 | 903,1 | 978,6 | 1026,3 | 1117,4 | 1144,8 | 1504,9 |
| kommersiya və ictimai xidmətlər | 3510,5 | 5133,2 | 4622,3 | 4915,7 | 5886,9 | 6309,0 | 5634,1 |
| ev təsərrüfatları | 5755,3 | 7937,9 | 8071,5 | 7134,6 | 6699,3 | 6418,0 | 7118,0 |

Azərbaycanda elektrik enerjisinin adambaşına istehlakı 2010-cu illə müqayisədə 2020-ci ildə 29,3 faiz artaraq 2542,0 kVt.saat olmuşdur.

**Cədvəl 9**

**Bəzi ölkələr üzrə elektrik enerjisinin adambaşına istehlakı, kVt. Saat [6]**

| Ölkələr | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020*) |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Azərbaycan | 1966 | 2100 | 2342 | 2348 | 2453 | 2421 | 2421 | 2332 | 2394 | 2448 | 2542 |
| Belarus | 3483 | 3216 | 3076 | 3144 | 3463 | 3396 | 3343 | 3438 | 3882 | 3990 | 3803 |
| Gürcüstan | 2436 | 2445 | 2331 | 2437 | 2519 | 2636 | 2826 | 2820 | 2978 | 2904 | 2904 |
| Moldova | 1411 | 1338 | 1341 | 1045 | 1246 | 1401 | 1357 | 1153 | 1255 | 1329 | 1329 |
| Rusiya | 6842 | 6943 | 7036 | 6947 | 6959 | 6962 | 7106 | 7114 | 7175 | 7256 | 7026 |
| Ukrayna | 3894 | 4031 | 4118 | 4033 | 3804 | 3391 | 3434 | 3275 | 3396 | 3247 | 3052 |
| Qazaxıstan | 4805 | 4959 | 5231 | 5714 | 5202 | 4934 | 5026 | 5398 | 5552 | 5474 | 5517 |
| Qırğızıstan | 2200 | 2710 | 2662 | 2418 | 2457 | 2149 | 2147 | 2471 | 2429 | 2313 | 2313 |
| Türkmənistan | 3079 | 3129 | 3168 | 3306 | 3509 | 3807 | 3742 | 3679 | 3621 | 3565 | 3565 |
| Özbəkistan | 1728 | 1723 | 1703 | 1725 | 1733 | 1764 | 1781 | 1817 | 1830 | 1851 | 1851 |
| Almaniya | 7755 | 7513 | 7695 | 7797 | 7637 | 7855 | 7845 | 7838 | 7668 | 7231 | 6771 |
| Latviya | 3127 | 2910 | 2981 | 3036 | 2543 | 2770 | 3255 | 3860 | 3488 | 3389 | 3091 |

2020-ci ildə 2010-cu ilə nisbətən istilik enerjisinin istehsalı 3,6 dəfə artaraq 3263,3 min Qkal, istehlakı 5,5 dəfə artaraq 3055,1 min Qkal, itkiləri isə 70,8 faiz artaraq 206,3 min Qkal təşkil etmişdir (Cədvəl 10). Qeyd etmək lazımdır ki, itkilərin həcmi artsa da, onların istehsalın həcmində xüsusi çəkisi 13,3 faizdən 6,3 faizə enmişdir. İstilik enerjisi itkilərinin azalması son illər bu sahədə aparılmış yenidənqurma işlərinin, yeni texnoloji avadanlıqlarının tətbiqinin nəticəsidir.

**Cədvəl 10**

**İstilik enerjisinin istehsalı və istifadəsi, min Qkal [2]**

| Göstəricinin adı | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|
| **İstehsal** | **904,9** | **1552,7** | **1739,2** | **1571,6** | **2923,0** | **3347,5** | **3263,3** |
| **Energetika sektorunun daxili istehlakı** | **232,8** | **146,2** | **118,6** | **10,4** | **3,3** | **2,3** | **1,9** |
| **İtkilər** | **120,8** | **175,1** | **200,0** | **189,8** | **195,6** | **190,8** | **206,3** |
| **Son istehlak** | **551,3** | **1231,4** | **1420,6** | **1371,4** | **2724,1** | **3154,4** | **3055,1** |
| ondan: sənaye və tikinti | **1,6** | **-** | **-** | **-** | **1283,4** | **1711,5** | **1517,1** |
| kommersiya və ictimai xidmətlər | 222,2 | 212,8 | 269,0 | 241,1 | 234,3 | 233,9 | 199,2 |
| ev təsərrüfatları | 327,5 | 1018,6 | 1151,6 | 1130,3 | 1206,4 | 1209,0 | 1338,8 |

2010-2020-ci illər ərzində ölkədə 57449,5 min ton əsas növ neft emalı məhsulları (benzin, dizel (qazoyl), mazut, neft-kimya sənayesində istifadə üçün benzin, aviasiya üçün və sair ağ neft, neft bitumu, maye qaz və sürtkü yağları) istehsal edilmiş, 2243,7 min ton isə ölkəyə idxal olunmuşdur. Dövr ərzində 63974,0 min ton əsas neft məhsullarının (əsas neft məhsullarının 4280,8 min ton həcmində olan qalıqların dəyişməsi nəzərə alınmaqla) 27,0 faizi ixrac edilmiş, 73,0 faizi isə ölkə daxilində bu məhsullara tələbatın ödənilməsinə sərf edilmişdir. 2010-2020-ci illər ərzində əsas

növ neft emalı məhsullarının ümumi istehlakı 46690,1 min ton olmuşdur. Ümumi istehlakın 43,5 faizini avtomobil benzini, 28,2 faizini dizel yanacağı, 7,1 faizini maye qaz, 5,8 faizini neft bitumu, 5,0 faizini aviasiya üçün və sair ağ neft, 5,0 faizini neft-kimya sənayesində istifadə üçün benzin, 4,3 faizini mazut yanacağı, 1,1 faizini isə sürtkü yağları təşkil etmişdir. [2]

**Cədvəl 11**

**Əsas növ neft emalı məhsullarının istehlakı, min ton [2]**

| Məhsulun adı | 2020 | 2010 | 2020 / 2010, % |
|---|---|---|---|
| **Cəmi** | **3484,4** | **2660.3** | **131,0** |
| o cümlədən: avtomobil benzini | 1178,6 | 1056,0 | 111,6 |
| dizel yanacağı (qazoyl) | 1285,5 | 867,6 | 148,2 |
| mazut | 58,8 | 80,8 | 72,8 |
| neft-kimya sənayesində istifadə üçün benzin | 315,7 | 217,0 | 145,5 |
| aviasiya üçün və sair ağ neft | 149,4 | 97,3 | 153,5 |
| neft bitumu | 256,1 | 219,0 | 116,9 |
| maye qaz | 181,5 | 89,2 | 2,0 dəfə |
| sürtkü yağları | 58,8 | 33,4 | 176,0 |

Müasir dünyada enerji mənbələrindən səmərəli istifadə edilməsi böyük əhəmiyyət kəsb edir. Azərbaycanda 2010-cu ildə istehsal olunan 1 kq enerji məhsulunun ÜDM-də dəyəri 2,1 manat (1 manat/kq neft ekvivalenti)[1)] 2020-ci ildə isə 1,8 manat olmuş, yanacaq və enerji xərclərinin ümumi istehsal xərclərindəki xüsusi çəkisi 5,9 faizdən 3,6 faizə, elektrik enerjisi xərcləri isə 1,8 faizdən 0,9 faizə qədər azalmışdır (Cədvəl 12). [2]

**Cədvəl 12**

**Enerji səmərəliliyi göstəriciləri [2]**

| Göstəricinin adı | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|
| İstehsal olunan 1 kq enerji məhsulunun ÜDM-də dəyəri (1 manat/kq neft ekvivalenti) [1)] | 2,1 | 1,9 | 1,9 | 1,9 | 1,9 | 1,9 | 1,8 |
| Ümumi istehsal xərclərində yanacaq və enerji xərclərinin xüsusi çəkisi, faizlə | 5,9 | 5,8 | 4,5 | 4,8 | 4,4 | 3,7 | 3,6 |
| Ümumi istehsal xərclərində elektrik enerjisinin xərclərinin xüsusi çəkisi, faizlə | 1,8 | 1,2 | 0,9 | 1,0 | 1,1 | 1,0 | 0,9 |

1) 2005-ci ilin qiymətləri ilə

## Nəticə

Energetika Azərbaycan iqtisadiyyatının strateji və prioritet sahələrindən biri hesab olunur. Elektrik enerjisinin istehsalının və enerji təhlükəsizliyinin təmin edilməsi məqsədilə alternativ və bərpa olunan enerji mənbələrinin gücünün artırılması təqdirəlayiq hal kimi qiymətləndirilməlidir. Dünya enerji bazarında keyfiyyətli və daha səmərəli enerji məhsullarına tələbatın artdığını nəzərə alaraq xam neft, təbii qaz və neft məhsullarının emal sahələrinə ən son dünya standartlarına cavab verən müasir texnologiyaların tətbiqi ölkəmizə enerji məhsullarının həm istehsalından, həm də ölkə daxilində istehlakından daha səmərəli istifadə etməyə imkan verər. Ölkəmizin ilkin enerji məhsullarının (xam neft, təbii qaz hasilatı və s.) istehsalçısı olduğu nəzərə alınaraq energetika sahəsinin daha da inkişaf etdirilməsi üçün strateji proqramlar və layihələr həyata keçirildiyi zaman istehlakçılarla yanaşı, istehsalçıların da maraqlarının nəzərə alınması əsas amillərdən biri olmalıdır.

İqtisadiyyat inkişaf etdikcə, sözsüz ki, ölkə daxilində enerji məhsullarına tələbat da artacaq. Bu zaman, ekoloji tarazlılığın pozulmasının qarşısını almaq üçün $CO_2$ (karbon dioksidi) qazının tullantılarının minimuma endirilməsi məqsədilə xam neft və təbii qaz emalı müəssisələrində müasir texnologiyalar tətbiq edilməlidir. Eyni zamanda, ölkədə mövcud olan nəqliyyat parkı tədricən

yenilənməli, elektrik enerjisi ilə işləyən və hibrid nəqliyyat vasitələrinə üstünlük verilməlidir. Həmçinin, ictimai şəhər nəqliyyatında elektrik enerjisi ilə işləyən (metro, tramvay, trolleybus) nəqliyyat növlərinin inkişafı prioritet olmalıdır.

**Əbülfəz Kərimov**
**Azərbaycanda energetikanın inkişafı - statistik icmal**
**Xülasə**

Məqalədə energetika sektorunun mövcud vəziyyəti və inkişafı konkret rəqəmlər əsasında təhlil edilmişdir. Enerji məhsullarının istehsalı, istehlakı, ixracı, habelə alternativ və bərpa olunan enerji mənbələrinə dair 2010-2020-ci illər üzrə dinamika sıralarından istifadə olunmuşdur. Dövlət proqramlarının və digər normativ sənədlərin energetika sektorunun inkişafına təsirinin əhəmiyyətinə, bununla yanaşı, son dövrlər dünyada aktual məsələlərdən biri olan enerji səmərəliliyi mövzusuna toxunulmuş və onun inkişaf perspektivləri qeyd edilmişdir.

**Абульфаз Каримов**
**Развитие энергетики в Азербайджане-статистический обзор**
**Резюме**

В статье анализируются вопросы текущего состояния и развития сектора энергетики на основе конкретных данных. Используются данные динамических рядов по производству, потреблению, экспорту энергетических продуктов, а также альтернативных и возобновляемых источников энергии за 2010-2020 годы. Подчеркнута важная роль принятия государственных программ и других нормативных актов для развития энергетики. Затрагиваются вопросы энергоэффективности и перспектив развития энергетики, которые, в последнее время, являются одними из самых актуальных в мире.

**Abulfaz Karimov**
**Development of energy sector in Azerbaijan-statistical overview**
**Summary**

The article analyzes the current state and development of the energy sector on the basis of the concrete figures. Time series for 2010-2020 were used for the production, consumption, export of energy products, as well as alternative and renewable energy sources. The importance of the influence of state programs and other regulatory documents on the development of the energy sector, at the same time, the topic of energy efficiency which recently became one of the actual issues in the world were touched upon and its development prospects were noted.

## Ədəbiyyat

1. https://ikisahil.az/post/iqtisadiyyati-guclu-olan-dovlet-her-sheye-qadirdir
2. “Azərbaycanın energetikası”. Statistik məcmuə. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı-2021
3. https://www.eia.gov/dnav/pet/hist/rbrteD.htm
4. http://www.eia.gov/dnav/ng/hist/rngwhhdd.htm
5. http://www.aera.gov.az/az/history/energetika-inkishaf “Azərbaycanda elektroenergetikanın inkişaf tarixi”
6. https://ourworldindata.org/grapher/per-capita-electricity-consumption?tab=table&time=2017..2018&region=Asia

Məqalə redaksiyaya daxil olmuşdur: 17.09.2021
Təkrar işlənməyə göndərilmişdir: 23.09.2021
Çap üçün qəbul olunmuşdur: 19.11.2021

UOT: 33.311
DOI: 10.338.70/2413-6557-2021-7-4-20-31

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA EV TƏSƏRRÜFATLARININ İNKİŞAFININ ƏSAS ZƏMİNİ KİMİ SAHİBKARLIQ FƏALİYYƏTİ

***Samiddin Qasımov***
*Sumqayıt Dövlət Universitetinin doktorantı*
*AZ 5008, Sumqayıt şəhəri, 43-cü məhəllə, Bakı küçəsi 1*
*e-poçt: qsamiddin@mail.ru*

**Açar sözlər:** Naxçıvan Muxtar Respublikası, ev təsərrüfatları, sahibkarlıq mühiti, sahibkarlıq fəaliyyəti-özünüməşğulluq, sahibkarlıq fəaliyyəti-təhsil səviyyəsi.
**Ключевые слова:** Нахчыванская Автономная Республика, домохозяйства, бизнес-среда, предпринимательская деятельность-самозанятость, предпринимательская деятельность-уровень образования
**Keywords:** Nakhchivan Autonomous Republic, households, business environment, entrepreneurial activity-self-employment, entrepreneurial activity-level of education

Məzmun etibarilə mürəkkəb bir sistemi əks etdirən ev təsərrüfatları istehsal yönümlü iqtisadi fəaliyyət sahələrini əhatə etməklə daxili bazarın keyfiyyətli təminatında və bu istiqamətdə idxaldan asılılığın azaldılmasında, o cümlədən məşğulluğun təmin olunmasında müstəsna rol oynayır. Ev təsərrüfatlarının mürəkkəb bir sistemi əks etdirməsi insan oğlunun zamanla dəyişən fəaliyyəti ilə bağlıdır və onda baş verən dəyişikliklərin iqtisadi proseslərə təsirini nəzərə almaq olduqca çətindir. Rus iqtisadçısı V.V. Qluxova əsaslanaraq söyləyə bilərik ki, "əmtəə və xidmətlərin istehsalı və bölgüsü prosesində mühüm rol oynayan ev təsərrüfatlarının müxtəlif tarixi dövrlərdə ictimai münasibətlərin xarakterindən asılı olaraq iqtisadiyyatdakı yeri və rolu, strukturu və funksiyaları, hüquq və cavabdehliyi, cəmiyyətdəki mövqeyi və ya sosial-iqtisadi statusu dəyişmişdir" [6, səh.8]. Qeyd olunanlar ev təsərrüfatlarının icra edə biləcəyi funksiyalara diqqəti çəkir ki, bunlardan biri də sahibkarlıq fəaliyyətidir. Başqa sözlə desək, kiçik təsərrüfat formaları şəklində fəaliyyətə başlayan ev təsərrüfatlarının böyük əksəriyyəti zamanla müxtəlif mərhələlərdən keçərək müəyyən bir böyüklüyə çatır [4]. Belə ki, hazırladıqları məhsulları özlərinə məxsus brend və ya marka adı altında satışa çıxarmaları ev təsərrüfatlarını işlərini böyütməyə, bazara yeni məhsullar təqdim etməyə həvəsləndirir ki, bu da ailə biznesinin formalaşması və genişlənməsi nəticəsində kiçik və orta sahibkarlığın inkişafına zəmin yaradır.

Son illər muxtar respublikada ev təsərrüfatlarının inkişafı istiqamətində görülən ardıcıl tədbirlər – Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 22 noyabr tarixli və 2019-cu il 18 yanvar tarixli sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı"nın icrası nəticəsində 2018-ci ildə 319 ixtisaslaşmış ailə təsərrüfatı yaradılmış, 87 ailə təsərrüfatına 820 min manata yaxın dövlət dəstəyi göstərilmiş, 315 ev təsərrüfatı 12800-dən çox tara ilə təmin olunmuş, ailə təsərrüfatlarının biznes planlarının tərtib olunmasına köməklik göstərilmiş, təsərrüfatlara müxtəlif təyinatlı kənd təsərrüfatı texnikaları və gübrələr verilmiş, onların istehsal etdikləri məhsulların tanıdılması, təşviqi və sərgilənməsi məqsədilə "Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətin sərgi salonunda ailə təsərrüfatlarının 118 çeşiddən çox məhsullarının nümayişi təmin olunmuşdur [7].

Sahibkarlıq fəaliyyətinin mahiyyətinin açıqlanmasına gəldikdə isə, deyə bilərik ki, bu fəaliyyət mürəkkəb bir iqtisadi məzmuna malik iqtisadi kateqoriya kimi:

- iqtisadi fəaliyyətin müxtəlif növləri üzrə bir-birləri ilə iqtisadi əlaqələrə girən bazar subyektləri arasında çoxsahəli qarşılıqlı münasibətləri əks etdirir;
- səmərəli təsərrüfatçılıq tipi olub ən az məsrəflərlə, əməyin və istehsalın təşkilinin ən səmərəli metodlarını tətbiq etməklə iqtisadi fəaliyyəti həyata keçirməyə yönəlir;

- mütərəqqi iqtisadi təfəkkür olub öz obyektlərində, əsasən, tələbata uyğun məhsullar istehsal etmək və satmaq, istehlakçılara yüksək keyfiyyətli xidmət göstərmək kimi hisləri tərbiyə edir [3, səh. 269].

Sahibkarlıq fəaliyyəti ilk növbədə özünün obyekti və subyekti ilə təsnifləşdirilməkdədir. Sahibkarlığın obyektini müvafiq fəaliyyətin həyata keçirildiyi hər hansı fəaliyyət sahəsi təşkil etdiyi halda, onun subyekti istənilən ev təsərrüfatına aid fərdi vətəndaşlar və ya onların yaratdığı fiziki və ya hüquqi şəxs formasında fəaliyyət göstərən subyektlərdir.

Qeyd etmək yerinə düşər ki, sahibkarlıq fəaliyyəti istiqamətlər baxımından qanunvericiliyin yaratdığı çərçivələrlə məhdudlaşır. Ev təsərrüfatının üzvündən sahibkara çevrilmə mərhələsi bəlli dövriliklə və peşəkarlıqla müşahidə olunmaqdadır. Yəni, sadə vətəndaşdan sahibkara çevrilən fərd öz ətrafında bütün komponentlərin məqbul, səmərəli, optimal konfiqurasiyalarda məcmusunu formalaşdırmaqla mərhələli şəkildə fəaliyyətə keçməlidir. Burada təzahür formalarından biri kimi fiziki şəxs təməlləri əsasında yaradılan və hal-hazırda özünüməşğulluğun mühüm istiqamətlərindən hesab edilən ailə təsərrüfatları da ola bilər. Ev təsərrüfatı üzvlərinin sahibkarlıq fəaliyyəti ilə məşğul olması nəticəsində bir tərəfdən təşkilati-iqtisadi məsələlərin, digər tərəfdən isə tənzimləmə alət və vasitələrinin istifadəsi aktuallaşmaqdadır. İqtisadi şərtlər sırasında öncəliklə aşağıdakı şərtlərin gözlənilməsi zəruridir:

1. Ev təsərrüfatı üzvlərinin əmtəələrin tələb-təklifi proseslərində iştirakı;
2. Əmtəə dövriyyəsində iştirak edən kəmiyyət ifadəsindəki maliyyə vəsaitləri;
3. İş sahəsinin təşkili – burada istehsal və ya xidmətin göstərilməsi hər hansı fərd tərəfindən həyata keçirilə bilər, yaxud məşğuliyyətin texnologiyasından asılı olaraq əlavə iş yerlərinin açılması zərurəti meydana çıxa bilər. Bəhs olunan situasiyanın əksi ilə bağlı (sonrasında ixtisara məruz qalacaq iş yerlərinin artıqlığı) da fikir söylənə bilər;
4. Yaddan çıxarılmamalıdır ki, işgüzar fəaliyyət gəlirlərin əldə olunması, əlavə işçi cəlbi isə onlarla bağlı əmək ödənişləri məsələlərini də aktuallaşdırır.

Nəzərdən qaçırmamalıyıq ki, real iqtisadi vəziyyətə, sahibkarlıq mühitinə də bir çox amilin təsiri düzgün qiymətləndirilməlidir. Bu sırada aşağıdakı mühüm elementlərin roluna xüsusi diqqət yetirilməlidir: gəlirlərin səviyyəsi, maliyyə vəsaitlərinin kəmiyyət ifadəsi, onların dövretmə sürəti və keyfiyyət ifadəsi, investisiya təyinatlı kapital həcminin müqayisəli vəziyyəti, biznes-fəaliyyətdə xüsusi və borc vəsaitlərinin istifadə imkanları və xüsusi çəkiləri və s. Sahibkarlıq fəaliyyətinin özü vahid geniş, müxtəlif "çalarlı" sistemə malikdir [5, səh. 13]. Bu zaman əlamətlərin ilk növbədə aşağıdakı mühüm qrupları fərqləndirilə bilər. Bəhs olunan sırada ilk yeri iqtisadi sahə üzrə göstərilən fəaliyyətə görə qruplaşdırma tutur. Deyilən fikrin məzmunu ilk növbədə ölkə iqtisadiyyatının sahəvi bölgüsünü sərgiləyir və fərdin sahibkarlıq fəaliyyətinin hansı sahəyə konkret aid olduğunu göstərməkdədir.

İkinci qrup mülkiyyət və onun sahibi (və ya sahibləri) haqqında informasiyanı özündə ifadə etməkdədir. Daha dəqiq bildirməyə ehtiyac varsa, qeyd edə bilərik ki, bir tərəfdən sahibkarlıq obyekti mülkiyyət forması (dövlət, xüsusi, bələdiyyə) əsasında, spesifik münasibətlər əsasında (ancaq icarə, sonradan istifadəçi tərəfindən alınmaqla müddətli icarə, birbaşa satış, dəyəri ödənilmədən əldəyişdirmə və s.) şəkilləndirilir. Sahibkarlıq fəaliyyətində istifadə olunan obyekt (torpaq sahəsi, fəaliyyət həyata keçirilməsi üçün fərdə kirayəyə verilmiş tikili, avtonəqliyyat vasitəsi, müxtəlif cihaz və avadanlıqlar, rəsmiləşdirilmiş internet "pəncərəsi" və s.) görüləcək işlərin və perspektiv dövrdə gəlirlərin yaranmasına səbəb olan amil və mənbələrin məqsədyönlü istifadəsini nəzərdə tutur. Bu zaman hər hansı obyekt və ya obyektlər dəsti bir və ya bir neçə (eyni yaxud fərqli ailəyə aid) mülkiyyətçiyə aid ola bilər.

Baxılan məsələnin tərkib elementləri sırasında perspektiv dövrdə daha kompleks şəkildə sahibkarlıq fəaliyyətinin təşkilati-hüquqi və təşkilati-iqtisadi formaları üzrə də qruplaşdırılmanın həyata keçirilməsi də qanunauyğun hallardan biri kimi qiymətləndirilə bilər. Məsələn, qruplardan birincisinin əlaməti – təşkilati-hüquqi əlamət üzrə təsnifləşdirmədə ilk növbədə şərikli subyektlər, cəmiyyətlər və kooperativlər fərqləndirilməlidir. Adı çəkilən quruluşların hər biri özünün daxili sisteminə malikdir, tərkib ünsürləri ilə seçilməkdədir.

Təşkilati-iqtisadi qrupa aid subyektlər sırasında ev təsərrüfatına aidiyyatı ilə seçilən əsas quruluşu xüsusi sahibkarlıq formaları və birgə fəaliyyət təşkil etməkdədir. Bu halda ev təsərrüfatı üzvü muzdlu fəaliyyətlə başqa subyektdə məşğul ola bilər, yaxud özü tərəfindən bir nəfərlə başlanan, perspektivdə isə onu inkişaf etdirərək fiziki və hüquqi formalı subyektə çevirə bilər. Beynəlxalq təcrübədə ilki fərdi fəaliyyətlə start götürən, sonralar isə kifayət qədər zəngin ailəvi sahibkarlıq subyektinə transformasiya olunan çoxlu sayda subyekt mövcuddur. Onu da ifadə etmək yerinə düşər ki, artıq kifayət qədər maliyyə resurslarına malik olan təşkilati-iqtisadi sahibkarlıq formaları sırasında mühüm yerlərdən birini maliyyə sənaye qrupları təşkil edir ki, onlar da məzmunca bir çox istiqamətin məcmusu kimi çıxış etməkdədir.

Qeyd edildiyi kimi, ev təsərrüfatı üzvləri tərəfindən yaradılan sahibkarlıq subyektləri əksər hallarda onun fərdləri vasitəsilə formalaşır və fiziki şəxs qaydasında fəaliyyəti icra etməkdədir. Bəhs olunan variantlarda təsbit olunacaq sahibkarlıq istiqamətləri sırasında ilk növbədə aşağıdakılar fərqləndirilə bilər:

a) muzdlu işdən sonrakı (və ya sərbəst) dövrdə özünün avtonəqliyyat vasitəsinə malik olma əsasında nəqliyyat-daşıma xidmətləri göstərmək;
b) pərakəndə satış sferasında və ya topdansatış sisteminin fəaliyyət "halqası" kimi təzahür etmək;
c) fərdi şəkildə fəaliyyəti mümkün olan müxtəlif istiqamətlər (hüquqi, mühasibat. vasitəçilik və s. xidmətləri) üzrə öz işini qurmaq;
ç) reklam, işədüzəltmə, rabitə, informasiya, sığorta və digər analoji agentliklər formasında xüsusi fəaliyyəti təmin etmək və s.

İfadə etdiyimiz təsnifat ilk növbədə kiçik dövriyyəli sahibkarlıq subyektinin yaradılmasına diqqəti çəkir. Bununla belə, hətta ev təsərrüfatının fərdi sifəti ilə malik olduqları maliyyə resursları və özünü təqdimetmə imkanları, geniş cəmiyyət və işgüzar çevrə, digər zəruri amillər kifayət qədər böyük dövriyyələrə malik hüquqi və fiziki subyektlərin (ailə subyektlərindən iri şirkətlərədək) yaradılmasına imkan verə bilər.

Ev təsərrüfatlarının sahibkarlıq fəaliyyəti ilə bağlı araşdırmalarında bəlli "quruluşların" verilməsi ilə yanaşı, onun obyektinin "mərkəz" şəklinə salınması və ətrafında zəruri komponentlərdən ibarət "kompleksin" formalaşdırılması mövcud ola biləcək təşkilatlanmada konkret rəqəmlərin istifadəsini və bu əsasda onlar üzrə hesablamaların aparılmasını diktə edir.

İlk növbədə yaddan çıxarmayaq ki, ev təsərrüfatı üzvlərinin gəlirlərinə təsir edən amillərdən biri onların istehlak xərcləridir. Fərdlərin "təsərrüfat hesablı" mövcudluğu insanları daha yüksək qazanc uğrunda mübarizəyə sövq edir. Məhz bu əsasda qeyd oluna bilər ki, 2018-ci illə müqayisədə 2019-cu ildə ev təsərrüfatlarının fərdi gəlirlərin səviyyəsi adambaşına ifadədə orta hesabla 6,3% artmışdır (322 manat : 303 manat). Ölkə üzrə istehlak xərclərinin adambaşına ifadələrinin orta səviyyəsi öz növbəsində 4,3% artmışdır (298,41 manat : 286,02 manat). İfadə olunan konkret kəmiyyətlər 2018 və 2019-cu illərin gəlirlər və istehlak xərcləri müqayisəsində düz yöndə hərəkətlənmələr baş versə də, onların artım templəri arasındakı fərq gəlirlərin xeyrinə 2%-lik (6,3% - 4,3%) təşkil etmişdir [2].

Gəlirlərin formalaşdırılması və bölüşdürülməsi, həmçinin onların əsas qruplarının xüsusi çəkilərinin müəyyən edilməsi kontekstində aparılan araşdırmalar da öz əhəmiyyətini qorumaqdadır. Bu məqsədlə cədvəl 1-in məlumatlarına nəzər salaq.

**Cədvəl 1**

**2001-2019-cu illər üzrə ev təsərrüfatlarında ayda adambaşına düşən gəlirlər, manatla [2]**

| | Gəlirlər, cəmi | o cümlədən | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Muzdlu işlə əlaqədar əldə edilən gəlirlər | | Sahibkarlıq fəaliyyəti və özüməşğulluqdan gəlirlər | | Kənd təsərrüfatından gəlirlər | | Alınmış cari transfertlər | | Digər gəlirlər | |
| | | Mütləq ifadə | Xüsusi çəki,% | Mütləq ifadə | Xüsusi çəki,% | Mütləq ifadə | Xüsusi çəki,% | Mütləq ifadə | Xüsusi çəki,% | Mütləq ifadə | Xüsusi çəki,% |
| **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** | **8** | **9** | **10** | **11** | **12** |
| 2001 | 29,1 | 11,6 | 39,9 | 0,6 | 2,1 | 10,3 | 35,4 | 2,8 | 9,6 | 1,4 | 4,8 |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 2005 | 64,4 | 19,4 | 30,1 | 15,1 | 23,5 | 12,0 | 18,6 | 7,5 | 11,7 | 9,3 | 14,4 |
| 2010 | 144,2 | 50,0 | 34,7 | 36,3 | 25,2 | 20,1 | 13,9 | 21,8 | 15,1 | 14,3 | 9,9 |
| 2011 | 166,0 | 54,4 | 32,8 | 42,2 | 25,4 | 23,3 | 14,0 | 27,5 | 16,6 | 16,8 | 10,1 |
| 2012 | 190,9 | 62,1 | 32,5 | 48,6 | 25,5 | 26,3 | 13,8 | 32,2 | 16,2 | 19,7 | 10,3 |
| 2013 | 214,7 | 70,7 | 32,9 | 55,2 | 25,7 | 29,8 | 13,9 | 34,6 | 16,1 | 22,3 | 10,4 |
| 2014 | 230,0 | 74,8 | 32,5 | 61,2 | 26,6 | 30,6 | 13,3 | 36,7 | 15,9 | 24,5 | 10,7 |
| 2015 | 240,5 | 78,2 | 32,5 | 63,9 | 26,6 | 32,1 | 13,3 | 38,0 | 15,8 | 26,0 | 10,8 |
| 2016 | 257,8 | 86,3 | 33,5 | 66,7 | 25,9 | 33,9 | 13,1 | 40,9 | 15,9 | 27,8 | 10,8 |
| 2017 | 268,4 | 89,5 | 33,4 | 68,6 | 25,6 | 35,9 | 13,4 | 41,8 | 15,6 | 30,2 | 11,3 |
| 2018 | 276,0 | 92,4 | 33,5 | 70,2 | 25,4 | 36,0 | 13,0 | 44,4 | 16,1 | 30,6 | 11,1 |
| 2019 | 292,6 | 99,3 | 33,9 | 107,1 | 36,6 | 36,4 | 12,4 | 49,3 | 16,8 | 34,4 | 11,8 |

Cədvəl 1-in məlumatlarının ardıcıl şəkildə qurulması onun nə dərəcədə ev təsərrüfatlarının yaşam tərzinə təsir etməsi haqqında təsəvvür yaratmaqdadır. Bu sırada beş əsas amilin öncədən müəyyən edilməsi və onlar üzrə 19 illik zaman kəsiyinin əsas olaraq seçilməsi bu dövrdə baş verən dəyişmələrin meylini və sürətini müəyyənləşdirməkdədir. Müvafiq cədvəldə cəmlənmiş informasiyaların daha aydın başa düşülməsi üçün sütunlu diaqramdan da istifadə oluna bilər(şəkil 1).




Burada şərti rəqəm işarələnməsi aşağıdakı kimidir:
1 – muzdlu işlə əlaqədar əldə edilən gəlirlər 2 – sahibkarlıq fəaliyyəti və özüməşğulluqdan gəlirlər
3 – kənd təsərrüfatından gəlirlər 4 – alınmış cari transfertlər 5 – digər gəlirlər

Şəkil 1. Ev təsərrüfatı gəlirlərinin tərkib ünsürlərinin xüsusi çəkiləri, faizlə

Şəkil 1-dən göründüyü kimi, "sahibkarlıq fəaliyyəti və özünəməşğulluqdan gəlirlər" (2) maddəsi ifadə edilən hər beş zaman kəsiyində artımla yekunlaşmışdır. Belə ki, 2019-cu ilin sahibkarlıq fəaliyyətinin gəlirləri xüsusi kütlə etibarı ilə 2001-ci illə müqayisədə 17,4 dəfə, 2005-ci

illə müqayisədə - 55,7%, 2010-cu illə müqayisədə - 45,2%, 2015-ci illə müqayisədə isə 37,6% artmışdır. Blokların birinin digərini tamamlaması ardıcıl artıma şahidlik etməkdədir. Göründüyü kimi, sahibkarlıq – muxtar respublikda ev təsərrüfatlarının inkişafında mühüm zəminlərdən biri hesab oluna bilər. Bəhs olunan fikir ilk növbədə həmin kateqoriya üzrə 2001-2019-cu illərdə mümkün olmuş təkamüldən irəli gəlməkdədir. Belə ki, intervalın ilk və son hədləri (2001 və 2019-cu illər) arasındakı nisbi fərq (17,4 dəfə) bu sahədə görülmüş işlərin, qəbul olunmuş strateji kursun və icra edilmiş idarəetmə-tənzimləmə təyinatlı mexanizmlərin tətbiqinin məqsədyönlü, sistemli nəticəsidir. Müqayisə üçün qeyd olunmalıdır ki, 2001-ci illə müqayisədə istər cəmi gəlirlərin, istərsə də digər mühüm amillərin inkişaf mənzərəsi aşağıdakı kimi olmuşdur:

a) cəmi gəlirlərin səviyyəsi üzrə - 10,1 dəfə;

b) muzdlu işlə əlaqədar əldə edilən gəlirlər üzrə - 8,6 dəfə;

c) “kənd təsərrüfatından gəlirlər” maddəsi üzrə - 3,5 dəfə;

ç) alınmış cari transfertlər üzrə - 17,6 dəfə. Bu bənd üzrə artımın belə yüksək səviyyəsinin mövcudluğunun səbəbi - dövlətin pensiya təminatı fəaliyyətidir. Bu sahədə 2010-cu ildə aparılmış kompleks işlər təkcə pensiya və sosial müavinətlərin təminatındakı artımı 2,5-3 dəfə hesabı ilə yüksəltmiş olmuşdur;

d) digər gəlirlər üzrə - 24,6 dəfə. Bu bəndin səviyyəsinin yüksəkliyi ilk növbədə respublika xaricindən ölkəyə (regiona) köçürülən pul vəsaitlərinin 11,6 dəfəlik artımı hesabına mümkün olmuşdur.

Təsnifatdakı sonuncu iki maddə ümumilikdə ev təsərrüfatlarının, o cümlədən onların hər bir üzvünün maddi rifah halına müsbət təsir göstərsə də, heç də bütün hallarda aktiv, qənaətbəxş addımlardan hesab olunmur. Belə ki, ev təsərrüfatı üzvlərinin birbaşa fəaliyyətinə, onların yaradıcılığına əsaslanmır və ancaq kənar təsirlər nəticəsində yüksəlişlərə rəvac verir. Müşahidələr və əsas göstəricilərin kəmiyyət ifadələri göstərməkdədir ki, ölkədə aparılan məqsədyönlü iqtisadi siyasət, həmçinin “iştirakçı” amillərin əsaslandırılmış konfiqurasiyalarda və səviyyələrdə təsiri zərurət yarandıqda tənzimləyici aktların və mexanizmlərin problemin həllinə müdaxiləsinin təmin edilməsi sahibkarlıq elementlərinin geniş şəkildə iştirakına və təkamülünə şərait yaratmışdır. Lakin onu da nəzərdən qaçırmayaq ki, 2001-2019-cu illərdə sahibkarlıq maddəsi heç də bütün illər üzrə artımla yekunlaşmamışdır. Bunu cədvəl 1-in misalında da görmək mümkündür. Belə ki, statistik məlumatlara əsasən deyə bilərik ki, 2001-ci ildən artan templə gələn məlumatlar 2015-ci ildə sabit qalmış, 2016-2018-ci illərdə geriləmələrə məruz qalmışdır. Əyani təsvir vasitəsinin məlumatına əsasən 2019-cu ildə isə təkrarən artım müşahidə olunmuşdur (şəkil 2).




Şəkil 2. Sahibkarlıq fəaliyyətindən gəlirlərin artım dinamikası

Mənbə: Şəkil cədvəl 1-in məlumatları əsasında hazırlanmışdır.

Müşahidələrin müəyyən etdiyi ikinci məsələyə diqqət yetirmək məqsədəuyğun olardı. Yuxarıdakı təsnifatda əsas inkişaf istiqamətinin ilk üç maddənin (a, b, c) üzərində qurulması ilə bağlı fikir söyləmişdik. Belə ki, onlar faktiki olaraq aktiv təsərrüfat fəaliyyətinin təzahürü kimi çıxış etməkdədir. Amma deyilənlərlə yanaşı psixoloji faktorların da situasiyalara təsirinə diqqət yetirmək lazımdır.

Haqqında bəhs etmək istədiyimiz məsələ - hələ də insanların xeyli hissəsinin təsəvvüründə Sovet dövründə mövcud olmuş düşüncənin qalmasıdır: dövlət müəssisələri tərəfindən yaradılmış iş yerlərində təmsil olunmaq, istənilən dövlət müəssisəsində fəaliyyətin üstünlüyü istər ölkə, istərsə də region üzrə iqtisadi fəal əhalinin xeyli hissəsinin dövlət sektoruna keçidə təməlləri hazırlamışdır. Danılmaz faktlardan birini də "muzdlular" sferası və kənd təsərrüfatında çalışanlar" qrupunun da tərkibində qeyri-dövlət mülkiyyətinə aid subyektlərin mövcudluğu sahibkarlıq subyektlərinin "yolunda olan maneələrin" aradan qaldırılmasına xidmət etməlidir.

Situativ məsələlərdən birini də gəlirlərin 2015-2018-ci illərdəki arzuolunmaz vəziyyəti və bu zaman yaranan törəmə effektlər təşkil edir. Bəhs olunan zaman intervalı üzrə gəlirlərin ümumi səviyyəsində mütləq ifadədə 35,5 milyon manatlıq (276,0 – 240,5), sahibkarlıq fəaliyyəti və özünüməşğulluqdan gələn gəlirlərdə isə 6,3 milyon manatlıq (70,2 – 63,9) artım baş versə də, nisbi ifadədə xüsusi çəkilərin aldığı yeni "şəkillər" sahibkarlığın artım tempinə geriləmələr yol aldığından xəbər verir. Belə ki, məsələn, xüsusi çəki ifadəsində 2015-2018-ci illərdə "muzdlu işlə əlaqədar əldə edilən gəlirlər" kateqoriyasında mütləq ifadə ilə yanaşı nisbi ifadədə 1%-lik (33,5% - 32,5%), "kənd təsərrüfatından gəlirlər" kateqoriyası üzrə 0,3%-lik (13,4% - 13,1% ) irəliləmə baş versə də, "sahibkarlıq fəaliyyəti və özünümşğulluqdan gələn gəlirlər" kateqoriyasında nisbi ifadədə 1,2%-lik (25,4% - 26,6%) geriləmə yer almışdır. Buraya "alınmış cari transfertlər" maddəsində toplanmış vəsaitlər və illər üzrə mövcud vəsaitlərin vəziyyətindəki "ziqzaqvari" hərəkətlənmələr də əlavə edilməlidir. Sahibkarlıq fəaliyyətinin mühüm amillərdən biri hesab edilməsinin əsas şərti öncəki ilə nisbətən artım templərinin kompleks şəkildə öyrənilməsidir. Deyilən hesablama və müqayisə qaydası aşağıdakı kəmiyyət ifadələrini sərgiləmiş olur:

✓ gəlirlərin ümumi səviyyəsi 2018-ci ilə nisbətən 2019-cu ildə aylıq adambaşına 16,6 manat (292,6manat – 276,0 manat) və ya 6,0% (292,6manat **:** 276,0 manat) artmışdır;

✓ eyni zaman qarşılaşdırılmasında muzdlu işlə əlaqədar əldə edilən gəlirlərdə artım 6,9 manat (99,3manat -92,4manat) və ya 7,5% (99,3manat **:** 92,4manat) təşkil etmişdir;

✓ bu dövrdə ən yüksək müsbət kənarlaşma sahibkarlıq fəaliyyəti və özünüməşğulluqdan gəlirlər maddəsində müşahidə olunmuşdur: 36,9 manat (107,1 manat – 70,2 manat) və ya 52,6% (107,1 manat **:**70,2 manat);

✓ "Kənd təsərrüfatından gəlirlər" maddəsinin vəziyyətində eyni zaman qarşılaşdırılmasında artımın mütləq və nisbi kəmiyyəti müvafiq olaraq +0,4 manat (36,4manat – 36,0manat) və +1,1% (36,4manat : 36,0 manat) (baxmayaraq ki, illik xüsusi çəki paylaşımlarında müvafiq maddənin xüsusi çəkisi 13,0%-dən 12,4 %-ə enmişdir;

✓ "Alınmış cari transfertlər" maddəsi 2018-ci illə müqayisədə 2019-cu ildə aşağıdakı ölçülər üzrə qiymətləndirilmişdir:+4,9manat (49,3 manat -44,4 manat) və ya +11,0% (49,3manat : 44,4manat);

✓ "Digər gəlirlər" maddəsinin səviyyəsində artım tempi müsbət olmuş və müvafiq olaraq 3,8manata (34,4manat – 30,6manat) və ya 12,4%-ə (34,4manat : 30,6 manat) bərabərdir.

Aparılan sonuncu hesablama təsnifatında ən yüksək aylıq adambaşına səviyyə sahibkarlıq fəaliyyəti və özünüməşğulluqdan gəlirlərə aiddir – 36,9 manat (və ya 52,6%). Bu isə istər ölkədə, istərsə də regionda ev təsərrüfatı üzvlərinin maddi rifah halının yaxşılaşdırılmasında sahibkarlığın təsirinin nə qədər yüksək, əsaslı olduğunu göstərir. Bununla belə müvafiq yöndə zəruri, əsaslandırılmış iqtisadi siyasətin həyata keçirilməsi, əlavə alət və vasitələrin cəlbi "ev təsərrüfatları – sahibkarlıq" tandeminin təməllərində daha yüksək nəticələrin əldə olunmasına şərait yaradacaqdır. Məhz bu əsasda ev təsərrüfatları bazasında qısa dövrdə sahibkarlıq ənənələrinin yaradılması və inkişafı geniş vüsət alacaqdır.

Sahibkarlıq fəaliyyətinə təsir edən amillərdən biri də ev təsərrüfatı başçısının təhsilinin mövcudluğudur. Ev təsərrüfatlarının getdikcə böyüməsi idarəetmə funksiyalarını öz əlində cəmləyən

və təkbaşına qərar qəbul edən təsərrüfat sahibinin işini çətinləşdirir. Belə ki, başlıca məqsədi böyümək olan hər bir ev təsərrüfatı istehsal xərclərinin ən minimal həddini təmin edəcək istehsal həcmini müəyyənləşdirməlidir ki, bunun üçün ev təsərrüfatlarının sahibləri yetərli biliyə malik olmalı və öz fəaliyyətlərini düzgün planlaşdırmalıdırlar [1]. Məhz bu baxımdan yetərli biliyə malik olmayan ev təsərrüfatı sahiblərinin maarifləndirilməsi istiqamətində inkişaf etmiş ölkələrdəki atılmış addımların araşdırılması və bu təcrübədən yararlanaraq muxtar respublikamızda tətbiqi müasir dövrün başlıca tələblərindən biridir, eyni zamanda, beynəlxalq təcrübənin öyrənilməsini zəruri edir.

Bəhs olunan element uyğun gəlirlər ifadələrinə də təsir etməkdədir. Fərqli baxış bucağına görə isə, ev təsərrüfatının ali təhsilə malik başçısı ibtidai təhsilə malik olan başçıdan özünün əmək bilik və vərdişləri, həmçinin savadı və təşkilati bacarığı sayəsində 20% (326,4 manat : 272 manat), orta aylıq adambaşına gəlir göstəricisindən 4,9% (326,4 manat : 311 manat) daha çox gəlir əldə etmək iqtidarındadır. Problemə əhatəli baxışı təmin etmək məqsədilə cədvəl 2-yə nəzər salaq.

**Cədvəl 2**

**2019-cu ildə ev təsərrüfatı başçısının təhsil səviyyəsinə görə gəlirlər, ayda adambaşına, manatla və faizlə [2]**

| | **Ev təsərrüfatı başçısının təhsil səviyyəsi:** | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **ali** | | **orta ixti-sas, peşə** | | **ümumi orta** | | **natamam orta** | | **ibtidai** | |
| | Mütləq ifadə | Xüsusi çəki | Mütləq ifadə | Xüsusi çəki | Mütləq ifadə | Xüsusi çəki | Mütləq ifadə | Xüsusi çəki | Mütləq ifadə | Xüsusi çəki |
| **Gəlirlər – cəmi** | **326,4** | **100,0** | **298,2** | **100,0** | **276,3** | **100,0** | **265,7** | **100,0** | **272** | **100,0** |
| o cümlədən: | | | | | | | | | | |
| Muzdlu işlə əlaqədar əldə edilən gəlirlər | 171,2 | 52,5 | 98,9 | 33,2 | 68,2 | 24,7 | 67,1 | 25,2 | 50,2 | 18,5 |
| Özünüməşğulluqdan gəlirlər | 65,5 | 20,1 | 111,5 | 37,4 | 126,4 | 45,7 | 99,9 | 37,6 | 86,5 | 31,8 |
| o cümlədən kənd təsərrüfatı məhsullarının istehsalından alınan gəlirlər | 20,4 | 6,2 | 32,4 | 10,9 | 45,9 | 16,6 | 37,7 | 14,2 | 48,7 | 17,9 |
| Mülkiyyətdən gəlirlər – cəmi | 3,3 | 1,0 | 2,7 | 0,9 | 2,1 | 0,7 | 1,9 | 0,7 | 0,3 | 0,1 |
| o cümlədən əmlakın icarəyə verilməsindən gəlirlər | 2,5 | 0,8 | 1,7 | 0,6 | 1,8 | 0,6 | 1,7 | 0,6 | 0,3 | 0,1 |
| Alınmış cari transfertlər | 55,5 | 17,0 | 50 | 16,8 | 44,6 | 16,1 | 54 | 20,3 | 104,7 | 38,5 |
| pensiyalar | 48,4 | 14,8 | 41 | 13,7 | 36,7 | 13,3 | 47,2 | 17,8 | 88 | 32,3 |
| müavinət və sosial yardımlar | 6,7 | 2,0 | 8,5 | 2,8 | 7,4 | 2,7 | 6,6 | 2,5 | 16,7 | 6,1 |
| natura şəklində daxilolmaların pul ifadəsində dəyəri | 0,4 | 0,1 | 0,5 | 0,2 | 0,4 | 0,2 | 0,1 | 0,1 | 0,1 | 0,0 |
| Digər gəlirlər | 30,9 | 9,5 | 35,1 | 11,8 | 35,1 | 12,7 | 42,8 | 16,1 | 30,3 | 11,1 |
| ölkə daxilində digər ailələrdən alınan vəsaitlər | 25,4 | 7,8 | 27,9 | 9,3 | 26,7 | 9,7 | 35,5 | 13,4 | 23,4 | 8,6 |
| ölkə xaricindən alınan vəsaitlər | 5,5 | 1,7 | 7,2 | 2,4 | 8,3 | 3,0 | 7,3 | 2,8 | 6,9 | 2,5 |

Cədvəl 2-dən çıxan informasiyalara əsasən maraqlı məsələlərdən biri də ev təsərrüfatı rəhbərinin təhsil səviyyəsi və ayrı-ayrı gəlir maddələrinin qarşılaşdırılmasıdır ki, bu zaman illər üzrə fərqli, "ziqzaqlı" tərəddüdlər ortaya çıxmış olar. "Sahibkarlıq fəaliyyəti – təhsil səviyyəsi" tandemində kifayət qədər fərqlənən göstəricilər aylıq adambaşına ifadəsində 65,5 manat – 126,4 manat intervalını əhatə etməkdədir. Belə vəziyyət ilk növbədə "özünüməşğulluqdan gəlirlər" maddəsinin nəticələrinə aidiyyatı ilə seçilməkdədir. Bəhs olunan amil üzrə vəziyyəti daha aydın mənimsəmək üçün şəkil 3-ə diqqət yetirək.

Şəkil 3-ün təsviri məlumatlarına əsasən "orta ixtisas, peşə texniki" və "ümumi orta" kateqoriyaları üzrə göstəriciləri özünüməşğulluq göstəricisinin 2019-cu il üçün müəyyən edilmiş orta adambaşına göstəricisini (107,1manat) keçmiş dövrün səviyyələrinə nisbətən (müvafiq olaraq +4,4manat və +19,3manat) üstələmişdir. Deyilənlərlə yanaşı ev təsərrüfatı üzvlərinin təhsil səviyyəsi üzrə bölgüsündə gəlirlərin ümumi və digər səviyyələrinin fərqlənməsinə də diqqət yetirmək, onun səbəblərinə mümkün qədər aydınlıq gətirmək də zəruridir. İlk növbədə diqqət yetiriləcək məqam -

“ali təhsillilər” qrupu üzrə gəlirlərin formalaşmasında “muzdla işləyənlərin” payına düşməsidir (52,5%). Muzdla işləyənlər üzrə digər təhsil qruplarında toplanmış kontingentlər isə təhsil səviyyəsinin geriləməsinə uyğun olaraq ardıcıl azalmaqdadır: 33,2%-lik paydan – 18,5-lik xüsusi çəkiyədək. Digər tərəfdən, “ümumi orta” qrupu üzrə adambaşına gəlirlilik dərəcəsi cədvəl 1 üzrə ən yüksək (126,4 manat) hesab olunur, “orta ixtisas, peşə-texniki təhsili olanlar”, “natamam orta təhsili olanlar” və “ibtidai təhsili olanlar” qrupları isə özünüməşğulluqdan gəlirlər istiqamətində 30%-lik plankanı keçmişlər (müvafiq olaraq 37,4%, 37,6% və 31,8%). Real vəziyyətin araşdırılmasının əsasən tətbiqi məşğuliyyət istiqamətləri üzrə mümkün olmaqdadır ki, bu da əsasən fərdi qaydada sahibkarlıq təməllərinə yiyələnmə əsasında mümkün olur.




Şəkil 3. 2019-cu ildə “özünəməşğulluqdan gəlirlər” maddəsi üzrə təhsil səviyyəsi nəzərə alınmaqda ev təsərrüfatı üzvlərinin gəlirlərinin bölüşdürülməsi

Sahibkarlıq fəaliyyətinin inkişafında regional və cins amillərinin də təsiri böyükdür. Rəsmi statistik məlumatlara əsasən sahibkarlıq yönündəki müvafiq amillər əsasında dəqiq informasiyanı əldə etmək üçün cədvəl 3-ə müraciət edək.

**Cədvəl 3**

**2019-cu ildə iqtisadi rayonlar üzrə əhalinin əsas gəlir mənbələri, faizlə [2]**

| | Naxçıvan MR | Abşeron | Gəncə-Qazax | Şəki-Zaqatala | Lənkəran | Quba-Xaçmaz | Aran | Yuxarı Qarabağ | Dağlıq Şirvan | Kəlbəcər-Laçın | Bakı şəhəri |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **A** | **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** | **8** | **9** | **10** | **11** |
| **Kişilərin cəmdə xüsusi çəkisi** | **48,5** | **47,6** | **48,3** | **46,2** | **49,2** | **47,8** | **48,6** | **49,6** | **48,1** | **47,1** | **46,6** |
| dövlət sektorunda muzdlu iş | 13,9 | 11,4 | 9,4 | 7,8 | 8,7 | 6,9 | 8,2 | 12,0 | 9,9 | 14,1 | 9,3 |
| özəl sektorda muzdlu iş | 10,5 | 6,5 | 3,2 | 3,4 | 2,9 | 4,2 | 2,6 | 2,0 | 4,3 | 2,3 | 8,3 |
| özünüməşğulluq | 13,3 | 13,3 | 22,0 | 24,0 | 26,1 | 25,1 | 25,8 | 22,7 | 21,9 | 17,0 | 12,1 |
| işsizlik üzrə müavinət | - | - | 0,0 | - | - | - | 0,0 | - | - | - | 0,0 |
| pensiya | 4,8 | 5,9 | 6,6 | 5,4 | 6,1 | 5,5 | 6,2 | 6,5 | 5,5 | 5,9 | 6,6 |
| təqaüd | 1,2 | 0,5 | 0,2 | 0,2 | 0,0 | - | 0,2 | 0,0 | - | 0,1 | 0,4 |
| sosial müavinətlər | - | 0,1 | 0,4 | 0,4 | 0,1 | 0,5 | 0,2 | 0,9 | - | 2,2 | 0,1 |
| himayədə | 4,8 | 9,8 | 6,3 | 5,0 | 5,0 | 5,5 | 5,3 | 5,6 | 6,3 | 5,2 | 9,5 |
| ölkə xaricindən göndərilən pul | 0,0 | 0,2 | 0,1 | 0,0 | 0,2 | 0,1 | 0,1 | 0,0 | 0,1 | - | 0,2 |
| ünvanlı dövlət sosial yardımı | - | - | - | - | - | - | 0,0 | - | - | 0,3 | - |

| A | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| digər mənbələr | - | - | 0,0 | - | - | - | - | - | - | - | 0,1 |
| **Qadınların cəmdə xüsusi çəkisi** | **51,5** | **52,4** | **51,7** | **53,8** | **50,8** | **52,2** | **51,4** | **50,4** | **51,9** | **52,9** | **53,4** |
| dövlət sektorunda muzdlu iş | 14,3 | 11,0 | 9,3 | 10,1 | 4,7 | 5,8 | 6,3 | 10,5 | 10,5 | 10,8 | 10,8 |
| özəl sektorda muzdlu iş | 6,1 | 1,9 | 0,8 | 0,8 | 0,6 | 2,8 | 0,6 | 0,5 | 0,9 | 0,9 | 3,9 |
| özünüməşğulluq | 15,5 | 4,4 | 13,5 | 13,8 | 20,8 | 13,8 | 15,9 | 15,0 | 13,4 | 1,6 | 3,7 |
| işsizlik üzrə müavinət | 0,1 | - | - | - | 0,1 | - | 0,0 | - | - | - | 0,0 |
| pensiya | 8,6 | 11,0 | 10,2 | 10,4 | 12,1 | 11,5 | 10,2 | 9,5 | 10,4 | 10,0 | 10,6 |
| təqaüd | 1,5 | 0,3 | 0,1 | 0,1 | - | 0,2 | 0,1 | - | - | - | 0,4 |
| sosial müavinətlər | - | 0,1 | 0,6 | 0,4 | 0,1 | 0,5 | 0,3 | 2,5 | 0,2 | 4,8 | 0,2 |
| himayədə | 5,2 | 23,2 | 16,6 | 17,6 | 12,4 | 17,5 | 17,7 | 12,2 | 16,4 | 24,6 | 23,1 |
| ölkə xaricindən göndərilən pul | 0,2 | 0,4 | 0,5 | 0,4 | 0,1 | 0,1 | 0,3 | 0,1 | 0,0 | 0,1 | 0,6 |
| ünvanlı dövlət sosial yardımı | - | - | 0,0 | - | 0,0 | - | 0,0 | - | 0,1 | 0,2 | 0,0 |
| digər mənbələr | - | 0,1 | 0,1 | 0,2 | - | - | 0,0 | 0,0 | - | - | 0,1 |

Cədvəl 3-ün ardı

Cədvəl 3-dən də göründüyü kimi, cinslər və iqtisadi rayonlar üzrə əhalinin əsas gəlir mənbələrinə "üfüqi" və "şaquli" istiqamətdə ardıcıl yerləşdirilmiş komponentlər aiddir və onlar müəyyən qanunauyğunluqlar əsasında yerləşdirilmişdir. Belə vəziyyət eyni müstəvidə bizi maraqlandıran maddələr üzrə həm cinsi, həm də iqtisadi rayon miqyasında hərəkətlənməyə səbəb olmuşdur.

İlkin məlumatdan aydın olur ki, kişi cinsinə aid ölkə vətəndaşlarının 48,5%-i, qadın cinsinə aid olanların isə 51,5%-i bəlli gəlir mənbələrinə malikdirlər (cinslər üzrə kənarlaşma 3%). Hər iki göstərici üzrə ümumiləşdirici göstərici ilə yanaşı, hər bir bloka aid üç fərdi göstərici də sahibkarlıq mühiti, onun inkişafı baxımından da qiymətləndirilməlidir. Kişilər üzrə xüsusi çəki ifadəsi Yuxarı Qarabağ (49,6%), Lənkəran (49,2%) və Aran (48,6%) iqtisadi rayonlarından sonra dördüncü yerdədir (bu nominasiyada ən sonuncu yerdə 36,2%-lə Şəki-Zaqatala iqtisadi rayonudur). Fikrimizcə, sahibkarlığa mənfi və ya müsbət təsiri ilə seçilən 3 statistik göstəricinin araşdırma üçün nəzərdən keçirilməsi məqsədəuyğundur. Onlardan birincisi–"dövlət sektorunda muzdlu iş" göstəricisidir. O, sahibkarlıq fəaliyyətinin əks tarazlayıcısı sifətilə çıxış edir. Bununla belə, kişi cinsinin xarakterizə edilməsində bu göstəricinin Naxçıvan regionu üzrə xüsusi çəkisi (13,9%) ancaq Kəlbəcər-Laçın iqtisadi rayonundan geridə qalır (14,1%), özü isə Bakı şəhəri də daxil olmaqla 9 iqtisadi və inzibati vahidi geridə qoyur. Bu amil adətən ali təhsili olan ev təsərrüfatı üzvlərinin dövlət sektorunda muzdlu iş əsasında məşğuliyyətlərindən xəbər verir. Göstəricilər sırasında sahibkarlıq fəaliyyətinə müsbət təsiri ilə seçilənlər sırasında "özəl sektorda muzdlu iş" və "özünüməşğulluq" maddəsi xüsusi əhəmiyyət kəsb edir. "Özəl sektorda muzdlu iş" göstəricisi sahibkarlıq kateqoriyasına özünün spesifik təsiri ilə fərqlənməkdədir. 11 iqtisadi və inzibati vahid üzrə bu göstəricinin kişi cinsi üzrə səviyyəsi Naxçıvan Muxtar Respublikasına aiddir. Göstəricinin məzmunu fikrimizcə, aşağıdakı təsirlərlə fərqlənməkdədir:

- ✓ sahibkarlıq mühitinin ləğvi üçün muzdla işləyənlərin psixoloji qorxusunun olmaması;
- ✓ özəl sektorda fəaliyyət göstərmə əsasında mənimsənilmiş iş vərdişlərinin müstəqil fəaliyyət üçün yol açması və bu əsasda rəqabət mühitinin zənginləşməsi;
- ✓ özəl sferada muzdlu işin özünün mövcudluğu bu mühitə tərəddüdsüz, amma dəqiq hesablamalara əsaslanmaqla keçidə şərait yaratmaqdadır. Heç də təsadüfi deyil ki, kişilərin bu maddə üzrə çalışanlarının xüsusi çəkisi ümumi payda 21,7% təşkil etməkdədir. Bu nəticəni ən yaxın izləyən vahid isə Abşerondur (6,5%-lə) və s.

"Özünüməşğulluq" göstəricisində 2019-cu ilin nəticələrinə görə kişilərin ümumi payda xüsusi çəkisi 27,4% təşkil etməkdədir (13,3% : 48,5%). Bununla belə bu göstərici üzrə ən yüksək nəticə Lənkəran iqtisadi rayonu üzrə müəyyən edilmişdir ki (26,1%), bu da bir tərəfdən artıq ölkə üzrə sahibkarlığın əsas təmsilçisi olan müvafiq nominasiyada az qala iki dəfəlik fərqdən (26,2%-13,3%) xəbər verir, digər tərəfdən isə zəruri mühitin formalaşdırılması halında ehtiyat mənbəyi kimi qiymətləndirilə bilər. Məsələnin ikinci halının qiymətləndirilməsi üçün əsaslardan birini də o fakt

təşkil edir ki, Naxçıvan regionu bəhs olunan yöndə Bakı şəhəri ilə yanaşı xüsusi çəkilərdə ən aşağı səviyyələri bölüşdürməkdədir (Bakı şəhərinin nisbi kəmiyyəti 12,1%-ə bərabərdir).

Oxşar müşahidələr qadın cinsi üzrə gəlir mənbələri üçün də keçərlidir. Belə ki, onların ümumi göstəricidə xüsusi çəkisi (51,5%) hər nə qədər yüksək olsa da, yeddi vahiddən daha aşağıdır (Şəki-Zaqatala 53,8%; Bakı şəhəri 53,4%; Kəlbəcər-Laçın 52,9%; Abşeron 52,4%; Quba-Xaçmaz 52,2%; Dağlıq Şirvan 51,9% və Gəncə-Qazax 51,7%).

Muxtar respublikanın qadın cinsi üzrə uyğun göstəricilərinin müqayisəsi göstərir ki, 2019-cu ildə kişilərlə müqayisədə qadınların payı:

- ✓ "dövlət sektorunda muzdlu iş" göstəricisində - 0,4% çoxdur;
- ✓ "özəl sektorda muzdlu iş" göstəricisində – 4,4% azdır;
- ✓ "özünüməşğulluq" göstəricisində - 2,2% çoxdur.

Yaranmış vəziyyət qadınların özünüməşğulluğa (və deməli, dolayısı ilə fərdi sahibkarlığa) etibarının daha yüksək olduğunu ifadə etməkdədir. Sonuncu göstərici üzrə iqtisadi və inzibati vahidlər üzrə ehtiyat mənbələr də mövcuddur ki, bu da digər iki rayonun timsalında əyani surətdə görünməkdədir: Lənkəran (20,8%) və Aran (15,9%).

Fikirləri ümumiləşdirərək belə bir nəticəyə gəlirik ki, ev təsərrüfatlarının yaşam tərzini nizamlamaq, həyat şəraitini yaxşılaşdırmaq məqsədilə onun daim mütərəqqi təməllərə keçidinin təmin edilməsi zərurəti ortaya çıxır. Bu istiqamətdə aparılan işlər istehsal, kommersiya, maliyyə və ya konsultativ yönlərə üstünlük verməklə özünün spesifik quruluşuna aydınlıq gətirməlidir. Bəhs olunan tərkib elementlər kifayət qədər geniş strukturu təmsil etdiyi üçün onun tərkib elementlərində daha dar çərçivəli seçim aparılmalı, məzmununa sadə şəkilli aydınlaşdırma verilməlidir. Zəruri quruluşların istifadəsi sahibkarlıq fəaliyyətində istehsal (xidmət) parametrləri ilə yanaşı sosial elementlərin nəzərə alınması, ev təsərrüfatı üzvlərinin görəcəyi işə "pul qazanma yarışı" yanaşması ilə bərabər "humanizm" prinsipini də əldə rəhbər tutmağa imkan verir.

Araşdırmamızın nəticəsi kimi son olaraq qeyd edək ki, sahibkarlıq fəaliyyəti ev təsərrüfatı üzvlərinə "mono" şəkildə iş qurmaq, bu qəbildən olan fəaliyyətlərin fərdlər tərəfindən sistemləşdirmək və qarşılaşdırmaq, alternativ variantları hazırlamaq və müqayisə etmək, virtual iş və xidmətlər sırasında mümkün ixtisaslaşma ehtimallarını müəyyənləşdirmək və onları daha optimal şəkildə işə salmaq kimi məsələlərə aydınlıq gətirmək və s. bu kimi işləri formalaşdırmaq imkanı yaratmaqdadır.

## Nəticə

Nəticə etibarı ilə deyə bilərik ki, real iqtisadi vəziyyətə, sahibkarlıq mühitinə də bir çox amilin təsiri düzgün qiymətləndirilməlidir. Bir sıra mühüm elementlərin roluna xüsusi diqqət yetirilməlidir. Buradan ev təsərrüfatlarının yaşam tərzini nizamlamaq, həyat şəraitini yaxşılaşdırmaq məqsədilə onun daim mütərəqqi təməllərə keçidinin təmin edilməsi zərurəti ortaya çıxır. Bu istiqamətdə aparılan işlər istehsal, kommersiya, maliyyə və ya konsultativ yönlərə üstünlük verməklə özünün spesifik quruluşuna aydınlıq gətirməlidir. Bəhs olunan tərkib elementlər kifayət qədər geniş strukturu təmsil etdiyi üçün onun tərkib elementlərində daha dar çərçivəli seçim aparılmalı, məzmununa sadə şəkilli aydınlaşdırma verilməlidir. Zəruri quruluşların istifadəsi sahibkarlıq fəaliyyətində istehsal (xidmət) parametrləri ilə yanaşı sosial elementlərin nəzərə alınması, ev təsərrüfatı üzvlərinin görəcəyi işə "pul qazanma yarışı" yanaşması ilə bərabər "humanizm" prinsipini də əldə rəhbər tutmağa imkan verir.

Belə ki, başlıca məqsədi böyümək olan hər bir ev təsərrüfatı istehsal xərclərinin ən minimal həddini təmin edəcək istehsal həcmini müəyyənləşdirməlidir ki, bunun üçün ev təsərrüfatlarının sahibləri yetərli biliyə malik olmalı və öz fəaliyyətlərini düzgün planlaşdırmalıdırlar. Məhz bu baxımdan yetərli biliyə malik olmayan ev təsərrüfatı sahiblərinin və sahibkarların maarifləndirilməsi istiqamətində inkişaf etmiş ölkələrdəki atılmış addımların araşdırılması və bu sahədə beynəlxalq təcrübədən yararlanaraq muxtar respublikamızda tətbiq edilməsi zəruri hesab edilməlidir.

Mövzunun nəticəsi kimi qeyd etmək olar ki, sahibkarlıq fəaliyyəti ev təsərrüfatı üzvlərinə "mono" şəkildə iş qurmaq, bu qəbildən olan fəaliyyətlərin fərdlər tərəfindən sistemləşdirmək və qarşılaşdırmaq, alternativ variantları hazırlamaq və müqayisə etmək, virtual iş və xidmətlər sırasında

mümkün ixtisaslaşma ehtimallarını müəyyənləşdirmək və onları daha optimal şəkildə işə salmaq kimi məsələlərə aydınlıq gətirmək və s. bu kimi işləri formalaşdırmaq imkanı yaratmaqdadır.

**Samiddin Qasımov**

## Naxçıvan Muxtar Respublikasında ev təsərrüfatlarının inkişafının əsas zəmini kimi sahibkarlıq fəaliyyəti

**Xülasə**

Məqalədə mikro təsərrüfat formaları şəklində fəaliyyətə başlayan ev təsərrüfatlarının zamanla müxtəlif mərhələlərdən keçərək sahibkarlıq fəaliyyətinə çevrilməsi prosesi araşdırılmış, bu prosesdə müəyyənedici xüsusiyyətə malik amillər nəzərdən keçirilmiş və bu (mikro) təsərrüfat formasının inkişafı istiqamətində müvafiq təkliflər verilmişdir.

Sahibkarlıq fəaliyyətinin mövcud imkanlarından istifadə etməklə ev təsərrüfatı üzvlərinə “mono” şəkildə iş qurmaq, bu qəbildən olan fəaliyyətlərin fərdlər tərəfindən sistemləşdirilməsi və qarşılaşdırılması ilə müqayisə etmək, statistik təhlil aparmaq kimi məsələlər araşdırılmışdır və tədqiqatın əhəmiyyəti göstərilmişdir.

Toplanmış və mühüm əlaqəli amillər əsasında ev təsərrüfatları üzrə sistemləşdirilmiş məlumatlar əsasında, xüsusən insanların fərdi gəlirləri və istehlak xərcləri, ailələrin iqtisadi baxımdan məşğulluğunun təmin edilməsi, müxtəlif alternativ mütərəqqi təşkilati, tənzimləmə, maliyyələşdirmə və digər yollardan istifadə olunması, tələbatın ödənilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi nöqteyi nəzərdən bu təsərrüfat formasının mütərəqqiliyi göstərilmişdir.

Regiondakı ev təsərrüfatlarının fəaliyyətinin fərqli istiqamətləri əsasında gəlir və ehtiyacların həqiqi səviyyələrinin dəqiqləşdirilməsi, alınan nəticələr əsasında səmərəlilik parametrlərinə uyğun müvafiq optimallaşdırma hesablamaları və əlverişli kəmiyyət-keyfiyyət göstəricilərinin müəyyən edilməsi tədqiq edilmişdir.

**Самиддин Гасымов**

## Развитие домохозяйств в Нахчыванской Автономной Республике как основа предпринимательской деятельности

**Резюме**

В статье исследуются вопросы трансформации домашных хозяйств, начавших свою деятельность в форме микро хозяйствования, поэтапно, с течением времени, в предпринимательскую деятельность, рассматриваются факторы, определяющие этот процесс и вносятся соответствующие предложения по развитию данной (микро) формы фермерства.

Были изучены такие вопросы, как создание «монобизнеса» для членов домохозяйств, используя существующие возможности для бизнеса, сравнение и систематизация такой деятельности отдельных лиц, проведение статистического анализа, а также подчеркнута важность исследования.

На основе собранных и систематизированных данных о домохозяйствах, основанных на важных факторах, в частности, личных доходах и потребительских расходах людей, обеспечении экономической занятости семей, использовании различных альтернативных прогрессивных организационных, регулирующих, финансовых путей, была показана прогрессивность этой формы хозяйствования с точки зрения удовлетворения спроса и обеспечения продовольственной безопасности.

На основе различных направлений деятельности домохозяйств в регионе были исследованы вопросы определения уровней их доходов и потребностей, на основе полученных результатов, соответственно параметрам эффективности, изучены соответствующие оптимизационные расчеты и благоприятные количественные и качественные показатели.

**Samiddin Gasimov**
**Development of households in the Nakhchivan Autonomous Republic as a basis for entrepreneurial activity**


**Resume**

The article examines the process of transformation of micro households into the entrepreneurial activity with the passage of time, reviews the factors that determine this process, and offers relevant proposals for the development of this form (micro) of economy.

The issues as how to create a "monobusiness" for members of the household, using existing opportunities of entrepreneurial activity , how to compare and systematize these types of activities by individuals and how to conduct statistical analysis were studied and the importance of study was demonstrated.

The progress of this form of economy was demonstrated from the point of view of ensuring the economic employment of the families, in particular, personal income and consumer expenditures on the basis of collected and systematized data on households, based on important related factors, using various alternative progressive organizational, regulatory, financing and other means, meeting demand, providing food security.

Clarification of the actual levels of income and needs based on different areas of household activities in the region and determination of appropriate optimization calculations and effective quantitative and qualitative indicators relevant to the efficiency parametrs based on the obtained results were studied.


**Ədəbiyyat**


1. Akın H.B. Küçük ve orta ölçekli işletmelerde yönetim ve organizasyon. Yüksek lisans tezi, Selcuk Universiteti, Sosyal Bilimler Enstitüsü, 1995, 123 səh.
2. Ev təsərrüfatlarının büdcələri - www: stat.göv.az/home farms budjet
3. İqtisadi nəzəriyyə. Dərslik, Bakı, Çaşıoğlu, 1999, 684 səh.
4. Koçel T. İşletme yöneticiligi. İstanbul, Beta yayınları, Baskı 9, 2003.
5. Mahmudov C.İ. Biznes: əsasları, təşkili və idarə edilməsi. Dərs vəsaiti. Naxçıvan, İdeya, 2011, 272 səh.
6. Глухов В.В. Формы и модели управления финансами в домашнем хозяйстве. Проблемы учета и финансов, 2011, №1, стр. 3-10.
7. http://www.in.nakhchivan.az/xeberler



Məqalə redaksiyaya daxil olmuşdur: 21.06.2021
Təkrar işlənməyə göndərilmişdir: 23.06.2021
Çap üçün qəbul olunmuşdur: 19.11.2021

UOT: 331.5
DOI: 10.338.70/2413-6557-2021-7-4-32-37

# AZƏRBAYCANIN REGİONLARININ TARAZLI SOSİAL-İQTİSADİ İNKİŞAFINDA ƏMƏK BAZARININ ROLU

***Elnur Rüstəmov***
*İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun doktorantı*
*AZ 1011, Bakı şəhəri, Həsən bəy Zərdabi küçəsi 88a*
*e-poçt: elnur706@gmail.com*

**Açar sözlər:** əmək bazarı, iqtisadi regionlar, iqtisadi siyasət, məhsul buraxılışı, məşğul əhali.
**Ключевые слова:** рынок труда, экономические регионы, экономическая политика, выпуск продукции, занятое население.
**Keywords:** labuor market, economic regions, economic policy, product output, employed population.

Ölkədə regionların tarazlı sosial-iqtisadi inkişafı bir neçə iqtisadi sistemin bir-biri ilə balanslı inkişafının təzahüründən meydana çıxır. Bunun üçün ilkin mərhələdə inkişafa stimul verən sahələrin təyin edilməsi ən önəmli amildir. Belə ki, bütün iqtisadi sahələrin eyni gücdə artması ümumi tarazlı inkişafın formalaşması demək deyildir. Bu səbəbdən də iqtisadi prosesin tərkibi və təkan verən amillərdə əmək bazarının rolu daima ölçülməlidir. Ümumilikdə əmək bazarı göstəriciləri təhlil edilməklə yanaşı, bütün iqtisadi fəaliyyət növləri üzrə bu təhlil həyata keçirilməlidir. Buradan bir sual meydana çıxır ki, bu sahələrdə əmək bazarının rolunun bölgüsü nə əhəmiyyət kəsb edir? Bu əhəmiyyətin izahı üçün bir neçə amil əsas rol oynayır. Burada ilkin olaraq iqtisadi inkişafa, rifaha nail olmaq əsas hədəf olmalıdır. Bunun üçün də ilkin mərhələdə iqtisadi inkişaf prosesində bizə vacib olacaq iqtisadi fəaliyyət sahələrinin tərkib hissələrinin öyrənilməsi məqsədəmüvafiqdir. İqtisadi inkişafın özü isə müntəzəm olaraq sosial sahənin inkişafında bir təkan rolunu oynayacaqdır. Ümumilikdə baxdıqda isə bütün iqtisadi proseslərin son nəticəsi əhalinin sosial rifah şəraitinin daha da yaxşılaşdırılmasına istiqamətlənməkdir.

**Cədvəl 1**

**Ölkənin regionlarında ümumi məhsul buraxılışı, cəmə nisbətən faizlə [1]**

| | **2010** | **2015** | **2016** | **2017** | **2018** | **2019** |
|---|---|---|---|---|---|---|
| Ölkə üzrə | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| Bakı şəhəri | 77.2 | 70.2 | 71.7 | 71.4 | 72.3 | 68.4 |
| Naxçıvan Muxtar Respublikası | 3.2 | 5.3 | 5.0 | 4.4 | 4.1 | 4.1 |
| Abşeron-Xızı iqtisadi rayonu | 1.5 | 2.7 | 2.9 | 2.9 | 3.5 | 6.0 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 0.9 | 1.0 | 1.0 | 1.0 | 1.0 | 1.2 |
| Gəncə-Daşkəsən iqtisadi rayonu | 1.7 | 2.5 | 2.4 | 2.4 | 2.1 | 2.1 |
| Qarabağ iqtisadi rayonu | 1.3 | 1.6 | 1.6 | 1.9 | 1.8 | 1.8 |
| Qazax-Tovuz iqtisadi rayonu | 2.3 | 2.3 | 2.2 | 2.3 | 2.2 | 2.6 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 2.4 | 2.1 | 2.0 | 2.1 | 2.0 | 2.4 |
| Lənkəran-Astara iqtisadi rayonu | 1.8 | 2.5 | 2.5 | 2.4 | 2.2 | 2.0 |
| Mərkəzi Aran iqtisadi rayonu | 2.5 | 3.3 | 2.6 | 2.8 | 2.5 | 2.8 |
| Mil-Muğan iqtisadi rayonu | 1.6 | 2.0 | 2.1 | 1.9 | 1.8 | 2.0 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 1.7 | 2.0 | 1.9 | 2.0 | 1.9 | 2.1 |
| Şərqi Zəngəzur iqtisadi rayonu | 0.1 | 0.2 | 0.1 | 0.1 | 0.1 | 0.1 |
| Şirvan-Salyan iqtisadi rayonu | 1.8 | 2.2 | 2.1 | 2.4 | 2.5 | 2.6 |

Cədvəl 1-də ölkə regionlarında ümumi məhsul buraxılışının bölgüsü verilmişdir. Bu bölgüyə əsasən demək olar ki, əsas məhsul buraxılışının Bakı şəhərinə düşməsi onun nəticəsidir ki, regionlararası məhsul bölgüsündə uyğunsuzluq mövcuddur. Bölgüyə uyğun olaraq sonrakı yerləri Naxçıvan, Mərkəzi Aran, Quba-Xaçmaz iqtisadi rayonları tutur. Digər iqtisadi rayonların isə pay bölgüsündə yeri çox cüzidir.

**Cədvəl 2**

**İqtisadi rayonlar üzrə məşğul əhalinin sayı, cəmə nisbətən faizlə [2]**

| | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|
| Ölkə üzrə | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| Bakı şəhəri | 24.4 | 23.9 | 23.9 | 24.0 | 24.1 | 24.1 |
| Naxçıvan Muxtar Respublikası | 4.9 | 4.9 | 4.9 | 4.9 | 5.0 | 5.2 |
| Abşeron-Xızı iqtisadi rayonu | 5.9 | 5.8 | 5.8 | 5.8 | 5.7 | 5.7 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 3.0 | 3.1 | 3.1 | 3.1 | 3.1 | 3.1 |
| Gəncə-Daşkəsən iqtisadi rayonu | 6.5 | 6.4 | 6.5 | 6.4 | 6.4 | 6.3 |
| Qarabağ iqtisadi rayonu | 8.1 | 8.1 | 8.1 | 8.1 | 8.1 | 8.0 |
| Qazax-Tovuz iqtisadi rayonu | 6.9 | 6.8 | 6.9 | 6.9 | 6.9 | 6.9 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 5.3 | 5.3 | 5.3 | 5.3 | 5.3 | 5.3 |
| Lənkəran-Astara iqtisadi rayonu | 8.8 | 8.9 | 8.9 | 8.9 | 8.9 | 8.9 |
| Mərkəzi Aran iqtisadi rayonu | 7.1 | 7.2 | 7.2 | 7.1 | 7.1 | 7.1 |
| Mil-Muğan iqtisadi rayonu | 4.8 | 4.9 | 4.9 | 4.9 | 4.9 | 4.9 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 6.4 | 6.4 | 6.4 | 6.4 | 6.4 | 6.4 |
| Şərqi Zəngəzur iqtisadi rayonu | 3.2 | 3.3 | 3.3 | 3.3 | 3.3 | 3.2 |
| Şirvan-Salyan iqtisadi rayonu | 4.8 | 4.8 | 4.8 | 4.8 | 4.8 | 4.8 |

Məşğul əhalinin illər ərzində iqtisadi rayonlar üzrə bölgüsünə yenidən nəzər yetirsək, aydın görmək olar ki, iqtisadi rayonlar üzrə bölgü zamanı Bakı şəhəri, Lənkəran-Astara, Qarabağ iqtisadi rayonları əsas pay hissəsinə malikdirlər. Lakin burada çatışmayan cəhət ondan ibarətdir ki, əsas məşğul əhalinin müəyyən hissəsi bu iqtisadi rayonlarda cəmlənmişdir. Bu, özlüyündə, əsasən, demoqrafik sıxlıq problemi ilə yanaşı, şəhər mərkəzlərində cəmlənməyə səbəb olmuşdur. Bu problemin aradan qaldırılması özlüyündə mərkəzi şəhərlərə insan axınının qarşısını almış olacaqdır. Əhalinin iş yerləri ilə təminatında problemlərin mövcud olması, əsasən, onların iri şəhərlərə daha çox əməkhaqqının əldə edilməsi üçün gəlməsinə zəmin yaradır. Burada digər bir amil isə iri məhsul istehsalçıları və xidmət sferasında fəaliyyət göstərən sahibkarlıq subyektlərinin yuxarıda qeyd etdiyimiz paytaxt və onun ətrafında yerləşən iqtisadi rayonlarda cəmləşməsidir. Burada bir neçə amil əsas rol oynamaqdadır. Birincisi, ixtisaslı işçi qüvvəsinin yerləşmə ərazisi yeni yaradılan müəssisənin qurulmasında əsas rol oynadığından işçi bazasının rahatlıqla yığılması prosesidir. Digər bir təsir edəcək amil isə müəssisənin xammalla təchizatının və hazır məhsulun istehlakçılara çatdırılmasının asan olmasıdır. Burada əsas amillərdən biri də müəssisənin nəqliyyat qovşağına nə dərəcədə yaxın olmasıdır.

**Azərbaycanda regional iqtisadi inkişafın təmin olunması istiqamətində həyata keçirilən tədbirlər**

Azərbaycan regionlarının son 10 ildə keçdiyi inkişaf yoluna nəzər saldıqda, onların inkişafı üçün dövlət tərəfindən həyata keçirilmiş tədbirlər əsas götürülməlidir. İlk əvvəl regionların coğrafiyasına baxsaq, ölkəmizin regionlarının, əsasən, kənd təsərrüfatı sahəsi üzrə ixtisaslaşmasını və bu sahənin region əhalisi üçün nə qədər əhəmiyyətli olduğunu görürük. Bununla yanaşı, qeyd etmək lazımdır ki, kənd təsərrüfatı sahəsi ölkə iqtisadiyyatının həyatında mühüm rol oynayır. Qeyd olunanları əsas götürərək ölkə ərazisində kənd təsərrüfatı sahəsi ilə məşğul olan hüquqi və fiziki şəxslərin gəlir vergisindən azad edilməsi əhalinin bu sahəyə marağını artırmaqla yanaşı, onların bu sahə ilə məşğul olmasına bir stimul yaratmış oldu [3]. Azərbaycan Respublikası öz müstəqilliyini qazandıqdan sonra kəndlilərə paylanılmış pay torpaqlarında artıq hər bir kəndli özünün fermer

təsərrüfatını yaratmaqla sahibkarlıq subyekti ilə məşğul ola bilər və tam rahatlıqla bu fəaliyyətdən gələn gəlirdən heç bir ödəmə etmədən öz sahibkarlıq subyektini böyüdə və yaxud yeni sahə üzrə öz fəaliyyətini davam etdirə bilər. Kənd təsərrüfatı sahəsi ilə məşğul olan sahibkarlıq subyektlərinin gəlir vergisindən azad edilməsi, bu qanunun uzadılması 2024-cü il tarixinə qədər şamil edilmişdir ki, burada da əsas məqsəd həmin dövr ərzində kənd təsərrüfatı sahəsi üzrə inkişaf tempinə nəzər salınmaqla növbəti dövr üçün daha səmərəli qanun layihələrinin qəbuluna bir istiqamət verməkdir. Bundan başqa, qəbul olunmuş 4 illik regionların sosial-iqtisadi inkişafı üçün dövlət proqramlarının əsas hədəfi ölkədə sahibkarlıq subyektlərinə maksimum eyni şəraiti yaratmaq və ölkə ərazisində inkişaf etməmiş qeyri-neft sahələrinin inkişafına stimul verilməsidir. Həmin regional inkişaf proqramları ilə yanaşı, infrastrukturların yenidən qurulması məqsədi ilə də müxtəlif qanun layihələri qəbul olunmuş, fərmanlar imzalanmışdır.

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının (2004-2008-ci illər), (2009-2013-cü illər), (2014-2018-ci illər), (2019-2024-cü illər) uğurlu icrası sayəsində artıq ölkədə qeyri-neft sektorunun davamlı inkişafı, yeni müəssisələrin və iş yerlərinin yaradılması, regionlarda, eləcə də ölkə paytaxtında kommunal xidmət və sosial infrastruktur təminatının həcminin, keyfiyyətinin yüksəldilməsi, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması, əhalinin məşğulluq səviyyəsinin artırılması, yoxsulluğun azaldılması sahəsində əhəmiyyətli nailiyyətlər əldə olunmuşdur. Əvvəlki iki proqram çərçivəsində başlanmış işlərin "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2014-2018-ci illər)" davam etdirilməsini özündə ehtiva etmişdir. Dövlət proqramlarının icra olunduğu 2004-2014-cü illər ərzində Ümumi Daxili Məhsul 3,2 dəfə, o cümlədən qeyri-neft sektoru 2,6 dəfə, sənaye 2,7 dəfə, kənd təsərrüfatı 1,5 dəfə, investisiyalar 6,5 dəfə, əhalinin gəlirləri 6,5 dəfə, orta aylıq əməkhaqqı 5,5 dəfə artmışdır [9]. Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 900 mini daimi olmaqla 1,2 milyondan çox yeni iş yeri, 55,6 min müəssisə yaradılmış, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,3 faizə enmişdir [9]. Dövlət proqramları çərçivəsində görülmüş genişmiqyaslı işlər regionların qarşıdakı illərdə də inkişafı üçün möhkəm zəmin yaratmışdır. Bu proqram əsas hədəf kimi ölkənin qeyri-neft sahələrinin, mədənçıxarma sahəsi ilə yanaşı, sənaye sahələrinin, həmçinin digər istehsal sahələrinin inkişaf etdirilməsi, gələcək dövrdə dünya bazarına əsasən ixracyönümlü daxili potensial hesabına yüksək keyfiyyətli məhsul çıxarılmasıdır ki, bu da gələcək dövr ərzində idxaldan asılılığın azaldılması, daha çox ixracyönümlü iqtisadiyyatın inkişafına zəmin yaradacaqdır. Nəticədə, ölkəyə xarici investisiyaların cəlb olunmasına zəmin yaranacaq, ölkə valyutasının daha da güclənməsinə gətirib çıxartmış olacaqdır. Bunları nəzərə alaraq gələcək dövr üçün artıq regional inkişafın nə dərəcədə iqtisadi inkişafa təsiri olduğu ortaya çıxmış olur.

Sayca dördüncü olan Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2019-2024-cü illər) əsas hədəfi regionların daima inkişafına bir təkan verməkdir. Azərbaycan Respublikası regionlarının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Regionların inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilmiş dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına və nəticədə, əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan vermişdir. Dövlət proqramlarının icra olunduğu 2004-2018-ci illər ərzində Ümumi Daxili Məhsul 3,3 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə artmışdır. Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə yaradılmış, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə enmişdir [10]. Dövlət proqramları çərçivəsində görülmüş genişmiqyaslı işlər regionların qarşıdakı illərdə də inkişafı üçün möhkəm zəmin yaratmışdır. Bu proqramlarla yanaşı, regionların daima inkişafı üçün digər maliyyə mənbələrindən iri sahibkarlıq subyektləri ilə yanaşı, kiçik və orta sahibkarlıq subyektlərinin inkişafı da daima diqqət mərkəzində olmuşdur. Bunun üçün də Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu daima özəl

sahibkarlıq sahəsinin inkişafına stimul olaraq hər il dövlət büdcəsindən bu istiqamət üzrə vəsaitləri artıraraq bu sahəni təkmilləşdirməkdədir. Bu fondun fəaliyyəti daima öz hesabatlarında da öz əksini tapmışdır [4]. Fond tərəfindən aktiv fəaliyyəti dövründə (2002-2020-ci illər ərzində) MKT-lər vasitəsilə investisiya layihələrinin ümumi dəyəri 5.9 milyard manatdan çox olan 38 mindən artıq sahibkara 2.6 milyard manatadək güzəştli kredit verilmişdir. Bu kreditlər hesabına 173 mindən çox yeni iş yerinin açılması imkanı yaradılmışdır. 2020-ci il üzrə isə Fond tərəfindən layihələrin ümumi dəyəri 397 milyon manat olan 908 investisiya layihəsinin maliyyələşdirilməsinə 126.9 milyon manat güzəştli kredit verilmişdir. Verilmiş kreditlər hesabına 2725 yeni iş yerinin açılması imkanı yaranmışdır. Eyni zamanda 64.5 milyon manat güzəştli kredit ayrılmış, yeni texnologiyalara əsaslanan 25 müəssisə istifadəyə verilmişdir. Bu müəssisələrin fəaliyyətə başlaması hesabına 1124 yeni iş yerinin açılması imkanı yaranmışdır. Hesabat dövrü ərzində yeni texnologiyalara əsaslanan ümumi dəyəri 323.3 milyon manat olan 46 müəssisəyə, o cümlədən 1 aqropark, 1 iri fermer təsərrüfatı, 2 logistik mərkəz, 7 bağçılıq, 2 quşçuluq, 1 cins heyvandarlıq təsərrüfatı, 8 istixana kompleksi, 3 meyvə-tərəvəz və 2 süd emalı, 2 un və un məmulatları, 1 spirtli içki, 2 gübrə və pestisid, 3 tikinti materialları, 2 kağız və karton məmulatları, 1 plastik və kağızdan mətbəx qabları, 1 müxtəlif ölçülü metal qutu, 1 polietilen paket, 1 şüşə, şüşə paketləri və güzgü, 1 etiket və ilkin qida qablaşdırma materialları, 1 avtomobil (ehtiyat hissələrinin gətirilərək yığılması), 1 tibbi maska, 1 nəm salfet istehsalı və 1 tibbi xidmət olan müəssisəyə 89.3 milyon manat güzəştli kredit verilmişdir. Hesabat dövründə 74 qadın sahibkarlıq subyektinə 5.2 milyon manat məbləğində güzəştli kredit vəsaiti ayrılmışdır. Maliyyələşdirilmiş layihələr hesabına 297 yeni iş yerinin yaradılması nəzərdə tutulmuşdur. Bundan əlavə 47 məcburi köçkün sahibkarlıq subyektinə 6.5 milyon manat məbləğində güzəştli kredit vəsaiti ayrılmışdır [11]. Maliyyələşdirilmiş layihələr hesabına 134 yeni iş yerinin yaradılması nəzərdə tutulmuşdur. Eyni zamanda 46 gənc sahibkarlıq subyektinə 17 milyon manat məbləğində güzəştli kredit vəsaiti ayrılmışdır. Yuxarıda qeyd etdiyimiz Fondun hesabatından da aydın şəkildə görünür ki, istər maliyyə, istərsə də digər dəstək formaları ildən ilə artmaqdadır.

**Cədvəl 3**

**2020-ci ildə verilmiş güzəştli kreditlərin sahibkarlıq subyektlərinin təsnifatı üzrə bölgüsü [11]**

| Sahibkarlıq subyektinin təsnifatı | Say | Məbləğ (milyon manatla) |
|---|---|---|
| Cəmi | 908 | 126.9 |
| Mikro | 818 | 15.4 |
| Kiçik | 57 | 19.7 |
| Orta | 28 | 71.7 |
| Böyük | 5 | 20.1 |

Qeyd etdiyimiz kimi, həmin fonddan ayrılan vəsaitlərin əsas hissəsi mikro sahibkarlıq subyektlərini əhatə etmişdir ki, burada da əsas məqsəd ölkə regionları səviyyəsində sahibkarlıq subyektlərinin balanslı bölgüsünü həyata keçirməkdir. Ölkə regionları üzrə sahibkarlıq subyektlərinin formalaşması daima tədqiq edilən bir tədqiqat obyekti olmalıdır. Burada əsas məqsəd hansı iqtisadi fəaliyyət sahələrinin nə dərəcədə inkişafı, son məhsul və xidmətin mövcud vəziyyəti ilə yanaşı, bu prosesdə meydana çıxan çətinliklərin təyin edilməsidir. Həmin son məhsul və xidmətlərin çətinliklərinin aradan qaldırılması üçün dövlət dəstəyi daima və təxirə salınmadan həyata keçirilməkdədir. Bu istiqamətdə görülmüş bir işə nəzər yetirək. Azərbaycan Respublikasının İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin təsis etdiyi www.azexport.az ünvanlı real vaxt rejimində fəaliyyət göstərən Azərbaycan məhsullarının “Made in Azerbaijan” brendi altında dünya bazarlarında reallaşdırılmasına kömək göstərən platformasını misal göstərmək mümkündür [5]. Bu sayt vasitəsi ilə mikro, kiçik, orta və iri sahibkarlıq subyektləri öz məhsul və xidmətlərinin dövlət dəstəyi ilə dünya bazarlarında reallaşdırmaq imkanlarına malikdirlər. Burada digər bir məqsəd isə əsasən ölkə regionlarındakı sahibkarların öz məhsullarını daha asan və maneəsiz dünya bazarlarında reallaşdırmasıdır. Bundan başqa, Azərbaycan Respublikasının İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin hər il üçün ölkə rayonlarının investisiya reytinqinin tərtib edilməsidir [6]. Bu reytinq cədvəli vasitəsi ilə artıq sahibkarlar əziyyət çəkmədən onlara lazım olacaq yeni

biznes şəraitinin onlar üçün daha məqsədəmüvafiq olan yerlərini təyin edə biləcəklər. Düşünürəm ki, bundan əlavə investisiya şəraiti daha zəif olan regionlara dövlət dəstəyi vasitəsi ilə sahibkarlara güzəştlərin tətbiqi ilə bu regionların gələcək inkişafına əvəzsiz köməklik göstərmək mümkündür. Yuxarıda qeyd edilənləri nəzərə alaraq qeyd etmək lazımdır ki, hər bir iqtisadi stimul və iqtisadi siyasət sonrası iqtisadi regionların mövcud vəziyyəti bir daha qiymətləndirilməli və onların inkişaf istiqamətləri daima təkmilləşdirilməlidir. Bu proseslərin daima və kompleks şəkildə həyata keçirilməsi regionların inkişafı ilə yanaşı, onların tarazlı inkişafını təmin etmiş olacaqdır. Burada əsas həlledici rol isə əmək bazarının üzərinə düşməkdədir. Regionlarda istər köhnə iqtisadi fəaliyyət sahəsinin təkmilləşdirilməsi, istərsə də yeni sahələrin yaradılmasında əmək bazarı ən ciddi və vacib rol oynamaqdadır. İxtisaslı kadrların mövcud olduğu bir şəraitdə bu sahələrin balanslı inkişafı daima mümkün olacaqdır. Onun üçün də əmək bazarı iştirakçılarının mövcud vəziyyəti daima tədqiq olunmalı, ixtisaslı kadrların yetişdirilməsinə diqqət artırılmalıdır ki, regionlarda olan ixtisaslı kadrlar öz yaşadıqları regionda işlə təmin olunsun və mərkəzi şəhər və rayonlarda deyil öz yaşadıqları regionda fəaliyyət göstərməyə üstünlük versinlər. Belə olan təqdirdə həyata keçirilən bütün iqtisadi siyasətlər maksimum fayda vermiş olacaqdır. Bunun üçün də İşçi qüvvəsinə dair seçmə statistik müayinə ölkə və iqtisadi regionlar üzrə bizə əmək bazarının tərkib hissəsini təyin etməyə böyük köməklik göstərmiş olacaqdır [7]. Çünki bu müayinənin ölkənin bütün iqtisadi regionlarını əhatə etməsi əsasında bütün əhali təbəqələri arasında sorğunun hər rüb həyata keçirilməsi bizə əmək bazarında baş verən prosesləri gecikdirmədən görməyə imkan yaratmış olur. Gələcək dövrlərdə iqtisadi siyasətin həyata keçirilməsi zamanı ani fazaların əmək bazarındakı təsirlərini ölçməyə əvəzsiz bir vasitə olan bu müayinə daha dərin proseslərin fundamental araşdırılmasına kömək göstərmiş olacaqdır. Qeyd etdiyimiz kimi, iqtisadi regionların investisiya pasportlarının hazırlanması zamanı yaxşı olardı ki, həmin regionun əmək bazarına dair göstəricilərdən ibarət bir sistemin formalaşdırılması həyata keçirilsin. Həmin məlumat bazasının prosesin daima yenilənməsi artıq investisiya prosesinə başlamazdan əvvəl mövcud vəziyyətin sxemini vermiş olacaqdır. Bütün deyilənləri nəzərə alaraq demək olar ki, ölkə iqtisadiyyatının sosial-iqtisadi inkişafı onun iqtisadi regionlarının inkişaf səviyyəsindən birbaşa asılıdır və bu inkişafın əsas tərkib amillərindən biri isə əmək bazarıdır. Tarazlı, daima inkişaf edən bir iqtisadi prosesə nail olmaq istəyiriksə, bunun üçün ölkə regionları üzrə əmək bazarının cari vəziyyətini daima tədqiq edib təkmilləşdirməliyik. Bu istiqamətdə dövlət hər il yüzlərlə bakalavr, magistr və doktorantları dünya ölkələrinin ən qabaqcıl təhsil müəssisələrində təhsil alaraq topladıqları bilik və bacarıqları ölkəmizdə tətbiq etməyə şərait yaratmışdır [8].

## Nəticə

Dünya bazarına inteqrasiya edən ölkələrin iqtisadi sistemləri daima təkmilləşdirilməyə məcburdur. Burada ölkələrin iqtisadi gücü, əsasən, onların tətbiq etdiyi iqtisadi siyasətin əsasından formalaşmaqdadır. Bunun üçün də biz öz iqtisadi gücümüzü artırmaq üçün daima iqtisadi siyasəti önə çəkməliyik. Ölkə iqtisadiyyatı regionların iqtisadi gücünün cəminə bərabər olduğundan bu iqtisadi gücü artırmaq üçün isə ilkin olaraq regionların tarazlı-sosial iqtisadi inkişafına nail olmalıyıq ki, bu inkişaf vasitəsi ilə artıq növbəti dövrdə proses daima artan xətt üzrə inkişaf etsin. Burada isə əsas rollardan birini əmək bazarı tutur. Qeyd olunanları nəzərə alaraq iqtisadi investisiya portfelini artırmaqla yanaşı, əmək bazarının da tərkib hissəsinin daima inkişaf etdirilməsi zəruri haldır. Bütün iqtisadi proseslərin gələcək dövrdə də daima inkişafı üçün əmək bazarının tərkib hissələri ölkə regionları üzrə araşdırılmalı, çatışmazlıq olan hissələr isə daima inkişafa istiqamətləndirilməlidir ki, verilmiş iqtisadi qərarlar ölkənin regionlarının tarazlı inkişafına zəmin yaratsın.

**Elnur Rüstəmov**

**Azərbaycanın regionlarının tarazlı sosial-iqtisadi inkişafında əmək bazarının rolu**

**Xülasə**

Məqalədə qeyd edilir ki, regional səviyyədə sosial-iqtisadi inkişafa nail olmaq üçün daima iqtisadi siyasəti təkmilləşdirməyə ehtiyac vardır. Burada bütün iqtisadi proseslərin mərkəzində əmək bazarı durduğundan bu sahənin tədqiqinə ehtiyacın olduğu vurğulanır. Məqalədə 2010-2019-

cu illərdə iqtisadi rayonlar üzrə məşğul əhali və məhsul buraxılışı göstəricilərindən istifadə olunaraq mövcud vəziyyət təhlil edilmişdir. Göstərilmişdir ki, bütün iqtisadi proseslərin gələcək dövrdə də daima inkişafı üçün əmək bazarının tərkib hissələri ölkə regionları üzrə araşdırılmalı, çatışmazlıq olan hissələr isə daima inkişafa istiqamətləndirilməlidir ki, verilmiş iqtisadi qərarlar ölkənin regionlarının tarazlı inkişafına zəmin yaratsın. Bu təhlil həyata keçirilərkən beynəlxalq metodologiyalardan istifadə olunmuşdur.

**Эльнур Рустамов**

**Роль рынка труда в сбалансированном социально-экономическом развитии регионов Азербайджана**

**Резюме**

В статье отмечается, что для достижения социально-экономического развития на региональном уровне необходимо постоянное совершенствование экономической политики. Поскольку рынок труда находится в центре всех экономических процессов, подчеркивается также необходимость изучения этой области. В статье анализируется текущая ситуация по экономическим регионам за 2010-2019 годы с учётом использования показателей занятого населения и общего выпуска продукции. Для непрерывного развития всех экономиических процессов в будущем и принятия решений в создании сбалансированного развития экономики страны, регионами должны производиться анализы компонентов рынка труда, приниматься меры по устранению недостатков и направленные на дальнейшее развитие экономики. При проведении этого анализа использовались международные методологии.

**Elnur Rustamov**

**The role of the labor market in the balanced socio-economic development of the regions of Azerbaijan**

**Summary**

The article notes that for the achievement of socio-economic development at the regional level it is necessary to constantly improve economic policy. Since the labor market is at the center of all economic processes, it is also emphasized the need to study this area. The article analyzes the current situation in the economic regions for the years 2010-2019, taking into account the use of indicators of the employed population and the total output. For uninterrupted development of all economies. processes in the future and the adoption of decisions in creating a balanced development of the economy of the country regions should produce an analysis of the components of the labor market and the lack of them to pursue further economic development. International methods were used in conducting this analysis.

**Ədəbiyyat**

1. https://www.stat.gov.az/source/system_nat_accounts/az/034.xls
2. https://www.stat.gov.az/source/labour/az/001_1.xls
3. https://www.economy.gov.az/article/state-programs/21429
4. http://edf.gov.az/uploads/Teqdimat/Hesabat%20Vebsayt%20Final.pdf
5. https://azexport.az/
6. http://iqtisadiislahat.org/store//media/documents/diger/Rayonlarin_Investisiya_Reytinqi_.pdf
7. https://www.azstat.org/onlinedoc/d03102410.rar
8. http://xaricdetehsil.edu.gov.az/
9. http://www.e-qanun.az/framework/27284
10. http://www.e-qanun.az/framework/41320
11. http://edf.gov.az/

Məqalə redaksiyaya daxil olmuşdur: 16.08.2021
Təkrar işlənməyə göndərilmişdir: 20.08.2021
Çap üçün qəbul olunmuşdur: 19.11.2021

UOT: 33.303
DOI: 10.338.70/2413-6557-2021-7-4-38-43

# ÖLKƏNİN DAVAMLI İNKİŞAFINDA ƏMƏK EHTİYATLARINDAN SƏMƏRƏLİ İSTİFADƏ

***Sevinc Əhmədova***
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi*
*Dayanıqlı inkişaf statistikası şöbəsinin aparıcı məsləhətçisi,*
*Azərbaycan Dövlət İqtisad Universitetinin magistrantı*
*AZ 1136, Bakı şəhəri, İnşaatçılar prospekti 81*
*e-poçt: sevinj.ahmadova@stat.gov.az*

**Açar sözlər:** əmək ehtiyatları, iqtisadi fəal əhali, milli iqtisadi inkişaf modeli, işsizlik, məşğulluq.
**Ключевые слова:** трудовые ресурсы, экономически активное население, модель национального экономического развития, безработица, занятость.
**Keywords:** labor resources, economically active population, national economic development model, unemployment, employment.

Müasir dövrdə ölkə iqtisadiyyatının dayanıqlı inkişafının, əhalinin həyat səviyyəsinin və onun keyfiyyətinin yüksəldilməsinin ən vacib ünsürlərindən biri əmək ehtiyatlarından düzgün və effektli istifadə edilməsidir. Əmək ehtiyatları əmək qabiliyyətli yaşda olan əmək qabiliyyətli əhalinin, ölkə qanunvericiliyi ilə müəyyən olunmuş yaş həddinə uyğun olaraq əmək qabiliyyətli yaşdan yuxarı olan və əmək qabiliyyətli yaş həddinə çatmamış işləyən şəxslərin ümumi sayıdır [1]. Hər bir ölkənin sosial-iqtisadi inkişafı onun əmək ehtiyatlarından səmərəli istifadə olunmasını şərtləndirir.

Ulu öndər, ümummilli lider Heydər Əliyev "XXI əsr və üçüncü minillik" münasibətilə Azərbaycan xalqına müraciətində XX əsrin 70-80-ci illərində Azərbaycanda görülən quruculuq işlərindən bəhs edərkən qeyd etmişdir ki, həmin dövrdə Respublikanın ən kəskin problemlərindən biri əmək qabiliyyətli əhalinin ictimai əməyə cəlb olunması, əmək ehtiyatlarından səmərəli istifadə edilməsi idi [2].

Hazırda ölkənin əmək ehtiyatlarından səmərəli istifadə və davamlı iqtisadi inkişafının təmin edilməsi məqsədilə Milli İqtisadi İnkişaf Modeli formalaşdırılmışdır. Son zamanlara qədər Azərbaycanın Milli İqtisadi İnkişaf Modeli istiqamətində sistemli bir araşdırma aparılmamış, bazar iqtisadiyyatına keçid prosesində həyata keçirilmiş tədbirlərin nəzəri əsası diqqətdən kənarda qalmış, praktik nəticələr nəzəri cəhətdən əsaslandırılmamış, bu sahədə əldə olunan elmi nəticələr dəyərləndirilməmişdir. Ölkəmizin Milli İqtisadi İnkişaf Modelinə xas olan əsas xüsusiyyətlərə aşağıdakıları aid edə bilərik:

- Dövlət iqtisadiyyatın tənzimlənməsində həlledici rol oynayır;
- Model sosialyönümlü xarakter daşıyır;
- İqtisadiyyatın modernləşməsi və innovativ inkişafı əsas prioritet hesab edilir;
- Ölkəmizin iqtisadiyyatı dünyanın inkişaf etmiş ölkələrinin iqtisadiyyatına inteqrasiya olunur;
- İnhisarçılığın məhdudlaşdırılması və rəqabət mühitinin formalaşdırılması əsas hədəflər sırasında yer alır [3].

Ölkəmizdə həyata keçirilən dərin iqtisadi siyasətlər əsasında əmək ehtiyatlarının keyfiyyətinin yüksəldilməsi əmək bazarında mövcud olan işçi qüvvəsinin səmərəliliyinin artırılması, əmək bazarlarının dünya standartlarına uyğunlaşdırılması, beynəlxalq təcrübədən istifadə, yeni təlim və təhsil proqramlarının hazırlanması və onların həyata keçirilməsi ilə reallaşdırılır. Bu isə ölkə üzrə əmək ehtiyatları arasında rəqabətin, xarici ölkələrdən işçi qüvvəsinin ölkəmizə marağının artmasına səbəb olur. Əmək ehtiyatlarından istifadənin ən mühüm problemlərindən biri iqtisadi rayonlar və bütün ölkə üzrə məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi və istehsalın ümumi səmərəsinin

yüksəldilməsi ilə işçi qüvvəsindən səmərəli şəkildə istifadə arasında düzgün əlaqənin formalaşdırılmasından ibarətdir.

Əmək ehtiyatlarından səmərəli istifadə edilməsi mürəkkəb və çoxölçülü bir problemdir. Bu kimi məsələlərin həll edillməsi zamanı müxtəlif iqtisadi, sosioloji və demoqrafik amilləri əsas götürmək, eləcə də hər bir regionun və milli iqtisadiyyatın sahəsinin konkret iqtisadi və coğrafi xarakteristikalarını bilmək, həmçinin bunun əsasında cəmiyyətin əmək resurslarından və işçi qüvvəsindən istifadənin ən yaxşı variantlarını müəyyən etmək tələb edilir. Əmək ehtiyatlarının əsas hissəsini əmək qabiliyyətli yaşda olan əhali təşkil edir. Əmək ehtiyatlarından səmərəli istifadə edilməsinin planlaşdırılması onların milli iqtisadiyyatın sektorlar və regionları üzrə bölüşdürülməsi və istifadə edilməsini, milli iqtisadiyyatın və qeyri-maddi istehsal sahələrinin işçi qüvvəsinə olan tələbinin müəyyən olunması və əhali məşğuliyyətini habelə az əmək sərf etməklə mənfəət əldə etmək üçün müvafiq tədbirlərin həyata keçirilməsini özündə birləşdirir.

Respublikamızda son illərdə həyata keçirilən sosial-iqtisadi siyasətin əsas istiqamətlərindən biri də əmək bazarının inkişafı və işçi qüvvəsindən səmərəli istifadə edilməsidir. Əhalinin məşğulluğunu təmin etmək məqsədilə yeni iş yerləri, müəssisələr, infrastruktur obyektləri və s. yaradılmışdır. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin uğurla yerinə yetirilməsi ölkə iqtisadiyyatının bütün sektorlarında, o cümlədən də qeyri-neft-qaz sektorlarında dayanıqlı inkişafın təmin edilməsinə, iqtisadiyyatın diversifikasiyası nəticəsində yeni istehsal və emal müəssisələrinin fəaliyyətə başlamasına, prioritet sahələrə irihəcmli investisiyaların yönəldilməsi ilə yeni müəssisələrin yaradılmasına və yeni iş yerlərinin açılmasına zəmin yaratmışdır.

2020-ci il üzrə ümumilikdə ölkə miqyasında 9619 müəssisə və təşkilat yaradılmışdır ki, onların regionlar üzrə bölgüsü aşağıdakı şəkildə olmuşdur:

Bakı şəhəri – 8002, Abşeron-Xızı iqtisadi rayonu – 495, Dağlıq Şirvan iqtisadi rayonu – 55, Gəncə-Daşkəsən iqtisadi rayonu – 125, Qarabağ iqtisadi rayonu – 81, Qazax-Tovuz iqtisadi rayonu – 140, Quba-Xaçmaz iqtisadi rayonu – 106, Lənkəran-Astara iqtisadi rayonu – 135, Mərkəzi Aran iqtisadi rayonu – 123, Mil-Muğan iqtisadi rayonu – 93, Naxçıvan Muxtar Respublikası – 46, Şəki-Zaqatala iqtisadi rayonu – 137, Şərqi Zəngəzur iqtisadi rayonu – 8, Şirvan-Salyan iqtisadi rayonu – 73. Göründüyü kimi, yeni yaradılmış müəssisə və təşkilatların böyük hissəsi Bakı şəhəri və Abşeron-Xızı iqtisadi rayonunun payına düşür [1].




Şəkil 1. İqtisadi rayonlar üzrə 2020-ci ildə yeni açılmış iş yerləri (faizlə)

Yeni açılmış iş yerlərinə gəldikdə isə qeyd olunmalıdır ki, bu məsələdə Bakı şəhəri digər bölgələri qabaqlayır (Şəkil 1). Belə ki, 2020-ci ildə açılmış iş yerlərinin 69,3 faizi paytaxtın payına düşür [1].




Şəkil 2. 2020-ci il ərzində yeni açılmış iş yerlərinin strukturu (faizlə)

Yeni iş yerlərinin açılması əsasən (74.8 faiz) yeni müəssisə və təşkilatların yaradılması hesabına baş vermişdir (Şəkil 2) [2].

Əmək ehtiyatlarından daha səmərəli istifadə yolu ilə əhalinin məşğulluğunu təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 30 oktyabr tarixli 602 nömrəli Sərəncamı ilə "2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" təsdiq edilmişdir. Ölkədə əmək ehtiyatlarından səmərəli istifadə, əhalinin məşğulluq və sahibkarlıq imkanlarının genişləndirilməsi, layiqli əməyin dəstəklənməsi, işçi qüvvəsinin rəqabətqabiliyyətliliyinin artırılması və əmək məhsuldarlığının yüksəldilməsi hesabına iqtisadi inkişafın təmin edilməsi Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrində başlıca məqsədlər olaraq müəyyən edilmişdir [4].

1. Маркетинг и менеджмент, как специальные науки впервые зародились на этапе капиталистической общественно-экономической системы, т.е. в период формирования и действия рыночных отношений. Причем, менеджмент, как научная система организации, планирования и управления трудовыми ресурсами, хозяйственно-экономическими системами, материальными и финансовыми ресурсами, а маркетинг, как наука упреждения и управления рисками, а также прибыльными отношениями с клиентами зародились именно в период рыночной экономики. Значит, этими же науками, а именно маркетингом и менеджментом нужно пользоваться для разрешения всех, в том числе экологических проблем, созданных этим же строем.

2. Рост численности населения, что влечет за собой увеличение объема производства и потребления, а, следовательно, расширение количества производственных предприятий в отраслях материального производства, расширение сетей дорог и коммуникаций.

3. Распад социалистической системы хозяйствования и перевод экономики Азербайджана на капиталистические рельсы на основе принятых законов, созданных исполнительно-контролирующих структур и рыночной инфраструктуры.

4. Стремительное и устойчивое развитие экономики Азербайджанской Республики на основе современных инновационных технологий, позволяющих относительно эффективно решать различные производственно-экономические, экологические и прочие проблемы.

5. Наличие запасов нефти, газа и множества других природных ресурсов, добыча, переработка, транспортировка и использование которых требует оперативного решения возникающих экологических проблем.

6. Интеграция экономики и инфраструктуры Азербайджанской Республики в мировую экономику и международные сети инфраструктуры, что создает угрозу ускоренного распространения различных инфекционных болезней среди не только населения, но и флоры и фауны.

7. Восстановление экологии, а также преодоление вызовов и угроз после длительной оккупации и военных действий в различных уголках мира, в том числе на освобожденных от армянских агрессоров территориях в южно-западной части Азербайджана.

8. Усиление темпов развития науки, техники и технологии, что позволяет улучшать как организацию управления производством, так и материально-технологическое обеспечение каждого производства. Результатом данного процесса обычно является появление новых изделий, которые могут создавать как дополнительные угрозы для экологии, так и средства для ее восстановления. Например, развитие ИКТ параллельно с нанесением ущерба природной среде, раскрывает новые возможности для решения ряда проблем экологии.

9. Расширение со стороны относительно развитых стран мира производства, испытания и практического применения не только обычного стрелкового оружия, но и новых видов тяжелого вооружения и оружия массового поражения и т.д.

В настоящее время в Азербайджанской Республике с относительно небольшой территорией в 86,6 тыс. кв. км действуют порядка трех тысяч промышленных предприятий, каждая из которых несет потенциальную угрозу для природной среды страны. Если учесть, что в предстоящие 5-10 лет экономика Азербайджана будет интенсивно развиваться также на территориях, освобожденных от армянских захватчиков, то количество промышленных предприятий в стране может увеличиться еще на 35-40%, что приведет к еще большему ухудшению экологической обстановки в регионе. Однако, для того, чтобы этого не случилось необходимо проводить специальные исследования на основе очерченной выше миссии, а также условий и принципов экологического маркетинга-менеджмента, с последующей разработкой рекомендаций по качественному улучшению организации, планирования и управления мероприятий по упреждению экологических проблем, охране природы, восстановлению экологического дисбаланса и т.д. Как мы считаем, одной из направлений таких рекомендаций должны быть предложения, связанные с эффективным и рачительным использованием материально-технических и сырьевых ресурсов, а также сокращение производственных потерь и отходов.

Ныне в Азербайджане трудно найти производственное и коммерческое предприятие, которое бы имело безотходное производство и не наносило бы вред окружающей среде. Если верить статистике, то в наши дни экологию нашей страны примерно на 18% загрязнили промышленные объекты, принадлежащие государству, а на 82% - производственно-коммерческие структуры, находящиеся в частных и смешанных формах собственности. Однако, для уточнения этих и тому подобных, не столь точных сведений, как мы считаем, необходимо создавать специальные мониторинговые группы из числа сотрудников правоохранительных органов, а также соответствующих исследовательских и оценочных центров. К этой непростой работе возможно даже привлечь специалистов известных в мире аудиторских палат, как то в настоящее время делается на освобожденных землях Карабаха для оценки ущербов, нанесенных нашей стране со стороны армянских вандалов.

**Таблица 1**

**Вовлечение в хозяйственный оборот отходов в отдельных сферах экономической деятельности (тыс. тонн) [9]**

| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Сельское хозяйство, Лесное хозяйство и рыболовство** | 0,8 | 2,0 | 6,7 | 5,7 | 7,2 | 8,9 | 8,1 | 6,8 | 1,0 | 1,2 |
| **Добывающая промышленность** | 80,9 | 28,6 | 76,8 | 5,1 | 10 | 10,9 | 117,7 | 106,0 | 188,9 | 35,6 |
| **Перерабатывающая промышленность** | 387,5 | 482,7 | 565,0 | 472,2 | 407,2 | 684,5 | 571,6 | 608,0 | 634,5 | 615,3 |
| **Производство и распределение электроэнергии, газа и воды** | 1,0 | 4,8 | 4,2 | 1,1 | 1,4 | 3,9 | 7,0 | 2,3 | 2,5 | 4,0 |
| **Строительство** | - | 0,6 | 0,7 | 1,2 | 0,4 | 0,6 | 0,8 | 0,9 | 2,6 | 1,3 |
| **Прочая экономическая деятельность** | 5,9 | 53,6 | 11,6 | 52,1 | 71,1 | 62,4 | 91,4 | 43,3 | 18,8 | 55,4 |

Показатель вовлечения в хозяйственный оборот отходов в отдельных сферах экономической деятельности ясно указывает на степень управленческой деятельности и

технико-технологической оснащенности производственных и прочих предприятий. В то же время это является показателем заботы отдельных предприятий и организаций, функционирующих в Азербайджанской Республике об экологическом состоянии и подрастающем поколении в стране. Кроме этого данный показатель ярко характеризует то, как экономические субъекты стремятся экономить свой имеющийся производственный потенциал, а также насколько эти хозяйства оснащены инновационными технологиями, позволяющими создавать безотходное производство (таблица 1). На основе приведенной таблицы 1, можно констатировать, что в нашей стране предприятия перерабатывающей промышленности по степени технико-технологической оснащенности находятся на относительно высоком уровне, чем предприятия других отраслей материального производства. Данное преимущество позволило им в течение только 2019 года в хозяйственный оборот вовлечь по общей массе в 6,3 раза больше отходов, чем все другие предприятия остальных сфер экономической деятельности.

Как показывают исследования, в нашей стране, не зависимо от форм собственности, на каждом производственном предприятии имеются скрытые резервы и возможности для более эффективного и рачительного использования не только машин, механизмов и оборудования, но и сырья и материалов. Задействование последних, при креативном технико-технологическом инженерном подходе на основе принципов экологического маркетинга-менеджмента, могут относительно быстро и эффективно устранить те или иные проблемы окружающей среды.

Заметим, что при достаточно обдуманном управлении процессами, направленными на сокращение производственных потерь и отходов в отраслях материального производства Азербайджана можно будет значительно сократить расходы на защиту окружающей среды (таблица 2).

**Таблица 2**

**Расходы на проведение мероприятий по защите окружающей среды (тыс.манат) [9]**

| | **2000** | **2005** | **2010** | **2015** | **2019** |
|---|---|---|---|---|---|
| **Всего:** | 11853,9 | 21395,8 | 52817,3 | 32258,4 | 59228,8 |
| в том числе: | | | | | |
| - на охрану водных запасов | 10508,3 | 17899,3 | 3922,56 | 17276,2 | 31984,1 |
| - на охрану атмосферного воздуха | 1040,5 | 2100,3 | 1049,6 | 2518,6 | 5710,2 |
| - на охрану окружающей среды от производственных и бытовых отходов | 132,9 | 971,2 | 4054,2 | 5465,6 | 13627,4 |
| - на восстановление почвы | 172,0 | 425,0 | 8487,0 | 14098,6 | 7901,1 |

Как следует из приведенной таблицы 2, начиная с 2000 года по настоящее время, наблюдается устойчивая динамика роста расходов государственных и частных производственных предприятий на защиту окружающей природной среды. Только в 2019 году эти расходы составили 59228,8 тыс. манат, что по сравнению с 2000-м годом почти в пять раз больше. Целевое использование выделенных средств на природоохранные мероприятия позволили в разы улучшить санитарное состояние не только в городах Баку, Гянджа, Сумгаит, Ширван, Мигечаур, но на всей территории Азербайджана. В настоящее же время львиная доля этих и других средств, выделяемых из государственного бюджета, Президентского Фонда, Фонда Гейдара Алиева, а также других источников, идет на очистку освобожденных от армянских варваров территорий от мин, восстановление там былой флоры и фауны, охрану уникальной природы данного региона и т.д.

Общеизвестно, чтобы решать любые проблемы необходимо определить степень их актуальности. Затем на основе полученной информации определить, как и за счет каких источников их решать. В частности, одним из актуальных вопросов экологического маркетинга-менеджмента, является выявление и активизация источников финансирования для устранения экологических проблем, а также выявления сторонних вызовов и угроз для окружающей среды и, соответственно для населения. Для решения такой задачи в экологии необходимо систематическое проведение мониторинга состояния окружающей среды на предмет ее соответствия предъявляемым стандартам. Кроме этого нужна организация сертификации качества производимых продовольственных и промышленных товаров для населения, а также производимых и закупаемых машин, механизмов, оборудования, сырья и материалов, отвечающих требованиям экологии.

В Азербайджанской Республике имеются все условия для решения приведенных задач и проблем, связанных с экологией. Есть необходимость на государственном уровне активизировать деятельность всех структур, занимающихся вопросами экологии, усилить контроль над практикой подбора, расстановки и дальнейшей деятельности кадров в этих ведомствах.

В целях решения этих и других проблем необходимо сформировать определенный индивидуальный механизм финансирования каждого из приведенных направлений, подлежащих инвестированию.

## Заключение

1. Экологический маркетинг-менеджмент призван реализовывать в основном задачи и функции, связанные с организацией, планированием и управлением специальными исследованиями проблем, вызовов и угроз, направленных как в сторону окружающей среды, так и обратно от нее к человеческому обществу, флоре, фауне и т.д.

2. Цель экологического маркетинга-менеджмента должна состоять не только в организации производства и продаже экологически чистых и безопасных для населения и природы товаров, но и изыскании источников финансирования и мобилизации прочего ресурсного потенциала общества для прогнозирования и решения экологических проблем.

3. В целях повышения качества проводимых исследований и принятия наиболее правильных управленческих решений, экологический маркетинг-менеджмент требует создания собственной информационной системы, специализированной в области окружающей среды.

4. В своей практической деятельности экологический маркетинг-менеджмент должен опираться на условия и порядки, диктуемые рыночными отношениями; местные и международные организации, занимающиеся проблемами экологии; законы и стандарты, касающиеся экологии.

5. Ощутимый вред флоре и фауне Азербайджана продолжают наносить добыча, переработка и транспортировка нефти и газа, плохое качество производимых используемых в стране собственных нефтепродуктов, недоразвитость водоснабжения и канализационных систем в городах, поселках и в сельской местности. Эти и другие проблемы, нарушающие экологическое равновесие, как и проблемы инфраструктурного обеспечения освобожденных от армянских захватчиков территорий Карабаха, требуют ускоренного решения. В этом контексте рекомендуем проводить исследования по созданию энергосберегающих двигателей для транспортных средств и прочего назначения, продолжать работы по использованию солнечной, термальной, ветряной и биологической энергии.

6. В нашей стране можно насчитать свыше 24 законов, кодексов, указов, распоряжений и постановлений, касающихся охраны окружающей среды, принятых на самом высоком государственном уровне. Как установлено исследованиями, многие из этих нормативно-правовых документов требуют уточнения и доработки в плане несения ответственности и наказания субъектов рыночных отношений за неисполнение или нарушение положений нормативных актов, касающихся экологии. Кроме этого, считаем необходимым усилить

деятельность исполнительных и контролирующих структур, привлеченных к упреждению экологических проблем и защите окружающей природной среды.

7. В целях оперативного проведения мониторинга производственно-коммерческих предприятий и организаций, на предмет их соответствия экологическим нормам и стандартам, считаем необходимым сформировать более специализированные государственные и общественные структуры.

8. Усиление практики сертификации качества производимых в Азербайджане товаров различного происхождения и назначения позволит:

- усилить их поставки на внутренние и внешние рынки;
- обеспечивать поступление валютных средств из-за рубежа в страну;
- уменьшить зависимость экономики и бюджета нашего государства от добычи и продажи сырой нефти, нефтепродуктов и газа.

9. В целях комплексного решения проблем, связанных с окружающей средой, нужно более целенаправленно прибегать к открывающимся возможностям экологического маркетинга-менеджмента во всех следующих структурах и сферах человеческой деятельности:

- в государственных и частных организациях, занятых решением проблем экологии, упреждением экологических угроз и охраной окружающей среды;
- в сферах производства и реализации экологически чистых товаров;
- в природоохранных зонах, охотничьих угодьях, заказниках и т.д.;
- в отдельных регионах и поселениях, в организациях и предприятиях, курортных зонах и санаториях;
- в банках и страховых компаниях, решающих проблемы экологии;
- в исполнительных и контролирующих структурах государственных и муниципальных органов, бизнес-образованиях и т.д.

10. Для грамотного и эффективного решения проблем, связанных с воздухом, водой, флорой и фауной и другими компонентами окружающей среды необходимо хорошо изучать разные науки, в том числе экологический маркетинг-менеджмент, естествознание, химию, физику, геологию, биологию и др.

11. При решении проблем экологии следует тщательно разрабатывать в первую очередь постоянные, а затем переменные6, т.е. устойчивые и изменчивые источники финансирования. Такими источниками финансирования могут быть:

- средства, поступающие из государственного бюджета;
- средства, поступающие из местных и международных благотворительных организаций, меценатов, определенных фондов и т.п. источников;
- соответствующие налоги и штрафы за нанесение ущерба природе;
- сборы с населения и туристов стран;
- поступления от экотуризма;
- выручки от продажи лицензий на охоту диких животных, отстрел птиц, ловли рыбы, сбор лечебных трав, выпас скота, срубку деревьев т.д.

**Eldar Quliyev, Natiq Qurbanov, Fikrət Xosrovlu**

**Azərbaycanda ekoloji marketinq-menecmentin tətbiqinin bəzi problemləri və perspektivləri**

**Xülasə**

Məqalə təbii ətraf mühitin vəziyyəti ilə əlaqədar problemləri, çağırışları və təhdidləri ortaya qoyur. Araşdırmalar göstərir ki, dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən lazımi tədbirlər görülməzsə, təkcə Azərbaycan Respublikasının əhalisi deyil, gələcəkdə bütün bəşəriyyət ekoloji vəziyyətin mənfi təsirləri ilə üzləşə bilər.

Məqalə müəllifləri, xüsusən də kapitalist iqtisadi sistem dövründə, ekoloji vəziyyətlə əlaqəli problemlərin artmasının əsas səbəblərini açıqlayaraq qeyd edirlər ki, əgər dövlətlər və beynəlxalq təşkilatlar bu istiqamətdə lazımi tədbirlər görməsələr dünya əhalisi bu təhdidlərlə daha tez-tez rastlaşacaq.

Müəlliflər problemləri həll etmək, habelə ətraf mühitin yaratdığı çətinlikləri və təhdidləri gözləmək və azaltmaq üçün cavab tədbiri olaraq, nisbətən yeni bir elmin - ekoloji marketinq-menecmentin imkanlarından istifadə etməyi təklif edirlər.

Sosial yönümlü ekoloji marketinq-menecmentə görə, ətraf mühitdəki disbalansı tez və təsirli şəkildə aradan qaldırmaq üçün bu fəaliyyətlərin maliyyələşdirmə mənbələrini tapmağa yönəlmiş təşkilati və iqtisadi tədbirləri hər yerdə gücləndirmək lazımdır.

**Эльдар Гулиев, Натик Гурбанов, Фикрет Хосровлу**

**Некоторые проблемы и перспективы применения экологического маркетинга-менеджмента в Азербайджане**

**Резюме**

В статье раскрываются проблемы, вызовы и угрозы, связанные с состоянием окружающей природной среды. Исследования показывают, что если со стороны государств и международных организаций не будут предприняты соответствующие меры, то не только население Азербайджанской Республики, но и все человечество, в будущем может столкнуться с негативами, исходящими от экологической обстановки.

Авторы статьи приводят основные причины усугубления проблем, а также возрастания вызовов и угроз, связанных с экологической обстановкой в особенности в период капиталистической системы хозяйствования.

В качестве ответных мер для разрешения проблем, а также упреждения и смягчения вызовов и угроз, исходящих от окружающей среды, авторы предлагают пользоваться возможностями относительно новой науки – экологическим маркетингом-менеджментом.

В целях ускоренного и эффективного устранения дисбаланса в экологии, как считает социально ориентированный экологический маркетинг-менеджмент, необходимо повсеместно усиливать организационно-экономические мероприятия, направленные на поиск источников финансирования расходов на эти мероприятия.

**Eldar Guliyev, Natik Gurbanov, Fikret Khosrovlu**

**Some problems and prospects of applying environmental marketing management in Azerbaijan**

**Summary**

The article reveals the problems, challenges and threats associated with the state of the natural environment around us. Studies show that not only the population of the Republic of Azerbaijan, but also the entire humanity may face the negatives coming from the environmental situation at an increasing pace in the future, if appropriate measures are not taken by states and international organizations.

The authors of the article cite the main reasons of the intensification of problems, associated with the environmental situation, especially during the capitalist economic system and note that the world population will encounter with these threats more frequentyly if states and international organizations do not take appropriate measures.

As a response to solving problems, as well as anticipating and mitigating challenges and threats emanating from the environment, the authors suggest using the opportunities of a relatively new science – environmental marketing – management.

In order to accelerate and effectively eliminate the imbalance in the environment, according to socially oriented environmental marketing management, it is necessary to strengthen organizational and economic measures aimed at finding sources of financing for these activities everywhere.

**Литература**

1. Mahmudov C.M. Ekologiya. (Mühazirələr toplusu). Bakı: "Nurlan",2007, 319 səh.
2. Коробко, В.И. Экологический менеджмент. Учеб. пособие. Гриф УМЦ «Профессиональный учебник». / В.И. Коробко. - М.: ЮНИТИ, 2013. - 279 с.
3. Котлер Ф. Маркетинг-менеджмент: экспресс-курс, 2-е изд. СПб.: Питер, 2006. 896 с.

4. Резник Г.А. Экологический маркетинг: проблемы и перспективы развития: моногр. / Г.А. Резник, А.А. Малышев. – Пенза: ПГУАС, 2014. – 144 с.
5. Прокопенко О.В., Осик Ю.И. Экологический маркетинг:Учеб.посоьие.-Караганда-КарГУ,2015.-208 с.
6. https://files.preslib.az/projects/azereco/ru/eco_m1_6.pdf
7. 7.https://aif.ru/society/history/tayna_10_minut_polyota_o_chyom_gagarinu_prikazano_bylo_molchat
8. www.eco.gov.az
9. WWW.stat.gov.az

Məqalə redaksiyaya daxil olmuşdur: 28.09.2021
Təkrar işlənməyə göndərilmişdir: 01.10.2021
Çap üçün qəbul olunmuşdur: 19.11.2021

UOT: 311.216
DOI: 10.338.70/2413-6557-2021-7-4-62-73

# UÇOT–HESABAT SİSTEMİNDƏ NORMATİV VƏ POZİTİV METODOLOGİYALAR

***Vaqif Quliyev***
*Azərbaycan Dövlət İqtisad Universiteti*
*"Mühasibat uçotu və audit" kafedrasının dosenti, i.ü.f.d*
*AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6*
*e-poçt: vaqifquliyev.unec@ gmail.com*

**Açar sözlər:** Normativ yanaşma , pozitiv yanaşma, nəzəriyyə, metodologiya, mühakimələr, faktlar, aprior, aposetrior, aktiv.
**Ключевые слова:**Нормативный подход, позитивный подход, теория, методология, суждения, факты, априор, апостериор,актив.
**Keywords:** Normative approach, positive approach, theory, methodology, judgments, facts, a priori, aposteriori, asset.

Araşdırmalar göstərir ki, fəlsəfi-elmi və iqtisadi ədəbiyyatlarda nəzəriyyənin və metodologiyanın təsnifatı çox geniş öyrənilir və interpretasiya edilir. Uçotun, o cümlədən aktivlərin uçotunun nəzəriyyəsi və metodologiyası da bu cəhətdən istisna təşkil etmir. Ancaq nəzəriyyəyə və metodologiyaya yanaşmalar çərçivəsində ən çox müzakirə və mübahisə doğuran normativ və pozitiv yanaşmalardır. Onlar, əsasən, normativ və pozitiv nəzəriyyələr adı altında öyrənilir və şərh olunur. Lakin bu heç də o demək deyildir ki, həmin yanaşmalar daxilində nəzəriyyə və metodologiya vahid obyekt kimi nəzərdən keçirilir. Məsələ bundadır ki, nəzəriyyə və metodologiya bir-biri ilə məntiqi əlaqə və asılılıqda mövcud ola bilər: biri digərini yaradır, biri-birinə ziddiyyət təşkil edə bilir, biri digərinin dəyişilməsinə təsir göstərir, hər ikisi praktikanın tələblərinə uyğunlaşdırılır və s. Məqalədə araşdırmalar və təhlillər məhz həmin aspektləri əhatə edir.

Bütün elmlərdə pozitiv və normativ yanaşmalara rəğmən iki qruplaşmanın mövcud olduğunu demək etmək olar: 1) pozitiv və normativ yanaşmalar arasında fərqlərin olmadığını təsdiq edən qrup; 2) pozitiv və normativ yanaşmalar arasında fərqlərin mövcudluğunu və onların qarşılıqlı əlaqə və asılılıqda olduğunu təsdiq edən qrup. Birinci qrup pozitiv və normativ yanaşmalar arasında fərqli cəhətləri qəbul etmir və monistik mövqedə durur. İkinci qrup isə pozitiv yanaşma ilə normativ yanaşmanı eyniləşdirməyin əleyhinədir, onlara görə bu yanaşmalar arasında həm fərqli, həm də oxşar cəhətlər vardır.

Araşdırmalara əsasən demək olar ki, iki qrup arasında gedən müzakirə və mübahisələrdə müxtəlif terminologiyadan istifadə olunur: a) pozitiv yanaşmada – "vardır","faktlar", "təfsiredici" və s; b) normativ yanaşmada – "olmalıdır", "normalar", "təsbitedici" və s. Birinci qrupun nümayəndələri yalnız "vardır", "faktlar", "təfsiredici" terminlərdən, ikinci qrupun nümayəndələri isə həm pozitiv, həm də normativ yanaşmalara aid edilən terminlərdən istifadə edirlər. İkinci yanaşma tərəfdarları pozitiv və normativi müvafiq olaraq "praktika" və "dərrakə" (zəka) kimi də ifadə edirlər.

Filosoflar K.Popper və P.Feyerabend birinci qrupun tərəfdarlarına bəzi relyativistləri aid edirlər, hansılar ki, yalnız faktları və praktikanı qəbul edir, normaların və dərrakənin isə əslində faktları və praktikanı əks etdirdiyini təsdiq edirlər [1, səh. 410; 2, səh. 493-494]. K.Popper "pozitiv" və "normativ" anlayışlarını birbaşa işlətməsə də, onun faktlar və normalar haqqındakı mühakimələri ilə tanışlıq deməyə əsas verir ki, o, onları məhz pozitiv və normativ nəzəriyyələr/metodologiyalar qismində istifadə edir. Əgər fəlsəfədə "vardır" və "olmalıdır" teoremi vardırsa, onda təsdiq etmək olar ki, K.Popper "faktlar" deyəndə «vardır» anlayışını, yaxud pozitiv (təfsiretmə) metodologiyanı, "normalar" deyəndə isə «olmalıdır» anlayışını, yaxud normativ (təsbitedici) metodologiyanı nəzərdə tuturdu. P.Feyerabend isə pozitiv və normativ metodologiyanın mövcudluğunun reallıq olduğunu "praktika" və "zəka" (dərrakə, idrak) terminologiyaları altında araşdırır və sübut edirdi.

Amerika filosofu T.Kun nəzərdən keçirilən problemə rəğmən öz fikrini belə ifadə edirdi: "Mənim kitabımın ilkin mətni ilə tanış olmuş oxuculardan bəziləri qeyd ediblər ki, mən dəfələrlə izahetmənin təfsir formasından normativ formasına keçirəm və əksinə keçirəm … bəzi tənqidçilər təsdiq edirlər ki,

mən təfsiri təsbitlə səhv salıram və zamanın sınağından çıxmış “vardır”, “olmalıdır”ı nəzərdə tuta bilməz fəlsəfi teoremini pozmuşam” [3, səh. 310].

K.Popper və P.Feyerabend relyativistləri, eləcə də T.Kunun və onunla həmrəy olanların mövqelərini qəbul etmirlər, pozitiv və normativ yanaşmalar arasında köklü fərqlərin olduğunu və eyni zamanda onlar arasında sıx qarşılıqlı əlaqələrin mövcudluğunu göstərirlər. Belə ki, K.Popperin fikrincə, faktlar və normalar necə olsalar da, onlar arasında hər şeydən əvvəl sərhəd çəkmək lazımdır və faktların və normaların bir-birinə müncər oluna bilməyəcəyini yaradan səbəbləri dəqiq təsəvvürə gətirmək vacibdir. O, normalar ilə faktların arasındakı nisbətin yaxud əlamətin asimmetrik olduğunu göstərirdi və qeyd edirdi ki, biz bəzi normativ ehtimalı qəbul etmək qərarına gəlməklə müvafiq normanı yaradırıq, halbuki bəzi təklifi qəbul etmək qərarına gəlməklə müvafiq faktı yaratmırıq. Normaların və faktların asimmetrikliyi həm də onda təzahür edir ki, normalar həmişə faktlara aid edilir, faktlar isə normalara əsasən qiymətləndirilir [1, səh. 399].

K.Popper faktların və normaların nəinki təkcə asimmetrik, eləcə də onların oxşar olmasını göstərirdi. Faktların və normaların oxşarlığını K.Popper onda görürdü ki, “… biz onlar barəsində diskussiya apara bilərik, onları tənqid edə və onlara aid bəzi qərarları qəbul edə bilərik. İkincisi, həm onlara, həm də digərlərinə bəzi requlyativ ideyalar aid edilir” [1, səh. 400]. Onun fikrincə, faktlara rəğmən ideya mülahizə yaxud hökm ilə fakt arasındakı uyğunluqdur, yəni həqiqətin ideyasıdır, normalara, yaxud normativ ehtimallara rəğmən isə ideyanı müxtəlif üsullarla təsvir etmək və müxtəlif adlarla, məsələn, “ədalətlilik”, yaxud “xeyirxahlıq” adları ilə adlandırmaq olar [1, səh. 400-401]. Başqa sözlə, K.Popperə görə, faktları – həqiqət, normaları isə ədalətlilik rəmzləri, ideyaları kimi qəbul etmək olar. Bu fikri uçot sisteminə tətbiq etsək belə bir mühakimə alınar: faktların, informasiyanın yalnız həqiqi olmaq nöqteyi-nəzərindən qiymətləndirilməsi, standartların (normaların) və metodların isə yalnız ədalətlilik nöqteyi-nəzərindən qiymətləndirilməsi mümkündür.

P.Feyerabend normativ və pozitiv yanaşmanı zəka və təcrübənin qarşılıqlı əlaqəsi kontekstində araşdırır. Zəkanın, yaxud praktikanın üstün olması barədə yanaşmaları tənqid edən P.Feyerabend zəkanın avtoritetini praktikadan və ənənələrdən üstün olduğunu təsdiq edənləri idealist, zəkanın öz məzmununu və avtoritetini praktikadan aldığını təsdiq edənləri isə naturalist kimi görürdü [2, səh. 488-489]. İdealist variantı o, ona görə tənqid edirdi ki, bu variant praktikanın yalnız zəka tərəfindən formalaşdırıldığını və zəkanın tələblərinə uyğunlaşdırıldığını qəbul edirdi. P.Feyerabendə görə, idealist variant rasional hərəkətin nəticələrə gətirib çıxaracağını gözləsə də, bu baş vermirdi, bu da əslində rasionallıq ilə gözləntilər arasında konfliktə gətirib çıxarır və son nəticədə rasionallıq qanunlarının daim yenidən qurulmasını şərtləndirən səbəblərdən biri olurdu. P.Feyerabendin fikrinə görə, naturalizmin çatışmazlığı onda idi ki, naturalizm yayılmış və uğurlu praktikanın yalan əsasda meydana çıxacağını və avtoritet qazana biləcəyini görmür, ya da bunu qəbul etmir. P.Feyerabend yazırdı: “Əgər standartlar praktikaya əsaslanırsa, praktika isə öz-özlüyündə təmsil olunursa, onda bu cür vəziyyət həmin praktikanın qüsurlarını əbədiləşdirməyə gətirib çıxarar” [2, səh. 489-490]. Zəkanın və praktikanın qarşılıqlı əlaqəsini və asılılığını araşdırmaqla P.Feyerabend son nəticədə bu qənaətə gəlir ki, onlar müxtəlif növlərə mənsub olan ayrı-ayrı mahiyyətlər deyil, “… vahid dialektik prosesin tərəfləridir” [2,səh. 490].

Beləliklə, qısa araşdırmalar göstərir ki, müxtəlif anlayış və terminlərlə ifadə olunan normativ və pozitiv yanaşmalara dair fəlsəfədə müxtəlif mövqelər mövcuddur. Onların bəziləri iddia edir ki, həmin yanaşmalar öz formaları etibarı ilə fərqlənir və bir-birinə ziddir, digərləri həmin yanaşmalar arasında fərqlərin mövcudluğu ilə yanaşı onların vahid metodologiyanın müxtəlif tərəfləri olduğunu göstərirlər.

İqtisad elmlərinin nəzəri bazası sayılan iqtisadi nəzəriyyədə pozitiv və normativ metodoloji yanaşmalara olan münasibətlər də birmənalı deyildir.

P.A.Samuelson və V.D.Nordhaus pozitiv iqtisadi nəzəriyyəni iqtisadiyyat faktlarını təfsir edən nəzəriyyə, normativ iqtisadi nəzəriyyəni isə iqtisadiyyatda ədaləti, etik qaydaları və mühüm mülahizələri əks etdirən təsbitedici nəzəriyyə kimi xarakterizə edirlər. Onların fikrincə, pozitiv iqtisadi nəzəriyyə – nə, necə və kim üçün olan faktlar və onların davranışını təfsir edir. Onlar göstərirlər ki, həmin nəzəriyyə nəyə görə belədir sualına cavab verir. Həmin suallara cavab vermək çətin olsa da, müəlliflərin fikrincə, onları təhlilin və empirik sübutların köməyilə həll etmək mümkündür [4, səh.50].

P.A.Samuelson və V.D.Nordhaus normativ iqtisadi nəzəriyyəyə iqtisadiyyatın nə, necə və kim üçün sualları haqqında etik qaydaların və vacib olan mülahizələrin daxil olduğunu qeyd edirlər. Bu yanaşmanı illustrasiya etmək üçün onlar bəzi misallar, o cümlədən ABŞ-ın Yaponiya ilə xarici ticarət balansındakı defisiti misal gətirir və sual verirlər – ABŞ Yaponiyadan idxalı məhdudlaşdırmalıdırmı? Onlar bu və digər oxşar suallara düzgün və qeyri-düzgün cavabların olmadığını vurğulayır və həmin cavabların faktlarla deyil, daha çox etika və dəyərlərlə bağlı olduğunu göstərirlər. Müəlliflərin fikrincə, burada yalnız iqtisadi təhlilə arxalanmaq olmaz və bu suallara yalnız siyasi debatların və qərarların köməyi sayəsində cavab vermək mümkündür [4, səh. 51].

Pozitiv nəzəriyyəyə/metodologiyaya rəğmən fəlsəfədə «vardır» və sinonim kimi «faktlar» termini və digər oxşar terminlər işlədildiyi halda P.A.Samuelson və V.D.Nordhaus "faktlar" terminınə "nəyə görə belədir" terminini (sualını) da əlavə etmişlər, başqa sözlə, onlara görə, pozitiv iqtisadi nəzəriyyə informasiya/bilik sistemi üzərində qurulmalıdır. Ancaq nəzərə almaq lazımdır ki, əgər "vardır", "faktlar" və s. sırf təfsiredici xarakter daşıyırsa, "nəyə görə belədir" termini (sualı) təfsiredici deyil, bəlkə də daha çox təsbitedici xarakter daşıyır, ya da təfsirdən təsbitediciyə keçid xarakteri daşıyır. Zira, biz bilirik ki, hər hansı bir suala, o cümlədən "nəyə görə belədir" sualına cavab təhlilçinin subyektiv mülahizəsinə, dünyagörüşünə, etik düşüncəsinə əsasən verilə və bu halda faktların təfsirində qeyri-obyektlivliyə yol verilə bilər. Digər tərəfdən, faktlara rəğmən "nəyə görə belədir" sualının qoyulması "belə olmalıdır" cavabını şərtləndirir, bu isə pozitiv deyil, normativ yanaşmadır. Təbiidir ki, normativ yanaşma pozitiv yanaşmadan da yarana bilər, ancaq bu, pozitiv yanaşmanın elementi deyil, normativ yanaşmanın elementi kimi qəbul oluna bilər. Bu müddəanı elə P.A.Samuelsonun və V.D.Nordhausun qoyduğu "ABŞ Yaponiyadan idxalı məhdudlaşdırmalıdırmı" sualı da təsdiq edir. Aydındır ki, sualın özü normativ iqtisadi nəzəriyyəyə aid olsa da, o öz başlanğıcını faktlardan, yəni pozitiv iqtisadi nəzəriyyədən götürür və buna görə də həmin sual bilavasitə pozitiv yanaşmanın deyil, normativ yanaşmanın elementi kimi qəbul edilir. Həmin müəlliflərin normativ iqtisadi nəzəriyyənin yalnız siyasi debatlar və qərarlar əsasında qurula biləcəyini də birmənalı qəbul etmək olmaz. Aydındır ki, iqtisadi qərarların qəbulunda siyasi məqsədlərin durduğunu heç kim inkar etmir, ancaq siyasi qərarların da məqsədinin daha çox iqtisadi vəziyyətin dəyişdirilməsi zəruriliyindən yarandığını sübut etməyə də ehtiyac yoxdur.

Q.P.Juravlyova, N.A.Pozdnyakov və Y.A.Pozdnyakov pozitiv və normativ yanaşmalara münasibətdə, əsasən, P. A.Samuelson və V.D.Nordhausun mövqeyindən çıxış etsələr də, onları tamamilə təkrar etmirlər. Onların belə bir fikri ilə tam razılaşmaq olar ki, normativ təsdiqetmə daha çox pozitiv təsdiqetmədən meydana çıxır və obyektiv faktlar onun həqiqiliyini, yaxud yalan olduğunu sübut edə bilməz [5, səh. 26].

N.Menkyu normativ və pozitiv yanaşmalara iki fəlsəfi cümlə ilə tərif verir: "Normativ təsdiqetmələr (normativ statements) – dünyanın mövcud quruluşunun dəyişilməsinə yönəldilmiş müddəalardır"; "Pozitiv təsdiqetmələr (pozitiv statements) – dünyanı necə var elə təfsir etməyə yönəldilmiş müddəalardır" [6, səh. 664]. N.Menkyunun həmin tərifləri müvafiq olaraq «olmalıdır» və «vardır» simvolları (terminləri) üzərində qurulmuşdur.

İqtisadi nəzəriyyədə pozitiv və normativ yanaşmaların ən böyük tədqiqatçılarından biri Mark Blauq hesab oluna bilər. O, özünün "The Methodology of Economics" adlı kitabında bu məsələyə ayrıca– "Pozitiv və normativ iqtisadi nəzəriyyə arasındakı fərq" adlı fəsil həsr etmişdir [7, səh. 190-222]. M.Blauq pozitiv və normativ iqtisadi nəzəriyyələrin fərqləndirilməsinin 150 ildən artıq tarixə malik olduğunu və bunun Nassay Seniorun və C. S. Millin işlərindən başlandığını göstərir. Kitabına müqəddimədə o qeyd edir ki, metodologiya eyni zamanda təfsiridir ("iqtisadçıların çoxu bax bunu edir") və təsbitedicidir ("öz elmini irəli aparmaq üçün iqtisadçılar bunu etməlidirlər") [7, səh. 18]. M.Blauq normativ və pozitiv yanaşmalara dair Bencamin Uordun mövqeyini göstərir. Sonuncuya görə, iqtisadi nəzəriyyə özlüyündə siyasi tövsiyyələr verməyə səmtlənmiş normativ elmdir. İqtisadi nəzəriyyənin pozitiv elm olmasına gəldikdə isə, B.Uorda görə, nəzəriyyəni faktlarla müqayisə etmək istəyi bu fənnin xarakterik əlaməti olmayıb [7, səh. 358].

M.Blauq özünün normativ və pozitiv metodologiyalara münasibətini belə izah edir: "Mən heç də onu demirəm ki, nə olmalıdır haqqında olan təsdiqetmələr məntiqi surətdə nə vardır təsdiqetmələrinə ekvivalentdir, onu deyirəm ki, koqnitiv proses kimi sonuncunu qəbul etmək yaxud

ondan imtina etmək birincini qəbul etmək yaxud imtina etməkdən çox da fərqlənmir. Mənim fikrim belədir: vardır barədə elə empirik təfsiri təsdiqetmələr yoxdur ki, onlar həqiqi hesab olunsun, ancaq həmin təsdiqetmələri biz qəbul "etməliyik"ə münasibətdə müəyyən sosial konsensusa arxalanmasın" [7, səh. 193].

Əgər biz M.Blauqu səhv başa düşmürüksə, onda onun dediklərindən aşağıdakı nəticələr çıxara bilərik:

- "olmalıdır" təsdiqetmələri məntiqi olaraq "vardır" təsdiqetmələrinə bərabər tutulmamalıdır, yəni normativ metodologiya pozitiv metodologiyaya ekvivalent deyildir;
- "vardır" təsdiqetmələrinin qəbul edilməsi yaxud inkar olunması "olmalıdır" təsdiqetmələrinin qəbul edilməsi yaxud inkar olunmasından çox da fərqlənmir, yəni onlar arasında oxşarlıq vardır;
- "vardır" barədə empirik təfsiri təsdiqetmələr də, "olmalıdır" yaxud da "etməliyik" təsdiqetmələri kimi müəyyən sosial konsensusa arxalanır.

Sonuncu bəndin daha aydın başa düşülməsi üçün uçot sahəsindən misal gətirmək olar: "müəssisənin maliyyə vəziyyəti, hesabatda göstərilən faktlar yaxud informasiya əsasında müəyyən olunmuşdur". Deməli, hesabatda informasiya necə vardırsa, maliyyə vəziyyəti də elə vardır. Ancaq maliyyə vəziyyətinin olduğu kimi müəyyən olunması müəyyən konsensusa əsaslanır, yəni hamı tərəfindən razılaşdırılmışdır, ya da hamı razı olmuşdur ki, maliyyə vəziyyəti, hesablama ilə uçot metodu (prinsipi) əsasında müəyyən və təhlil olunsun.

Normativ və pozitiv metodologiyalar araşdırılarkən bir çox mənbələrdə dəyərli yaxud qiymətli mülahizələrin metodoloji yanaşmalarda rolu və əhəmiyyəti geniş müzakirə edilir. Gedən müzakirə və mübahisələrin məqsədi onu müəyyən etməkdən ibarətdir ki, dəyərli mülahizələr, elmlərə, o cümlədən iqtisadi nəzəriyyə elminə, daha doğrusu, onların metodologiyasına təsir edirmi, əgər təsir edirsə, onda bu təsir necədir, ya da bəlkə bu elmlərin metodologiyası bütünlüklə həmin qiymətli mülahizələrdən azaddır? Bu sahədə M.Blauqun da dəyərli yanaşmalara münasibətini bilmək maraqlı olardı. M.Blauq iqtisadi nəzəriyyənin metodologiyasının dəyərli mülahizələrdən azad ola bilməməsi, ya da heç azad olmamasını təsdiqləyən R.L.Heilbronerə, G.Myrdala və başqalarına qarşı çıxır [7, səh. 198-203]. O, xüsusilə G.Myrdalı ona görə kəskin tənqid edir ki, sonuncu iqtisadi nəzəriyyədə ümumiyyətlə hər hansı etik cəhətdən neytral, faktoloji təsdiqetmələrin olduğunu və pozitiv iqtisadi nəzəriyyənin normativ iqtisadi nəzəriyyədən fərqləndirilməsinin mümkün olduğunu qəbul etmirdi. M.Blauq Pareto – optimallığını ikili interpretasiya edənləri, yəni bir tərəfdən onun dəyərli mülahizələrdən azad olmasını və buna görə də pozitiv iqtisadi nəzəriyyə olduğunu, eyni zamanda onun dəyərli mülahizələrlə qidalandığını və buna görə də normativ iqtisadi nəzəriyyə olduğunu təsdiq edənləri də tənqid edir. Onun özü Pareto – optimallığını normativ iqtisadi nəzəriyyəyə aid edir. Bütövlükdə M.Blauq iqtisadi nəzəriyyədə normativ metodologiyanın tətbiqinə tərəfdar çıxır və onun qurulmasında dəyərli mülahizələrin də yer ala biləcəyini inkar etmir. M.Blauqun iqtisadi nəzəriyyəyə, onun metodologiyasına dair baxışları, həmçinin də normativ və pozitiv metodologiyalara münasibəti bütövlükdə K.Popperin əsaslandırdığı fəlsəfə, yəni rasional diskussiya və tənqid üzərində qurulmuşdur. Ancaq bir şey diqqəti cəlb edir ki, M.Blauq bir çox hallarda, məsələn, normativ və pozitiv yanaşmaları tənqid etdikdə, özünün qəti mövqeyini ortaya aydın şəkildə qoymur. Belə ki, o, daha çox normativistdir, ancaq həm də müəyyən dərəcədə pozitivistdir, o, metodologiyanın yalnız dəyərli mülahizələrdən qidalandığı haqda baxışları rədd edir, ancaq bu dəyərli mülahizələrin metodologiyanın qurulmasında müəyyən rol oynadığını da inkar etmir. Beləliklə, M.Blauq nəzərdən keçirilən məsələlər üzrə monizmə və dualizmə yol verir.

İqtisadi nəzəriyyəçilər arasında Cj.M.Keynisin pozitiv və normativ yanaşmalara verdiyi tərif, zənnimizcə, daha asan başa düşüləndir. Cj.M.Keyns həmin yanaşmaları belə formulə edir: "Pozitiv elm - vardır-a aid olan sistematik biliklərin məcmusu kimi müəyyən edilə bilər. Normativ elm- olmalıdır-a aid olan sistematik biliklərin məcmusudur və buna görə də özünün nəsə mövcud olandan fərqli ideal predmetinə malikdir"[1] [5, səh. 26].

---

[1] C.M.Keynisin bu sözləri Q.P Juravlyova., Q.P. Pozdnyakov və Y.A.Pozdnyakovun "Экономическая теория. Микроэкономика" adlı dərsliyindən götürülmüşdür.

Təəssüflə qeyd edək ki, iqtisadi nəzəriyyəyə dair ölkəmizdə dərc edilmiş ədəbiyyatlarda pozitiv və normativ yanaşmalara dair hər hansı geniş araşdırmalara rast gəlmirik. Q.S.Əlləzov «İqtisad elminin nəzəri-metodoloji əsaslarının tarixi inkişafı» adlı monoqrafiyasında iqtisadi nəzəriyyədə mövcud olan metodoloji yanaşmaların qısa xülasəsini verir, normativ və pozitiv metodologiyalara yanaşmaların mümkün tətbiqi sferalarını göstərir: "Normativ təhlildən iqtisadi siyasətin seçilməsində istifadə edilir. Pozitiv təhlil makroiqtisadiyyatda mərkəzi yer tutur" [8, səh. 21]. Ancaq məlumdur ki, iqtisadi siyasət həm makroiqtisadiyyata, həm də mikroiqtisadiyyata rəğmən formalaşdırılır, ona görə də həm normativ, həm də pozitiv yanaşma hər iki sferaya aid edilə bilər. Zənnimizcə, Q.S.Əlləzovun belə bir fikri də mübahisəlidir ki, normativ metodologiya deduktiv metoda, pozitiv metodologiya isə induktiv metoda əsaslanır [8, səh. 21]. Nəzərə alnsa ki, induksiya və deduksiya xüsusinin və ümuminin qarşılıqlı əlaqəsi kimi təzahür edir, onda xüsusi mühakimələrin də biliyin, metodologiyanın, o cümlədən normativ metodologiyanın əsasını təşkil etdiyini deyə bilərik. Həm induktiv, həm də deduktiv dərketmə yaxud təfəkkür metodları elmi-məntiqi metodlara aiddir. Onların hər biri istər normativ, istərsə də pozitiv yanaşma faktlarını yaxud praktikanı qəbul edirsə, bu o demək deyildir ki, həmin faktlardan yaxud praktikadan ümumiləşdirilmiş elmi bilik, ya da normativ metodologiya yarana bilməz. Məsələn, əgər praktika göstərir və sübut edirsə ki, inflyasiyanın sürətlə yüksəlməsinin qarşısını almaq üçün işsizliyin artmasına yol vermək olar, onda bunun əsasında normativ yanaşma da meydana çıxa bilər: inflyasiyanı azaltmaq üçün işsizliyi müəyyən qədər artırmaq lazımdır. Yaxud başqa bir misal, ölkədə idxalın artması valyuta resurslarının azalmasına səbəb olur. Bunu empirik faktlarla sübut etmək olar, bu da pozitiv yanaşmanın vasitəsilə mümkündür. Pozitiv yanaşma nəticəsində fakt təsdiq olunursa, deməli, idxalı azaltmaq üçün ölkədə müvafiq məhsulların istehsalını təşkil etmək və/və ya mövcud istehsalı genişləndirmək lazımdır, bu yanaşma normativ yanaşmadır. Bu cür yanaşmanın əsasında faktlar, praktika durur. Ancaq hansı məhsulların istehsalını daha çox artırmağın, hansı məhsulların idxalını isə daha çox azaltmağın pis, ya da yaxşı olduğunu sübut etmək asan məsələ deyildir. Əgər idxalda silah mühüm yer tutursa, onda bu ölkə üçün qəbul olunandır, yaxşıdır, əgər idxalda kərə yağının payı çoxdursa, onda buna birmənalı şəkildə yaxşıdır, ya da pisdir demək olmaz. Ölkə nə birinci, nə də ikinci məhsula olan tələbatı hələlik daxili imkanlar hesabına ödəyə bilmir və buna görə də hansı məhsulun daxildə istehsalına, ya da xaricdən hansı məhsulun idxal olunmasına fakt kimi, yəni pozitiv yanaşmaq olmaz, burada özündə ədaləti, ənənələri, mövcud şəraiti ehtiva edən normativ yanaşmaya əsaslanmaq lazımdır. Beləliklə, normativ yanaşmanın deduktiv əsasda, pozitiv yanaşmanın isə induktiv əsasda yarandığını demək normativ yanaşmada induksiyanın, pozitiv yanaşmada isə deduksiyanın rolunu inkar etmək anlamına gəlmiş olardı. Q.S.Əlləzovun o fikri ilə tamamilə razılaşmaq olar ki, tətbiqolunma məqsədlərindən asılı olaraq hər bir nəzəriyyə "normativ" və "pozitiv" ola bilər [8, səh. 21].

Uçot üzrə ədəbiyyatlarla tanışlıq göstərir ki, pozitiv və normativ metodologiyalara dair yazılar ölkəmizdə və digər postsovet ölkələrində, demək olar ki, yox dərəcəsindədir. Qərbin uçot sistemində pozitiv və normativ metodologiyaya rəğmən mövcud olan yanaşmalar, mövqelər öz başlanğıcını tamamilə müvafiq fəlsəfi təlimlərdən və iqtisadi nəzəriyyədən götürmüşdür. Burada da pozitiv və normativ yanaşmaların ya eyni, ya da tamamilə bir-birinə əks olan yaxud da müxtəlif, ancaq həm də bir-biri ilə dialektik əlaqədə olan təsdiqetmələr olduğunu sübut etməyə çalışan cərəyanlar və qruplar vardır. Bununla yanaşı, onu qeyd etmək yerinə düşərdi ki, fəlsəfədə, iqtisadi nəzəriyyədə olduğu kimi, uçot elmində də pozitiv və normativ metodologiyaların formalaşmasına təsir edən amillər, o cümlədən dəyərli mülahizələrin təsiri geniş müzakirə və mübahisə predmetidir [9, səh. 21-25, 129-152; 10, səh. 113-141; 85, səh. 148-150; 89, səh. 97-135; 77; 90, səh. 131-156]. Göstərilən mənbələrdə normativ və pozitiv metodologiyaların aydınlaşdırılması üçün təbiət elmlərindən, iqtisadi nəzəriyyədən sitatlar gətirilir və onlara istinad edilir.

M.R.Metyusun və M.H.B.Pereranın araşdırmalarına görə, normativ nəzəriyyənin tərəfdarlarına Edwardsı və Belli, Amerika mühasiblər assosiasiyasını, Çambersi, pozitiv nəzəriyyənin tərəfdarlarına isə Qredini, İjiri, Wattsı və Zimmermanı aid etmək olar [10, səh. 106]. Ancaq vurğulamaq lazımdır ki, normativ nəzəriyyələrin tərəfdarları heç də pozitiv nəzəriyyənin olmasını, yaxud da pozitiv nəzəriyyələrin tərəfdarları isə normativ nəzəriyyələrin mövcudluğunu büsbütün inkar etmirlər. Məsələn, normativ nəzəriyyənin tərəfdarı olan R.J.Çambers qeyd edirdi ki, elmi bilik eyni vaxtda həm pozitiv, həm də normativdir: əgər doğrudursa ki, qazlar və mayelər istiliyin artmasından və təzyiqin

azalmasından genişlənir, onda o da doğrudur ki, hər kəs qazların və mayelərin genişləndirilməsinə nail olmaq üçün istiliyi artırmalı, yaxud təzyiqi azaltmalıdır [10, səh. 114]. O, birinci təsdiqetməni pozitiv, ikincini isə normativ adlandırır. Maraqlıdır ki, uçot alimləri tərəfindən pozitiv və normativ metodologiyaların izahı zamanı daha çox təbiət elmlərindən yaxud da fəlsəfi və məntiqi elmlərdən misal gətirilir. Belə analogiyaların gətirilməsi, əslində pozitiv və normativ metodologiyaları bir-birindən ayırmağın çətinliyi və onların mahiyyətinin çətin dərk edilməsi ilə bağlıdır və buna görə təbiət elmlərindən, fəlsəfi-məntiqi elmlərdən misallar gətirmək həqiqətən də zəruridir və problemin dərk edilməsini asanlaşdırır.

M.R.Metyus və M.H.B.Perera normativ və pozitiv nəzəriyyələri belə izah edirlər: "Normativ nəzəriyyə yəqin ki, nəyinsə olmalı olduğunu izah edir, nəinki mövcud olanı. Məsələn, mühasibat hesabatı məlumatlarını aktivlərin qiymətləndirilməsinin müəyyən üsullarına görə əsaslandırmaq lazımdır – barəsində olan təsdiqetmə onu göstərir ki, sistem normativdir. Təfsiredici nəzəriyyələr, əksinə, faktiki mövcud olan əlaqələri aşkar etməyə cəhd edirlər" [10, səh. 107].

Uçotun məqsədi və eyni zamanda həmin məqsədə çatmağın vasitəsi olan metodologiya mikroiqtisadiyyatda iqtisadi faydanın, sosial-ekoloji nəticələrə necə təsir etdiyi barədə informasiya formalaşdırmaq deyil, kapitalın saxlanılmasına necə təsir etdiyi barədə mülkiyyətçini məlumatlandırmaqdır. Bu, əslində normativ yanaşmadır və deməli, normativ metodologiyadır. Normativ yanaşmanın bu istiqaməti özünü maliyyə hesabatı formalarının məzmunu, tərkibi və strukturunun təkamülündə də göstərir. Belə ki, əgər əvvəllər əsas hesabat forması mühasibat balansı, sonra mənfəət və zərərlər haqqında hesabat hesab olunurdusa, son dövrlərdə əsas hesabat forması kimi pul vəsaitlərinin hərəkəti haqqında hesabat forması çıxış edir. Sonuncu hesabat formasının yaradılması elə metodologiya əsasında qurulmuşdur ki, onun vasitəsilə şirkətlərin xalis pul daxilolmalarını müəyyən etmək olur, bu da kənar istifadəçilərin şirkətlərə investisiya qoymaları, digər müəssisə və təşkilatların həmin şirkətlərlə işgüzar əlaqələr yaratmasına imkan verir. Gələcək pul vəsaitlərinin cari dəyərinin müəyyən edilməsi, yəni diskontlaşdırmanın tətbiqi də həmin məqsədə xidmət edir. Deyilənlər bu istiqamətdə metodologiyanın açıq-aşkar normativ xarakter daşıdığını sübut edir.

Əgər metodologiya kapitalın saxlanılmasına və daha da artırılmasına xidmət edirsə, onda həmin metodologiyanın normativ (təsbitedici) olması heç bir mübahisə doğura bilməz. Bu cür yanaşmanın standartları işləyib hazırlayan təşkilatlar tərəfindən təsbit edilməsi göstərir ki, normativ yanaşma metodologiyası bilərəkdən formalaşdırılır. Bunun həqiqətən belə olduğuna amerika alimləri E.S.Hedriksenin və M.F.Van Bredanın kitabından bir parçanı göstərməklə də inanmaq olar: «Müstəqil təsərrüfatçılıq vahidi (entity) nöqteyi-nəzərindən FASB üçün daha üstün olan yanaşma nəzərdə tutur ki, firma nəinki təkcə öz mənfəətini maksimallaşdırmağa cəhd edir, həm də bunu etməyə borcludur. Sonuncu vəziyyət üçün əsas – bazar iqtisadiyyatının etik baxımdan arzu olunan nəticəyə cəhd etməsidir» [9, səh. 17].

Adlarını çəkdiyimiz və digər müəlliflər göstərirlər ki, uçotun nəzəriyyəsinin məqsədi – izah etməkdir, yəni nəzəriyyə daha çox pozitiv xarakter daşıyır. Onda sual yaranır – biz metodologiyanın daha çox normativ xarakter daşıdığını necə izah edək? Əgər nəzəriyyə pozitivdirsə, yəni təfsiredicidirsə, onda metodologiya da təfsiredici olmalıdır, halbuki Maliyyə Hesabatlarının Beynəlxalq Standartları Şurasının (MHBSŞ) 2018 ci ildə təsdiq etmiş olduğu maliyyə uçotu və hesabatının nəzəri-metodoloji bazası sayılan "Maliyyə hesabatlarının təqdim edilməsinin Konseptual əsasları"nda (bundan sonra- Konseptual əsaslar) aktivlərə və digər elementlərə verdiyi təriflər, onların tanınması üçün müəyyən etdiyi kriteriyalar daha çox təsbitedici xarakter daşıyır, yəni normativ yanaşma əsasında formalaşmışlar. Düzdür, elementlərə verilən təriflərdə izahedici məqamlar da öz əksini tapmamış deyildir, ancaq həmin təriflərə əlavə kimi, ya da həmin təriflərin öz mahiyyətindən irəli gələn ciddi tanınma kriteriyaları müəyyən edilmişsə və maliyyə uçotu aparan, maliyyə hesabatı tərtib edən bütün firmalar, şirkətlər və müəssisələr həmin təriflərin, kriteriyaların semantikasına və praqmatikasına əməl etməyə borcludurlarsa, onda tam əminliklə təsdiq etmək olar ki, təriflər və onlara uyğun formulə edilmiş kriteriyalar normativ (təsbitedici) yanaşmanın, ya da "olmalıdır" təsdiqetməsinin mahiyyətinə tamamilə uyğun gəlir. Təsbit edilmiş kriteriyalar elementlərə verilmiş təriflərdəki çətinliklə sezilən təfsiredici məqamları da aradan qaldıraraq onları normativ simvollara, anlayışlara çevirir, uçotun bu cür nəzəriyyəsinin bazasında qurulmuş metodologiya isə təriflərin, kriteriyaların informasiyaya

çevrilməsinə xidmət edir. Məsələn, aktivin tərifi və tanınma şərtlərinin semantikası elə konstruksiya edilib ki, iqtisadi faydanın əldə olunmasına, təmin edilməsinə, kapitalın saxlanılması və artırılmasına gətirib çıxarmayacaq hər hansı obyekt aktiv kimi qəbul oluna bilməz. Aktivlərə və digər elementlərə verilən təriflərin real kəmiyyətlərə çevrilməsində kriteriyalar süzgəc rolunu oynayır, yəni nəyi onların tərkibinə daxil etmək olar, nəyi isə daxil etmək olmaz. Eyni zamanda, təriflərin özləri başlıca kriteriya rolunu oynayırlar. Bu yanaşma bilavasitə Konseptual əsaslar 2018-də belə təsdiq edilir: "Maliyyə vəziyyəti haqqında hesabatda yalnız aktivin, öhdəliyin və yaxud xüsusi kapitalın tərifinə cavab verən maddələr tanınır" [11, səh. 36].

Maliyyə hesabatında aktivin ilkin və sonrakı tanınması zamanı hansı qiymətləndirmə metodu yaxud metodlarının tətbiq edilməli olduğunun təsbiti də normativ yanaşmanın bariz nümunəsidir. Normativ yanaşmaya üstünlük vermək əslində o deməkdir ki, uçotun metodologiyası, əsasən, riyazi məntiq üzərində, yəni a priori əsasda qurulmalıdır. A priori kimi A=K+Ö və ikili yazılışı göstərmək olar. Bu cür metodologiyanın a priori olması o deməkdir ki, onun empirik yoxlamaya ehtiyacı yoxdur, çünki, məsələn, kimsə 2×2=4 tənliyini yoxlamaq barədə heç düşünə də bilməz. Başqa sözlə, ikili yazılışa əsaslanan A=K+Ö-nin a priori deyil, aposterior mühakimə olmasını, yəni faktlarla təsdiq edilməli olduğunu sübut etməyə ehtiyac yoxdur. Lakin əgər desək ki, gəlir çıxılsın xərclər mənfəətə bərabər olmalıdır, onda mühakimə a priori ola bilməz, çünki faktlar bunu sübut etməyə də bilər, yəni ola bilsin xərclər gəlirlərə bərabər olsun və/və ya gəlirlərdən artıq olsun. Beləliklə, gəlirlər – xərclər = mənfəət olmalıdır tezisi metodologiyanın ilkin olaraq təsbitedici (normativ) formada olduğunu göstərirsə, gəlirlər – xərclər = nəticə yoxdur, ya da zərərdir tezisi artıq təsbitedici (normativ) deyil, təfsiredici (pozitiv) yanaşmadır. Başqa sözlə, ilkin olaraq a priori kimi qəbul olunan mühakimə, yəni normativ yanaşma empirik yoxlama nəticəsində aposterior mülahizəyə, yəni pozitiv yanaşmaya çevrildi. Nəzərdən keçirilən məsələnin digər tərəfinə də diqqət yetirmək lazımdır. Gəlirlər 2000 manat, xərclər 1500 manat, mənfəət 500 manat olmuşdur təfsirinin düzgünlüyünü, yaxud həqiqiliyini də faktlarla yoxlamaq lazımdır. Bu faktların həqiqi olmasını, ya da qeyri-həqiqi olmasını iki cür sübut etmək vacibdir. Birincisi, mənfəəti hesablayan mühasiblərin etik davranışı baxımından, ikincisi, mənfəətin hesablanması metodologiyası baxımından. Mühasiblər (menecerlər) şirkətin mənfəətini bilərəkdən artıra, ya da azalda bilmək imkanına malikdir, əgər bu cür hallara yol verilmişsə, onda faktların həqiqət olduğunu demək olmaz, baxmayaraq ki, mənfəətin hesablanmasının təsbit edilmiş metodologiyasını ədalətli hesab etmək olar. Ancaq əgər mühasiblər (menecenrlər) etik normalara tam əməl etmişlərsə və faktların həqiqi olub-olmaması tətbiq olunan metodologiyanın çatışmazlığı nəticəsində baş vermişsə, onda bu cür metodologiyanın ilk baxışda ədalətli, ya da ədalətsiz olduğunu, pis, ya da yaxşı olduğunu demək çətindir. Ancaq bundan asılı olmayaraq bir şeyi inamla demək olar ki, faktın özü, onun kəmiyyəti normativ xarakter daşıyan metodologiyanın məhsuludur. Burada bir neçə mühakimə yürütmək olar: metodologiya hansısa qrupların dəyərli mülahizələri nəzərə alınmaqla qurulmuş və eynilə onların mənafeyinə xidmət edir; metodologiya daha çox cəmiyyətin maraqları nəzərə alınmaqla qurulmuşdur; metodologiya həm qrup, həm də cəmiyyət maraqlarının qarşılıqlı nəzərə alınması konsepsiyası üzərində qurulmuşdur. Beləliklə, demək olar ki, metodoloji yanaşma necədirsə, faktlar da ona uyğun olacaqdır. Bunu aşağıdakı atalar sözləri ilə daha yaxşı başa düşmək olar: «Nə tökərsən aşına, o da çıxar qaşığına».

Faktın dürüst, obyektiv, yaxud qərəzsiz olub-olmamasını müəyyənləşdirmək üçün onun yaranmasına gətirib çıxaran metodologiyanın özünün yoxlanılması zəruriliyi meydana çıxır. Bu cür yoxlamanı həm elmi-məntiqi şəkildə, həm də empirik yolla həyata keçirmək lazımdır. Aktivlərin uçotu metodologiyası baxımından elmi-məntiqi və empirik baxımdan yoxlamalar əsasən onların dəyərinin və onların istifadəsindən yaranan nəticələrin qiymətləndirilməsi məsələlərini əhatə etməlidir.

Qeyd olunduğu kimi, A=K+Ö tənliyi a priori - dir (faktdan əvvəldir), yəni ilk baxışda normativ yanaşmanı əks etdirir və deduktiv əsasda yaranmışdır. Ancaq biz həmin tənliyin daxilinə nüfuz edəndə, orada olan faktiki informasiyanı nəzərdən keçirdikdə müəyyən edə bilərik ki, bu tənliyin məzmunu günəşin üzü kimi təmiz deyildir, yaxud həqiqi deyildir. Burada günəşin üzünü örtən qara buludlar kimi dürüst olmayan, şübhəli, qərəzsizlikdən və tərəfsizlikdən uzaq olan kəmiyyətlər də görmək və aşkar etmək mümkündür. Bu mülahizənin doğruluğunu iri şirkətlərin öz mənfəətlərini gizlətməyə çalışmaları və bir çox hallarda buna nail olduqları barədə qərbin kütləvi informasiya vasitələrində öz əksini tapan

faktlar və uçot ədəbiyyatlarında söylənilən fikirlər də sübut edir. Bəzi hallarda şirkətlər nə yolla olursa olsun kapital ilə öhdəliklər arasında nisbəti o həddə saxlamağa çalışırlar ki, bu nisbət kreditorların tələblərinə uyğun gəlsin. Yəni kreditorlar şirkətləri məcbur edir ki, onlar öz balanslarını yüksək ödəmə qabiliyyəti həddini sübut edə biləcək şəkildə saxlasınlar. Təbiidir ki, bir çox şirkətlər kreditorları təmin edə biləcək ödəmə qabiliyyəti həddini, yaxud səviyyəsini əldə etməkdən ötrü metodologiyanın yol verdiyi bütün metodlar və üsullardan, alternativlərdən, hətta onların öz ixtiyarına buraxılmış uçot prosedurlarından, həmçinin metodologiya ilə qadağan olunan qaydalardan istifadə etməyə cəhd göstərirlər. Əslində bu da, a priori olan A=K+Ö balansında qeyri-dəqiq, qeyri-obyektiv, hətta təhrif olunmuş informasiyanın dərc olunması deməkdir. Bunu sadə şəkildə izah etmək də mümkündür. Misal üçün, fərz edək ki, şirkətin balans bərabərliyi belədir: 6000=2500+3500. Bu bərabərliyin daxilinə nüfuz edilməsə belə onun düzgünlüyünü sübut etməyə ehtiyac yoxdur. Əgər tənliyin daxili elementlərində dəyişiklik baş verirsə, məsələn, tənlik 6000=2000–4000 şəklini alırsa, burada da heç bir zahiri ziddiyyət və səhvlik yoxdur. Ancaq əgər kreditorlar bu nisbətdən narahatdırlarsa və heç olmasa onun əvvəlki nisbətdə (6000=2500–3500 səviyyəsində) saxlanılmasını tələb edirlərsə, onda şirkət ya 2500, ya da 3500 kəmiyyətinin daxilində manipulyasiya etməyə cəhd göstərəcəkdir. Məsələn, şirkət ümidsiz debitor borclarının təsnifatını dəyişdirərək onları normal debitor borcları kimi göstərə bilər, yaxud normal kreditor borcunun təsnifatını dəyişdirərək onu vaxtı keçmiş kimi və deməli, mənfəət kimi göstərə bilər. Təsnifatın bu cür, ya da başqa cür dəyişdirilməsi nəticəsində tədiyyə/ödəmə qabiliyyətinin yaxşılaşdırılması şirkət üçün bir o qədər də çətin məsələ olmasa da, bu cür yaxşılaşdırmanın süni, ya da həqiqi olmasını sübut etmək kreditorlar üçün bir o qədər də asan məsələ deyildir. Bu cür manipulyasiyaların olduğunu nə normativ, nə də pozitiv yanaşma əsasında müəyyən etmək mümkün deyil, çünki qanundan olduğu kimi, metodologiyadan da yan keçmək mümkündür. Başqa sözlə, mövcud metodologiyanın köməyilə tam ədalətə və həqiqiliyə çatmaq mümkün deyildir. Görünür, buna faktların yalnız hüquqi-etik baxımdan yoxlanması yolu ilə nail olmaq olar. Əgər nəzərə alsaq ki, şirkətləri onların mülkiyyətçiləri deyil, menecerlər idarə edir, onlar uçotu aparanlarla sıx əlaqədə işləyir və hətta uçot işçilərinin özlərini menecerlər kimi qəbul etmək lazımdır, onda aydın olar ki, uçotun metodologiyasının tətbiqində insan amilinin rolu böyükdür, baxmayaraq ki, həmin metodologiya daha çox normativ xarakter daşıyır. Bu metodologiya təsbitedici olduğu üçün onu təsbit edənlər hansısa qrupun mənafeyini deyil, peşənin mənəvi-əxlaqi kodeksini, etik normalarını nəzərə almalıdırlar. Ancaq normativ metodologiyanın təşəkkül tapması təkcə mühasib-alimlərin «istəyi və arzusu» ilə deyil, həmçinin də cəmiyyətdə mövcud olan iqtisadi, sosial, siyasi baxışların təsiri nəticəsində baş verə bilər. İqtisadi-sosial inkişafa rəğmən mövcud baxışları şərti olaraq iki qrupa bölsək, onlardan birincisinə iqtisadiyyatın azad, liberal əsaslar üzərində, dövlətin minimum müdaxiləsi şəraitində inkişaf etdirilməsini tələb edənləri aid etmək olar. Bəllidir ki, onların ən böyük nümayəndəsi A.Smit olmuşdur. Həmin qrupun iqtisadi baxışları uçotda pozitiv metodologiyanın tətbiqinə daha əlverişli şərait yaradırdı. Məsələ bundadır ki, A.Smit dövlətin iqtisadiyyata, onun inkişafına müdaxiləsinin minimum olmasını tələb edirdi, bu da faktiki o demək idi ki, iqtisadiyyatın, biznesin dili olan uçotun metodologiyasının da ciddi şəkildə reqlamentləşdirilməsinə yol vermək olmazdı. Təsadüfi deyildi ki, İngiltərədə, ABŞ-da və digər ingilis dilli ölkələrdə uçotun nəzəriyyəsi və metodologiyasının normativ (requlyativ) baxımdan formalaşdırılmasına yalnız XX əsrin əvvəllərindən başlanmışdı. Buna təkan verən ən başlıca şərtlərdən biri, 1929-1933-cü illərdə baş vermiş böyük depressiya (iqtisadi böhran) idi. Məhz bu vaxtdan başlayaraq normativ nəzəriyyənin və metodologiyanın qurulması ön plana keçmiş oldu. Baş vermiş iqtisadi böhranın nəticələrindən azad olmaq üçün iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi məsələsi mərkəzi məsələyə çevrilmişdi, bu da ikinci qrupa daxil olan iqtisadçıların, onların ən böyük nümayəndəsi Cj.M.Keynsin mövqeyi nəticəsində mümkün oldu. İqtisadiyyatın dövlət tənzimlənməsi uçotda normativ nəzəriyyənin və metodologiyanın geniş inkişafına təkan verdi. ABŞ-da, İngiltərədə uçotu və hesabatı, uçot-hesabat obyektləri və elementlərinin təsnifatını, qiymətləndirilməsi və yenidən qiymətləndirilməsini, qeydiyyatını (hesablarda əks etdirilməsini) tənzimləyən çoxlu sayda standartlar, əsasnamələr və qaydalar işlənib hazırlandı. Bu proses həmin ölkələrdə keçən əsrin 70-ci illərinə qədər daha intensiv həyata keçirildi. Yaranmış normativ bazanın əsasında Maliyyə Hesabatının Beynəlxalq Standartları Komitəsi (2001-ci ildən Şuraya çevrilmişdir) 41 İAS və 16 İFRS işləyib hazırladı və tətbiq üçün tövsiyə etdi. Standartların məzmunu ilə tanışlıq onu deməyə əsas verir ki, onlarda təsbit edilmiş

metodologiya və onun elementləri daha çox normativ, təsbitedici xarakter daşıyır. Lakin deyilənlər tanınma tələbləri və kriteriyalarının normativ yanaşma bazasında formülə edilməsinin neqativ olduğu kimi başa düşülməməlidir, onların pozitiv tərəflərini də görmək lazımdır.

Ədəbiyyatlarda normativ və pozitiv metodologiyaların formalaşdırılmasında deduktiv və induktiv yanaşmaların rolu və təsiri də diqqət mərkəzində olan məsələlərdəndir. Bəzi alimlər normativ metodologiyanın deduktiv yanaşmaya əsaslandığını qeyd edirlər. Qəbul olunur ki, deduktiv yanaşma, yaxud əsaslandırma analitik elmlərə, məsələn, məntiq elminə, riyaziyyat elminə xasdır. Deduktiv yanaşma, yaxud əsaslandırma aprior, yaxud aksiomatik yanaşmadan yaranır. Başqa sözlə, aprior/aksiomatik yanaşmaya əsaslanan metodologiya empirik xarakter daşımır, yəni onun doğru olmasını, həqiqiliyini sübut etməyə ehtiyac yoxdur. Buna misal kimi, biz A=K+Ö tənliyini göstərmişdik. Sual meydana çıxır A=K+Ö tənliyi deduktiv yanaşma nəticəsində yarandığı üçün onun yoxlanılmasına ehtiyac varmı? Cavab ilkin olaraq birmənalıdır – ehtiyac yoxdur, çünki həmin təsbitetmə sintaksis olaraq aşağıdakı sözlərin özündən irəli gəlir: Aktivlər həmişə Kapital və Öhdəliklərin cəminə bərabərdir. Bu sözlərin yerinə rəqəmlər qoymaqla da bunu təsdiq etmək olar: Kapital =10, Öhdəliklər =20, onda Aktivlər =30 olacaqdır. Həmin bərabərliyin (təsdiqetmənin) normativ, yaxud pozitiv metodologiyaya uyğun gəlməsini müəyyən etməyə çalışsaq, görərik ki, burada müxtəlif fikir ayrılıqları yaranır. Məsələn, E.S.Hendriksen, M.F.Van Breda qeyd edirlər ki, sintaksis nəzəriyyələr həmişə pozitiv, yəni təfsiredici xarakter daşıyır və bunu sübut etmək üçün onlar iki misal gətirirlər: 1) 2(y+3)=2y+6; və 2) əgər gəlir 800 dollar, xərclər isə 300 dollar bərabərdisə, mənfəət 500 dol. təşkil edəcəkdir (36, səh. 22). Gətirdikləri misallardan birincisinin ədalətli və ya doğru olduğunu onlar empirik yoxlama nəticəsində deyil, məntiq, riyazi qaydalar əsasında təsdiq oluna biləcəyini deyirlər. İkinci misala rəğmən isə onların mövqeyi belədir: 800 – 300 ona görə 500-ə bərabər deyil ki, bu müəyyənetmə eksperiment yolu ilə təsdiq olunur, ona görə ki, o, ümumqəbul olunmuş uçot qaydasından irəli gəlir. Beləliklə də, onlar hər iki misalın əsasında nəticə çıxarırlar ki, sintaksis nəzəriyyələr/metodologiyalar yalnız təfsiredici ola bilər, yəni belə çıxır ki, biz deyə bilmərik ki, «aktivlərin yekunu kapital və öhdəliklərin yekunlarına bərabər olmalıdır», biz yalnız belə deyə bilərik – «aktivlərin yekunu kapital və öhdəliklərin yekunlarına bərabərdir». Analogiyanı K.Popperin «üçbucağın üç tərəfi vardır», «üçbucağın üç tərəfi olmalıdır» deyimi ilə davam etdirsək, onda aydın olur ki, E.S.Hendriksen və M.F.Van Breda yalnız «üçbucağın üç tərəfi vardır» tezisini qəbul edirlər, bu da əslində pozitiv yanaşmadır.

E.S.Hendriksen və M.F.Van Bredadan fərqli olaraq, M.R.Metyus və M.H.B. Perera analitik/aprior mühakimələrin və deməli, nəzəriyyələrin/metodologiyaların sintaksis baxımından normativ yaxud təsbitedici nəzəriyyə/metodologiya olduğunu deyirlər (cədvəl 1).

**Cədvəl 1**

**Nəzəriyyələrin aspektləri, onların qurulması və yoxlanılması [10, s. 112]**

| Fərqləndirici əlamətləri | Analitik (aprior) mühakimələr | Sintetik aposterior mühakimələr |
|---|---|---|
| Mənbə | Ehtimallar | Konkret müşahidələr |
| Epistemoloji əsas | Rasionalizm | Empirizm |
| Əsaslandırma | Deduktiv | İnduktiv |
| Elmi tipi | Analitik | Empirik |
| Dil sistemi | Sintaksis | Sintaksis,semantik,praqmtik |
| Nəzəriyyənin tipi | Təsbitedici | Təfsiredici |
| Yoxlanılma | Məntiqi | Məntiqi, empirik |

«Aktivlərin yekunu kapital və öhdəliklərin yekunlarına bərabərdir» mühakiməsini cədvələ rəğmən interpretasiya etsək görərik ki, həmin mühakimə (mülahizə) təsbitedici nəzəriyyə tipinə uyğun gəlir, bu da o deməkdir ki, M.R.Metyus və M.H.B.Pereranın mülahizələri ilə E.S.Hendriksen və M.F.Van Bredadanın mülahizələri bir-birinə uyğun gəlmir. Yəni, o şeyləri (aprior mühakimələri) ki E.S.Hendriksen və M.F.Van Breda təfsiredici nəzəriyyə tipinə aid edir, həmin şeyləri M.R.Metyus və M.H.B. Perera təsbitedici nəzəriyyə kimi təsnif edir. Ancaq M.R.Metyus və M.H.B.Perera aprior şeyləri təkcə təsbitedici deyil, həm də təfsiredici nəzəriyyə tipinə aid edirlər.

Biz deyirik ki, hesablama metodu ilə uçot prinsipi saxtadır, çünki şirkətin mənfəətli olmasını göstərir, ancaq əslində şirkət müflisləşmə həddində ola bilər. Ancaq bu saxtalıq, həm də onun

düzgünlüyünü, obyektivliyini göstərir, yəni deyir ki, mənfəətli olmaq müflisləşməkdən qaça bilmək deyil. Əgər biz hesablama metodu ilə uçot prinsipinə normativ metodologiya kimi yanaşırıqsa, onda bu, təsbitedici tipə aiddir, amma əgər eyni zamanda o bizə izah edə bilirsə ki, mənfəətli görünmək şəraitində də şirkətin müflis olması faktları vardır, onda bu prinsip tamamilə təfsiredici bir mühakiməyə çevrilir.

Bəzi mənbələrdə pozitiv yanaşmanın tamamilə normativ yanaşmanın əksi olduğu vurğulanır. Məsələn, D.Aleksander, An.Britton və Ann Yorissen M.C.Yensenə istinadən göstərirlər ki, pozitiv yanaşma «hesabat siyasətinin prosedurları və istiqamətlərinin nəyə görə necə vardırsa, elə olmasını izah etməyə cəhd göstərməyi nəzərdə tutur, halbuki, normativ yanaşma – uçot siyasətinin müəyyən tətbiqini təsbit etməyə göstərilən cəhddir» [12, səh. 150]. Adları çəkilən müəlliflər uçot siyasətinin məhz normativ yanaşmanı əks etdirdiyini yox, həmin siyasətin tətbiqini təsbit edən cəhd olduğunu qəbul edirlər. Onlar bir qədər öncə [12, səh. 148] qeyd edirlər ki, normativ yanaşmaları qəbul etmək düzgün deyil, çünki onların fikrincə, standartlar, o cümlədən MHBSŞ-nin standartları normativ yanaşmalar əsasında deyil, daha geniş və məzmunlu nəzəriyyələr əsasında yaradılmışdır, normativ yanaşma isə hesabatın tərtib edilməsi zamanı qarşıya çıxan ziddiyyətli problemlərin həlli üsullarının müəyyən edilməsinə yönəlmiş yanaşmadır. Müəlliflərin bu mühakiməsinə rəğmən aşağıdakı fikirləri ifadə etmək olar: birincisi, onların o fikri ilə razılaşmaq olar ki, uçot-hesabat standartları sırf uçota aid nəzəriyyələr üzərində deyil, ondan daha yuxarı səviyyədə qəbul oluna biləcək iqtisadi nəzəriyyələr üzərində qurulur. Bu ona görə belədir ki, cəmiyyətdə iqtisadi inkişafın nəzəri-praktiki qanunauyğunluqları uçot elmi tərəfindən deyil, iqtisadi nəzəriyyə və digər funksional iqtisadi elmlər tərəfindən ümumiləşdirilir, izah edilir və bu da gələcək hərəkət üçün əsas olur. Bir elm olaraq uçotun məqsədi, vəzifəsi iqtisadi nəzəriyyənin funksiyalarını təkrar etməkdən ibarət deyildir, onun məqsədi, funksiyası və vəzifəsi cəmiyyətin iqtisadi özəyini təşkil edən şirkətlərin fəaliyyəti, onun nəticələri barədə informasiya formalaşdırmaqdır; ikincisi, onların belə bir fikri ilə razılaşmaq olmaz ki, normativ yanaşma hesabatın tərtib edilməsi zamanı qarşıya çıxan ziddiyyətli problemlərin həlli üsullarına yönəlmiş yanaşmadır. Bu mühakimədən belə çıxır ki, hesabatın tərtibi zamanı ziddiyyətli problemlər meydana çıxmasa normativ xarakter daşıyan metodologiyaya ehtiyac qalmazdı. Zənnimizcə, bu cür mövqe qəbul olunmazdır. Əvvəla ona görə ki, metodologiyanın normativ qaydada formalaşdırılması şirkətlərin fəaliyyəti və onun nəticələri barədə informasiyanı unifikasiya etməyə, ortaq məxrəcə gətirməyə və bunun əsasında onları qiymətləndirməyə, təhlil etməyə imkan verir. Daha sonra, iqtisadiyyatda baş verən dəyişikliklər barədə informasiya formalaşdırmaq üçün normativ metodologiyanın yaradılması və tətbiqi zəruri xarakter daşıyır. Belə ki, əgər iqtisadiyyat «belə olmalıdır» yanaşmasına keçirsə, onda necə ola bilər ki, uçotun metodologiyası yalnız «vardır» yanaşması ilə kifayətlənmiş olsun. Deməli, burada da «belə olmalıdır» yanaşmasının tətbiqi mütləqdir; üçüncüsü, uçot və hesabatın nəzəriyyəsi və metodologiyası yalnız və yalnız iqtisadi nəzəriyyələrə əsaslanmır, onların özünəməxsus olan, təkrarlanmayan, hətta digər elmlərdə istifadə olunan fundamental təsdiqetmələri və prinsipləri vardır. Müəlliflərin özləri də çox gözəl bilir ki, uçotun nəzəriyyəsi və metodologiyası tərəfindən formalaşdırılan informasiya olmasa nə idarəetmə, nə də maliyyə qərarları obyektiv və faydalı ola bilməz. Bir sözlə, uçotun və hesabatın formalaşmasına, onların formalaşdıracağı informasiyaya normativ yanaşma olmasa, yəni standartlar işlənib hazırlanmasa nəzəriyyəyə və metodologiyaya da ehtiyac qalmazdı, bu da uçotun bir elm kimi yoxluğu demək olardı.

Bir çox müəlliflərə, məsələn, R. L.Wattsa və J. L. Zimmermana görə, bütün mühakimələri və deməli, nəzəriyyələri/metodologiyaları çox asan şəkildə iki kateqoriyaya bölmək olar: pozitiv və normativ. Ancaq onlar pozitiv nəzəriyyənin normativ nəzəriyyədən üstün olduğunu qeyd edirlər [10, səh. 135]. M.R.Metyusun və M.H.B.Pereranın qənaətinə görə, onlar ona görə belə bir bölgü aparırlar ki, normativ nəzəriyyəni tənqid edə bilsinlər və pozitivizmin üstünlüyünü göstərsinlər [10, səh. 135]. R.L.Watts və J.L.Zimmerman deyəndə ki, «mühasibat uçotunun nəzəriyyəsinin başlıca məqsədi uçot praktikasının izah edilməsi və proqnozlaşdırılmasıdır» [10, səh. 136], onda digərləri, məsələn, Metyus, Perera, Sterlinq, Çambers deyirlər ki, həmin müddəa əslində Watts və Zimmermanın pozitivist deyil, normativist olduğunu göstərir.

Hazırda uçotun nəzəriyyəsinin məqsədi – təfsiredici yox, təsbitedici xarakter daşıyır. Həmin məqsədin həyata keçirilməsi isə müəyyən metodoloji qaydaların təsbit olunmasını zəruri edir, belə

qaydalar olmadan məqsədə çatmaq olmaz. Deməli, belə qaydaların təsbit edilməsi normativ yanaşma xarakteri daşıyır, yəni təsbitedicidir. Bu qaydaların tətbiqinin nəticələri pozitiv nəzəriyyənin köməyilə araşdırıla, öyrənilə və qiymətləndirilə bilər. Lakin bu heç də o anlama gəlməməlidir ki, həmin nəzəriyyə (yəni normativ nəzəriyyə) alınmış nəticələrdən hansının daha üstün olmasını müəyyən etməlidir və həmin nəzəriyyə, həmçinin də metodologiya yalnız pozitiv yanaşma, yaxud praktika üzərində qurulmalıdır. Bu və ya digər nəzəri tərifin formulə edilməsini, ya da metodoloji qaydanın formalaşdırılmasını yalnız empirik yoxlama nəticəsində yürüdülən mühakimənin ixtiyarına buraxmaq olmaz, bu zaman rasional epistemologiyanın gücünə də arxalanmaq lazımdır, hansı ki, daha çox deduktiv yanaşmanı ehtiva edir.

## Nəticə

İqtisadi ədəbiyyatlarda normativ və pozitiv yanaşmaların semantikası və praqmatikası geniş tədqiqat predmeti kimi çıxış edir, onların ətrafında elmi - praktiki xarakterli diskussiyalar aparılır.

Fəlsəfi köklərə malik olan həmin yanaşmalar bütün iqtisad elmlərinin, xüsusilə də uçotun nəzəriyyəsi və metodologiyasının formalaşması və inkişafı üçün mühüm baza rolunu oynamış və indi də mühüm əhəmiyyət kəsb edir.

Uçota aid ədəbiyyatlarla tanışlıq göstərir ki, bir sıra iqtisadçılar normativ və pozitiv yanaışmaları ya eyniləşdirir, ya onlar arasında sədd çəkir, ya da ki, onlardan birinin digərindən üstün olduğunu iddia edirlər.

Araşdırmalar deməyə əsas verir ki, uçot hesabat sistemində informasiya daha çox normativ yanaşma bazasında formalaşır. Lakin bu o demək deyildir ki, sözügedən sistemdə pozitiv yanaşmalara yer olmamalıdır.

Müəllifin fikrincə, pozitiv yanaşmalar (empirik məlumatlar) əsasında alınmış nəticələr normativ yanaşmaların korrektə edilməsi üçün əsas kimi çıxış edə bilər. Bununla belə, aktivlərin və maliyyə hesabatının digər elmentlərinin nəzəriyyəsi və metodologiyasını inkişaf etdirərkən yanız empirik təcrübə deyil, həm də rasional epistemologiya nəzərə alınmalıdır.

**Vaqif Quliyev**

## Uçot- hesabat sistemində normativ və pozitiv metodologiyalar

### Xülasə

Məqalədə fəlsəfi nöqteyi-nəzərdən normativ və pozitiv yanaşmaların semantikası və praqmatikası tədqiq edilir, iqtisadi nəzəriyyədə və mühasibat uçotunda həmin yanaşmalara olan baxışlar araşdırılır. Tədqiqatın əsas məqsədi - uçot-hesabat sistemində aktivlər və maliyyə hesabatının digər elementləri üzrə standartların və qaydaların işlənib hazırlanması zamanı tətbiq olunan normativ və pozitiv yanaşmaların (metodologiyaların) rolu və əhəmiyyətini qiymətləndirməkdir. Tədqiqat nəticəsində sübut edilir ki, müasir uçot-hesabat sistemini tənzimləyən konseptual əsaslar, standartlar aktivlər və digər elementlər barədə informasiya formalaşdırılmasında bilavasitə normativ yanaşmadan çıxış edirlər və bu yanaşma çərçivəsində tətbiq edilən qaydalar və metodlar yalnız korporativ maraqları əks etdirir. Əsaslandırılır ki, normativ yanaşma cəmiyyət maraqları ilə korporativ maraqları qarşılıqlı surətdə nəzərə almaqla tətbiq edilməlidir. Maliyyə uçotu və hesabatında hər hansı tərif formulə edilərkən, ya da metodoloji qayda təsbit olunarkən yalnız empirik faktlar əsasında yürüdülən mühakiməyə deyil, həmçinin rasional epistemologiyanın gücünə də arxalanmaq lazımdır.

**Вагиф Кулиев**

## Нормативные и позитивные методологии в системе учета-отчетности

### Резюме

В статье, с философской точки зрения, исследуются семантика и прагматика нормативного и позитивного подходов, рассматриваются сложившиеся в экономической теории и бухгалтерском учете взгляды на эти подходы. Основная цель исследования – оценка роли и значения нормативного и позитивного подходов (методологий) в разработке стандартов и правил по выработке учетно-отчетной информации об активах и других элементах. Исследованием доказывается, что концептуальная база, стандарты, регулирующие современную систему учета-отчетности, демонстрируют непосредственно нормативный подход к формированию информации об активах и других элементах, а применяемые в рамках такого

подхода правила и методы отражают только корпоративные интересы. Обосновывается, что нормативный подход должен применяться с учетом интересов как корпораций, так и общества в целом. При формулировании в финансовом учета и отчетности любого определения или методологического правила необходимо полагаться не только на эмпирические суждения, но и на силу рациональной эпистемологии.

**Vagif Guliyev**

**Normative and positive methodologies in the accounting-reporting system**

**Summary**

The article examines the semantics and pragmatics of normative and positive approaches from a philosophical point of view, examines the views on these approaches prevailing in economic theory and accounting. The main objective of the study is to assess the role and importance of normative and positive approaches (methodologies) applied in the development of the standarts and rules on assets and other elements financial reporting in the accounting-reporting system. The study proves that the conceptual foundations, standards governing the modern accounting and reporting system directly demonstrate a regulatory approach to the formation of information about assets and other elements, and the rules and methods applied within this approach reflect only corporate interests. It is substantiated that the regulatory approach should be applied taking into account the interests of both corporations and society as a whole. In formulating any definition or methodological rule in financial accounting and reporting, it is necessary to rely not only on empirical judgment, but also on the power of rational epistemology.

**Ədəbiyyat**

1. Поппер К. Логика и рост научного знания. Избранные работы. Переводы с английского. Москва, «Прогресс», 1983 – 603 с.;
2. Фейерабенд Пол. Избранные труды по методологии науки: Переводы с англ. и нем. / общ ред. и отв. вступ. ст. И. С. Норский. – М.: Прогресс, 1986-542 с.;
3. Кун Т. Структура научных революций / Томас Кун; пер. с англ. И. З. Налетова. – М.: АСТ, Москва, 2009. – 317 [3] с.;
4. Самуэльсон Пол А., Нордхаус Вилъям Д. Экономика: Пер с англ. – М.: «Издательство БИНОМ», 1997.- 800 с.: ил;
5. Журавлева Г. П. , Поздняков Н. А., Поздняков Ю. А. Экономическая теория. Микроэкономика: Учебник. – М.: ИНФРА – М, 2015. – 440 с.;
6. Мэнкъю Н. Г. Принципы экономикс.4-е изд. / пер. с англ. А. Смольского, О. Табеловой. СПб.: Питер, 2009.- 672 с.:ил;
7. Блауг Марк.Методология экономической науки, или как экономисты объясняют.Пер с англ.НП»Журнал вопросы экономики», 2004. – 416 с.; (88)
8. Əlləzov Q. S. İqtisad elminin nəzəri- metodoloji əsaslarının tarixi inkişafı (Monoqrafiya). Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2009.- 326 səh.;
9. Хендриксен Э. С. , Ван Бреда М. Ф. Теории бухгалтерского учета: Пер. с англ. / Под ред. проф. Я. В. Соколова. - М.: Финансы и статистика, 1997. – 576 с.: ил.;
10. Мэтьюс М. Р., Перера М. Х. Б. Теория бухгалтерского учета: Учебник / Пер. с англ. под ред. Я. В. Соколова, И. А. Смирновой. – М.: Аудит, ЮНИТИ,1997. – 408 с.;
11. Концептуальные основы представления финансовых отчетов http://www.minfin.gov.by/upload/accounting/acts/34753_GVT_Conceptual_Framework_March_2018_Final.pdf-70 с.;
12. Aleksander Devid, Britton Anne, Yorissen Ann. Maliyyə hesabatının beynəlxalq standartları: nəzəriyyədən praktikaya / Rus dilindən tərcümə. Tərcümənin elmi redaktoru: V. M. Quliyev. Bakı,"İqtisad Universiteti" Nəşriyyatı, 2010.- 762 səh.

Məqalə redaksiyaya daxil olmuşdur: 04.10.2021
Təkrar işlənməyə göndərilmişdir: 08.10.2021
Çap üçün qəbul olunmuşdur: 19.11.2021

UOT: 33.303.7330.44
DOI: 10.338.70/2413-6557-2021-7-4-74-81

# TURİZMİN RƏQABƏTQABİLİYYƏTLİLİYİNİN ƏSAS GÖSTƏRİCİLƏRİNİN KOMPLEKS TƏHLİLİ

***Leyla Hacıyeva***
*Azərbaycan Dövlət İqtisad Universiteti*
*Iqtisadiyyat kafedrasının dosenti, iqtisad üzrə fəlsəfə doktoru*
*AZ1072, Bakı, Həsən Əliyev, 135*
*hajiyeval@mail.ru*

**Açar sözlər**: turizm sektoru, rəqabətqabiliyyətlilik, səyahət və turizmin rəqabətqabiliyyətliliyi indeksi, subindeks, turizm infrastrukturu.
**Ключевые слова**: сектор туризма, конкурентоспособность, индекс конкурентоспособности путешествий и туризма, субиндекс, инфраструктура туризма.
**Keywords:** tourism sector, competitiveness, travel and tourism competitiveness index, sub-index, tourism infrastructure.

Turizm sektorunun rəqabətqabiliyyətliliyindən bəhs etməmişdən əvvəl, rəqabət və rəqabətqabiliyyətlilik anlayışlarına aydınlıq gətirək. Siyasi iqtisad məktəbinin klassikləri olan A.Smit və D.Rikardonun fikirlərinə görə, rəqabət – daha əlverişli şərtlərlə alıcılara məhsul satmaq məqsədilə müəssisələr arasında aparılan mübarizədir. Sonradan "rəqabət" anlayışına nadir iqtisadi dəyərlərin əldə edilməsi məqsədilə aparılan mübarizə kimi baxdılar. Belə halda "rəqabət – elə bir situasiyadır ki, müxtəlif insan qruplarının maraqlı olduğu nadir dəyərin istifadəsinin bir neçə alternativ variantı mövcuddur və bu insan qrupları dəyəri əldə etmək uğrunda mübarizə aparırlar" [4].

Rəqabətin elmi və nəzəri əsasları A.Smit, D.Rikardo, J.Robinson, E.Cemberber, A.Marshall (Marshall, 1993), J.Schumpeter, F.Hayek və K. Makkonel, S.L.Bryu (McConnell və Bryu, 1992), M.Porter (Porter, 2005), R.Fathutdinov (Fatxutdinov, 2005), H.Azoyev (Azoyev və Chelenkov, 2000), F.Zavyalov (Zavyalov və s.) , 2005), A. Yudanov (Yudanov, 2001), və s.-nin elmi əsərlərində təqdim olunmuş və ümumiləşdirilmişdir.

Hal-hazırda "rəqabət" sözünün çox sayda təfsiri mövcuddur. İqtisadiyyat, bazarın mənşəyindən və təsərrüfat subyektlərinin qarşılıqlı fəaliyyətindən asılı olaraq bu müddətə üç konseptual yanaşma daxildir: "davranış", struktur və funksional (Cədvəl 1). İqtisadi bir anlayış olaraq, "rəqabət" termini ayrı-ayrı mal və xidmət istehsalçıları arasında eyni istehlakçıya satılması ilə əlaqəli iqtisadi rəqabət və ya rəqabət deməkdir [1, 3].

**Cədvəl 1**

**Rəqabət anlayışına müxtəlif yanaşmalar [2]**

| | A | B |
|---|---|---|
| **№** | **Müəlliflər, yanaşmalar** | **"Rəqabət" anlayışı** |
| 1 | A. Smit, M. Porter, A.Radyhina<br>**Davranış yanaşma** | - Maliyyə cəhətdən səmərəli tələb uğrunda mübarizədə təsərrüfat subyektlərinin davranışının xüsusiyyətlərini və strategiyalarını müəyyənləşdirmək;<br>- bazarda rəqabət qabiliyyətini təmin etmək məqsədi ilə sahibkarlıq subyektlərinin həvəsləndirməsi. Bu yanaşma istehlakçıların kapitalının onların ehtiyaclarını tam ödəməsi fikrinə əsaslanır;<br>- rəqabət mübarizəsi yalnız səmərəli tələbat uğrunda deyil, həm də distribusiya bazarlarında hegemonluq, xammal mənbələri, elmi tərəqqinin nailiyyətləri, ixtisaslı işçi qüvvəsi və s. uğrunda aparılır |

| | A | B |
|---|---|---|
| 2 | F. Edzvart, A. Kurno, J.Robinson, E.Chemberlen **Struktur yanaşma** | - qeyri-fərdi bazar mexanizmi ayrı-ayrı fərdlərin və təsərrüfat fərdlərinin fəaliyyətindən asılı deyil. Yalnız bazarın strukturu və onun fəaliyyəti şərtləri zəruridir;<br>- rəqabət məhsuldar amillərin sahələrarası miqrasiyasına səbəb olan ictimai istehsalın tənzimlənməsi mexanizmi kimi qəbul edilir;<br>- rəqabət bazarı oxşar məhsulların çoxsaylı alıcıları ilə qeyd olunur. Belə bazarda satışın həcmi o qədər azdır ki, o, məhsulun qiymətinə təsir göstərə bilmir |
| 3 | Y. Şumpeter, F.Hayek **Funksional yanaşma** | - rəqabət, təsərrüfat subyektlərinin innovativ inkişaf strategiyalarının tətbiqinə yönəlməsinin nəticəsi olan iqtisadi artımın amili kimi qiymətləndirilir;<br>- Bazarda rəqabətə nail olmaq üçün təsərrüfat subyektləri istehsal xərclərini azaltmalı və artan tələbatı ödəmək üçün istehlakçılara yeni məhsullar təklif etməlidirlər. |

Turizm sektorunun beynəlxalq rəqabətqabiliyyətliliyi bir sıra göstəricilərlə müəyyən edilir ki, bunların vasitəsilə ölkədə infrastrukturun (o cümlədən, mehmanxana sektorunun, restoran və ictimai iaşə obyektlərinin, nəqliyyat sektorunun, əyləncə sektorunun) inkişaf səviyyəsini qiymətləndirmək olar və ölkənin ümumi inkişaf səviyyəsi, miqrasiya siyasəti, xarici vətəndaşların təhlükəsizliyinin qorunması və s. barəsində nəticələr çıxartmaq olar. Bütün bu amillər müəyyən dərəcədə turizm destinasiyasının cəlbediciliyinə təsir edir. Rəqabətqabiliyyətlilik amilləri beynəlxalq turizm xidmətləri ticarətində ölkənin milli rəqabət üstünlüklərini təqdim edir və potensial rəqiblər arasında ayrı-ayrı turizm destinasiyalarının milli xüsusiyyətlərini, cəlbediciliyini və təkrarsızlığını müəyyən edir [6].

Turizmin rəqabətqabiliyyətlilik amilləri Ümumdünya İqtisadi Forumun ekspertləri tərəfindən müəyyən olunur və turizm sektorunun rəqabətqabiliyyətlilik indeksinin (The Travel & Tourism Competitiveness Index (TTCI) - Səyahət və Turizmin Rəqabətqabiliyyətliliyi İndeksi) formalaşdırılması üçün istifadə olunur. TTCİ indeksinin hazırlanmasında bir sıra beynəlxalq təşkilatların və turizm və səyahət sferasındakı ekspertlərin (International Air Transport Association (IATA), International Union for Conservation of Nature (IUCN), UNWTO, World Travel and Tourism Council (WTTC), Strategic Design Partner Booz & Co., Deloitte, Airbus, Bombardier, Etihad Airways, Gulf Air, Hertz, Jet Airways, Jumeirah, Rolls-Royce, Silversea, SWISS, Visa) məlumatlarından istifadə olunur. İndeks dünya ölkələrində turizm sektorunun cəlbediciliyinə təsir edən inkişaf amillərini və turizm sahəsindəki siyasəti qiymətləndirməyə imkan verir [9].

TTCİ indeksinin hesablanması metodikasına nəzər salaq. 2007-2013-cü illər ərzində indeksin hesablanması 3 geniş kateqoriya üzrə aparılırdı ki, bunlar özlərində bir sıra dəyişkən amilləri ehtiva edirdilər. Bu kateqoriyalar üç subindeks kimi təqdim olunurdu [7;8]:

-turizm sektorunun qanunverici-normativ bazası (dövlətin turizm sferasında siyasətini əks etdirən elementləri ehtiva edir);

-biznes-mühit və turizm sektorunun infrastrukturu (turizm sahəsində biznes fəaliyyətinin əlverişliliyi və yol-nəqliyyat-kommunikasiyalar infrastrukturunun mövcud vəziyyəti);

-turizm və səyahət sektorunun təbii, mədəni və insan potensialı (turizm potensialının inkişafı üçün zəruri olan təbii və insan resursları).

Hər subindeksə turizm sektorunun rəqabətqabiliyyətliliyini əks etdirən müəyyən sayda göstəricilər daxildir. Məsələn, qanunvericilik normalarına xarici mülkiyyətin yayılması, mülkiyyət hüququ, qanunların birbaşa xarici investisiyalara təsiri, viza rejimi, ikitərəfli hava əlaqələrinin mövcudluğu, dövlət siyasətinin şəffaflığı, biznesin açılması prosedurasının müddəti, yeni biznesin açılmasına sərf olunan xərclər, səlahiyyətlərin məhdudlaşdırılması indeksi aiddir.

Ətraf mühitin müdafiəsinə daxil olan göstəricilər bunlardır: ekoloji tənzimlənmənin ciddiliyi, təbiətin mühafizəsinə aid qanunvericiliyin istifadəsi, səyahət və turizm sektorunun inkişafının

davamlılığı, atmosferə atılan karbon qazının miqdarı, bərk tullantıların miqdarı, flora və faunanın nadir növləri, ekoloji müqavilələrin ratifikasiyası.

Təhlükəsizlik amilinə cinayət və zorakılıqdan biznes itkiləri, hüquq mühafizə orqanlarının etibarlılığı, yol-nəqliyyat hadisələri, terrorizm nəticəsində biznes itkiləri daxildir. Səhiyyə və gigiyena aşağıdakı amillər üzrə qiymətləndirilir: lazımi sayda həkim-terapevtlərin olması, tibbi yardımın olması, içməli su mənbələrinin olması, xəstəxana çarpayılarının təminatı. Səyahət və turizm sektorunun inkişafı prioritetliyi bu sektorun dövlət orqanları baxımından zəruriliyindən, turizmin inkişafına sərf olunan dövlət xərclərindən, turistlərin cəlb edilməsi üçün marketinq və brendinqin səmərəliliyindən, il ərzində sektor üzrə statistik məlumatların əhatəliliyindən, sektor üzrə aylıq (rüblük) statistik hesabatların vaxtında təqdim olunmasından irəli gəlir (Şəkil 1).




Şəkil 1. Turizm və səyahət sektorunun rəqabətqabiliyyətlilik indeksi (2007-2013-cü illər ərzində) [10]

B subindeksinə daxil olan göstəricilərə nəzər salaq. Şəkil 1-dən göründüyü kimi, bu subindeks özündə 5 göstəricini əks etdirir: avianəqliyyatın infrastrukturu, yerüstü nəqliyyatın infrastrukturu, turizm infrastrukturu, İKT-nin infrastrukturu, turizm və səyahət sektorunun qiymət rəqabətqabiliyyətliliyi. Avianəqliyyatın infrastrukturuna mövcud olan avianəqliyyatın keyfiyyət parametrləri, daxili və beynəlxalq sərnişindaşımaları, əhalinin hər 1000 nəfərinə düşən uçuşların sayı, hava liman şəbəkəsinin sıxlığı, hava daşıyıcılarının sayı; ölkənin beynəlxalq hava nəqliyyatı şəbəkəsi daxildir.

Yerüstü nəqliyyatın infrastrukturuna isə yolların uzunluğu, keyfiyyəti, yolların sıxlığı, dəmiryol və liman infrastrukturunun keyfiyyəti, yerüstü nəqliyyat şəbəkəsi aid edilir.

Turizm infrastrukturuna daxil edilən göstəricilərə mehmanxanaların otaq fondu, nəqliyyat vasitələrinin icarəsi üzrə aparıcı şirkətlərinin (Avis, Büdcə, Europcar, Hertz, Milli Avtomobil Kirayəsi, Sixt, Thrifty) mövcudluğu, VISA ödəmə sisteminin kartlarını qəbul edən bankomatların olması və s. aiddir.

İKT-nin infrastrukturunun inkişafını əks etdirən göstəricilərə B2B əməliyyatları üçün İKT infrastrukturundan istifadə, B2C əməliyyatları üçün İnternetdən istifadə, internetdən fərdi istifadə,

şəhər telefon xətləri, genişzolaqlı internet abunəçiləri, mobil telefon istifadəçiləri, mobil genişzolaqlı abunəçilərin sayı aid edilir.

B subindeksinə daxil olan sonuncu göstərici turizm və səyahət sektorunun qiymət rəqabətqabiliyyətliliyidir ki, bura biletlərin qiymətləri və hava limanı xərcləri, alıcılıq qabiliyyəti pariteti, vergi və yanacaq qiymətləri, oteldə yerləşmənin qiymət indeksi daxildir.

Sonuncu C subindeksi turizm və səyahət sektorunun təbii, mədəni və insan potensialı ilə əlaqəlidir, bu subindeks özündə əmək resursları, cəmiyyətin turizm və xarici ziyarətçilər üçün açıqlığı, təbii resurslar və mədəni resurslar kimi göstəricilər əsasında qiymətləndirilir.

Əmək resursları göstəricisinə ilkin və orta təhsilin əhatəliliyi, təhsil sisteminin keyfiyyəti, ixtisaslaşmış elmi-tədqiqi və tədris xidmətlərinin əlçatarlığı, kadrların peşə hazırlığı səviyyəsi, işəgötürmə və işdənçıxarma təcrübəsi, xarici işçi qüvvənin işə qəbul edilməsi prosesinin asanlığı, immun çatışmazlığı virusunun yayılması, AİDS-dən iş itkisi, ömür uzunluğu aid edilir.

Cəmiyyətin turizm və xarici ziyarətçilər üçün açıqlığı göstəricisi özündə turizmin açıqlığını, əhalinin xarici qonaqlara münasibətini, turist səfərlərinin tövsiyə olunan davamiyyətini, müştəriyə yönümlülüyünü ehtiva edir.

Təbii ehtiyatlar göstəricisinə Dünya İrsinə aid təbii obyektlərin sayı, ətraf təbii mühitin keyfiyyəti, məlum heyvan növlərinin sayı, yerdəki yaşayış mühitinin qorunması, qorunan dəniz əraziləri aid edilir.

Mədəni resurslara isə Dünya mədəni irsin obyektləri, idman stadionları, beynəlxalq sərgi və yarmarkalar, yaradıcı sənaye məhsullarının ixracı aiddir.

Hər ölkə üçün ümumi qiymətləndirməni aparanda və indeksin yekun balını hesablayanda bütün alt indekslərin bərabər çəkiyə malik olduğunu qeyd edərək, arifmetik orta metoddan istifadə edirlər. Ümumilikdə indeks 79 komponentdən ibarətdir ki, bunlar üzrə hər ölkəyə müəyyən bal təyin olunur.

2015-ci ildə indeksin strukturunda dəyişiklik edildi. Yeni strukturda birinci subindeks turizm və səyahət sektorunun inkişafı üçün əlverişli mühitin elementlərini, o cümlədən, iş mühitini, təhlükəsizliyi, sağlamlığı və gigiyenanı, insan resurslarını və əmək bazarını, İKT-dən istifadə etmək hazırlığını ehtiva edir. İkinci alt indeksində turizmin inkişafı üçün əlverişli şəraitin yaradılması siyasəti əks olunur - turizm və səyahət sektorunun prioritetliyi, beynəlxalq açıqlıq, qiymət rəqabətqabiliyyətliliyi, ekoloji dayanıqlıq. Üçüncü alt indeksə infrastruktur elementləri daxildir: hava nəqliyyatı, liman və quru nəqliyyatı, turizm infrastrukturu. Əlavə olaraq, yeni strukturda dördüncü alt indeksi də var ki, bura təbii və mədəni resurslar, o cümlədən, işgüzar turizmin inkişafı üçün zəruri olan ehtiyatlar daxildir (Şəkil 2).

Əlverişli mühit subindeksi ölkədə fəaliyyət göstərmək üçün zəruri olan ümumi şərtləri özündə cəmləşdirir və 5 göstərici üzrə qiymətləndirilir:

1. İşgüzar mühit 12 göstərici üzrə hesablanır: Burada ölkələrdə şirkətlərin fəaliyyət göstərməsi üçün əlverişli siyasi mühitin yaradılması nəzərdə tutulur. Tədqiqatlarda iqtisadi artım və mülkiyyət hüquqlarının qorunması, qanunvericilik bazasının səmərəliliyi kimi aspektlər arasında əhəmiyyətli əlaqələr müəyyən edilir. Eyni zamanda, vergi və rəqabət siyasətindəki təhriflər, o cümlədən, birbaşa xarici investisiyaların asanlaşdırılması baxımından ölçülən daxili və beynəlxalq rəqabət - ölkənin səmərəliliyinə və məhsuldarlığına təsir göstərir. Bu amillər turizm və səyahət sektoru da daxil olmaqla bütün sektorlar üçün zəruridir.

2. Təhlükəsizlik və mühafizə 5 göstəricini ehtiva edir: Təhlükəsizlik və mühafizə ölkənin turizm sektorunun rəqabətqabiliyyətini təyin edən vacib amildir. Turistlərin təhlükəli ölkələrə və ya bölgələrə səyahət etməkdən çəkinməsi, belə yerlərdə turizm sektorunun inkişafını məhdudlaşdırır. Qiymətləndirmədə ümumi cinayət və zorakılığın səviyyəsi, terrorizm və polis xidmətinin turistləri qoruması səviyyəsi nəzərə alınır.

3. Sağlamlıq və gigiyena 6 göstərici üzrə qiymətləndirilir. Qeyd edək ki, bu göstərici də səyahət və turizm sektorunun rəqabətqabiliyyəti üçün zəruridir. Keyfiyyətli içməli su və kanalizasiya ilə təmin olunma ölkədəki turistlərin rahatlığı və sağlamlığına zəmin verir. Ölkədə müəyyən olunmuş sayda həkim və xəstəxana çarpayılarının fondu olmalıdır ki, turistlərin xəstələnməsi zamanı onlara lazımi qayğı göstərilsin. Onu da qeyd edək ki, mövcud pandemiya

dövründə, dünya ölkələrinin COVİD-19 tipli yeni virusla mübarizə apardıqları bir şəraitdə sağlamlıq və gigiyenaya olan tələblər daha da zəruriləşir. Hazırda turizm sektoru ən çətin inkişaf dövrünü keçir, çünki pandemiyanın neqativ təsirindən ən çox ziyan çəkən sahələrdən biri də turizmdir. Demək olar ki, 2020-ci ilin birinci yarısında pandemiya səyahətləri yox vəziyyətinə gətirdi. Yay aylarında bir çox ölkələr turizm səyahətlərinin bərpası haqqında düşünürdülər, belə halda məhz sağlamlıq və gigiyena şəraiti yüksək inkişaf edən ölkələr əlavə rəqabətqabiliyyətlilik əldə edə bilərlər.




Şəkil 2. Turizm və səyahət sektorunun rəqabətqabiliyyətlilik indeksi (2015-2019-cü illər)
*Mənbə: The Travel and Turizm Competitiveness Report 2019* [11]

4. Ölkələrin turizm rəqabətqabiliyyətliliyini müəyyən edən növbəti amil İnsan Resursları və Əmək Bazarı göstəricisidir ki, burada təhlil 9 göstərici üzrə aparılır. Bu göstəricilərin köməyilə turizm sektorunun inkişafı üçün zəruri olan kadrların mövcudluğu, bu insan resurslarının turizm sahəsində əməkdaşlıq imkanları qiymətləndirilir. Bu qrupa aid olan göstəricilər, ölkədə təhsil və təlim vasitəsilə turizm sahəsinə aid olan bilik və bacarıqların nə dərəcədə inkişaf etdiyini nümayiş edirlər. İnsan Resursları və Əmək Bazarı göstəricilərinə ilk olaraq təhsilin rəsmi göstəriciləri, eləcə də özəl sektorun insan resurslarının inkişafına cəlb edilməsi, məsələn, müştəri xidmətlərinin inkişafı üçün təlimlərin keçirilməsinə biznes sərmayələrinin qoyulması daxildir. Burada həm də əmək bazarının çevikliyi, səmərəliliyi və açıqlığı dərəcəsi, insan resurslarının ölkə regionları üzrə paylanması səviyyəsi təhlil olunur.

5. Növbəti amillər qrupuna İKT hazırlığı aiddir ki, burada təhlil 8 göstərici üzrə aparılır. İnternet xidmətləri və biznes əməliyyatları turizm sektorunda artan əhəmiyyətə malikdir, müasir zamanda daha çox sayda turistlər öz səyahət marşrutlarının planlaşdırılması və yaşayış yerlərinin sifarişi üçün internetdən istifadə edirlər. Onu da qeyd etmək lazımdır ki, İKT sahəsi bütün sahələr üçün zəruri olduğuna görə, o, ümumi əlverişli mühitin bir hissəsi hesab olunur. Bu amilin göstəriciləri həm müasir texnoloji infrastrukturun mövcudluğu (yəni mobil şəbəkənin əhatə dairəsi və elektrik enerjisinin təchizatının keyfiyyəti) ilə, həm də müəssisə və şəxslərin onlayn xidmətlərdən istifadəsi və təmin olunması imkanları ilə ölçülür.

6. Səyahət və turizmin prioritetliyi 6 göstərici üzrə təhlil olunur. Qeyd etmək lazımdır ki, hökumətin turizm sektoruna prioritet verməsi dərəcəsi, bu sahənin rəqabətqabiliyyətliliyinə mühüm

təsir göstərir. Turizm sektorunun inkişafını prioritetli inkişaf istiqaməti kimi qəbul edərək, ölkənin rəhbərliyi turizm layihələrinin inkişafı üçün lazım olan dövlət vəsaitlərini yönəldə bilər. Dövlət siyasətinin sabitliyi də vacib göstəricidir ki, o, sektora özəl sərmayələrin cəlb edilməsinə təsir göstərə bilər. Dövlət, həm də milli turizm şirkətlərinin fəaliyyətinin stimullaşdırılması vasitəsilə turistlərin birbaşa cəlb edilməsində mühüm rol oynaya bilər.

7. Növbəti amil 3 göstərici üzrə qiymətləndirilən Beynəlxalq açıqlıqdır. Beynəlxalq səviyyədə turizm sektorunun inkişafı müəyyən dərəcədə açıqlıq və səyahətlərin asanlaşdırılmasını tələb edir. Çətin viza tələbləri kimi məhdudlaşdırıcı siyasət turistlərin ölkəyə səyahət etmək arzusunu azaldır. Bu amillər qrupuna hava əlaqələrinin inkişafı barədə ikitərəfli müqavilələrinin açıqlığı, qüvvədə olan regional ticarət sazişlərinin sayı və s. daxildir.

8. Qiymətlərin rəqabətqabiliyyətliliyi 4 göstərici üzrə təhlil olunur. Ölkədə səyahət xərclərinin azalması turistlər üçün ölkənin turizm cəlbediciliyini artırır və ölkəyə yeni investisiyaların cəlb olunmasına təkan verir. Bu göstəricilərə aviabiletlərə qoyulan vergilər, hava limanındakı ödənişlər; oteldə yerləşmənin nisbi dəyəri; alıcılıq qabiliyyəti pariteti ilə müəyyən edilmiş yaşayış minimumu və səyahət qiymətinə birbaşa təsir edən yanacaq qiymətləri daxildir.

9. Təhlil üçün növbəti göstəricilər qrupu ətraf mühitin dayanıqlığıdır ki, bu qrupa 10 göstərici aiddir. Turizmin cəlbediciliyi üçün ən vacib amillərdən biri də təbii mühitdir, bu səbəbdən ekoloji dayanıqlığı təmin edən siyasət və onun inkişafı üçün zəruri olan amillər ölkənin turizm rəqabətqabiliyyətliliyini xeyli yüksəldə bilər. Bu göstəricilər qrupuna dövlət ətraf mühit qaydalarının sərtliyi və tətbiqi, su və meşə ehtiyatlarının vəziyyətini qiymətləndirən normativlər aiddir.

10. Növbəti göstəricilər qrupu infrastruktur göstəriciləridir ki, bu qrup üç istiqamət üzrə təhlil olunur: hava nəqliyyatı infrastrukturu, yerüstü nəqliyyatın və limanların infrastrukturu, turizm xidmətləri üzrə infrastruktur. Hava nəqliyyatı infrastrukturu 6 göstərici üzrə qiymətləndirilir. Bu nəqliyyat növü həm ölkələrarası səyahətlərdə, həm də ölkədaxili səyahətlərdə müstəsna rola malikdir. Bu qrupda təhlillər ölkədə mövcud olan hava nəqliyyatının sayı, təyyarədə oturacaq yerlərinin sayı, uçuşların sayı, hava limanının sıxlığı, ölkədə fəaliyyət göstərən aviaşirkətlərin sayı, daxili və beynəlxalq uçuşlar üçün hava nəqliyyatı infrastrukturunun keyfiyyəti kimi göstəricilər üzrə aparılır.

11. İnfrastruktur göstəriciləri qrupuna aid olan növbəti göstəricilər yerüstü nəqliyyatın və limanların infrastrukturudur ki, burada təhlillər 7 göstərici üzrə aparılır. Təhlil olunan sektorun inkişafı üçün əsas biznes mərkəzlərinə və turizm məkanlarına səmərəli və əlçatan nəqliyyatın mövcudluğu əsas göstəricilərdən biri sayılır. Bunun üçün beynəlxalq standartlara uyğun olan avtomobil və dəmir yollarının mövcudluğu, inkişaf etmiş dəmiryolu şəbəkəsi, liman infrastrukturunun inkişafı lazımdır.

12. İnfrastruktur qrupuna aid olan turizm xidmətinin infrastrukturuna 4 göstərici aiddir. Bu amillər qrupunda təhlillər yerləşmə məkanlarının, kurort və əyləncə obyektlərinin sayı və keyfiyyəti üzrə aparılır, adı çəkilən göstəricilərin mövcudluğu ölkə üçün əhəmiyyətli bir rəqabət üstünlüyünü ifadə edə bilər.

13. Təbii və mədəni resurslar subindeksinə iki amillər qrupu aiddir: təbii resurslar, mədəni resurslar və biznes səyahətləri. Təbii resurslar 5 göstərici üzrə qiymətləndirilir. Məlum olduğu kimi, təbii sərvətlərə malik olan ölkələr turistlərin cəlb edilməsində rəqabət üstünlüyünə malikdirlər. Bu göstəricilər qrupuna ölkədə mövcud olan və YUNESKO tərəfindən Ümumdünya irsinə aid edilən ərazilərin sayı, milli parkların və qoruqların sayı, ölkədəki landşaftın gözəlliyini və faunanın zənginliyini ifadə edən təbii mühitin keyfiyyəti göstəriciləri daxildir.

14. Mədəni resurslar və işgüzar səyahətlər indeksi 5 göstərici üzrə qiymətləndirilir. Ümumiyyətlə, ölkənin mədəni ehtiyatları turizm və səyahət sektorunun rəqabətqabiliyyətliliyinə təsir edən daha bir vacib amildir. Bu qrupa YUNESKO-nun mədəni irsinə aid olan obyektlərin sayı, əhəmiyyətli idman və ya əyləncə tədbirlərinin keçirilə biləcəyi iri stadionların sayı və zamanın tələbini əks edən yeni göstərici - mədəni və əyləncə tədbirlərinə rəqəmsal tələbatın göstəricisi, yəni internet saytlarında hər hansı bir ölkənin mədəniyyəti ilə əlaqəli axtarışların sayı aiddir. Eləcə də bu

indeksə ölkədə keçirilən beynəlxalq şirkətlərin işgüzar görüşlərinin sayı, biznes məqsədi ilə keçirilən beynəlxalq konfrans, simpozium və sərgilərin sayı da daxil edilmişdir.

## Nəticə

Beləliklə, aparılan tədqiqatları ümumiləşdirərək, belə qənaətə gəlmək olar ki:

1. Turizm sektorunun beynəlxalq rəqabətqabiliyyətliliyinin qiymətləndirilməsi sistemli yanaşmanın tətbiqini tələb edir.

2. Turizm və Səyahət sektorunun beynəlxalq rəqabətqabiliyyətliliyinin indeksi ölkələrin dünya turizm bazarında rəqabət aparmaq qabiliyyətlərinə təsir edən əsas amillərin qiymətləndirilməsi üçün əhəmiyyətli göstərici kimi çıxış edir.

3. Pandemiya şəraitində ölkəmizdə turizm sektorunun inkişafını dəstəkləmək üçün müvafiq siyasətin aparılması və zəruri investisiyaların cəlb edilməsi tələb edilir.

4. Turizm və Səyahət sektorunun beynəlxalq rəqabətqabiliyyətliliyinin indeksinə daxil olan bütün göstəricilərin kompleks təhlili turizmin rəqabətqabiliyyətliliyinin yüksəldilməsinə və turizm gəlmələrinin səmərəliliyinin artmasına təkan verə bilər.

5. 140-dan çox ölkəni əhatə edən Turizm və Səyahətin Rəqabətqabiliyyətliliyi İndeksi tədqiqat sahəsinə bilavasitə təsir edən amillərin məcmusunu ölçür və təhlil edir ki, bu amillərin inkişafı nəticəsində turizm və səyahət sektorunun davamlı inkişafı təmin olunur, ölkənin rəqabətqabiliyyətliliyi yüksəlir və iqtisadi inkişafa zəmin yaranır.


**Leyla Hacıyeva**

**Turizmin rəqabətqabiliyyətliliyinin əsas göstəricilərinin kompleks təhlili**

**Xülasə**

Məqalədə turizmdə rəqabət anlayışına müxtəlif yanaşmalar tədqiq olunur. Qeyd olunur ki, pandemiya şəraitində turizmin inkişafı üçün onun rəqabətqabiliyyətliliyi göstəricilərinin kompleks təhlilinə zərurət yaranır. Rəqabətqabiliyyətlilik amilləri dünya turizm bazarında ölkənin milli rəqabət üstünlüklərini təqdim edir və potensial rəqiblər arasında ayrı-ayrı turizm destinasiyalarının milli xüsusiyyətlərini, cəlbediciliyini və təkrarsızlığını müəyyən edir. Turizmin rəqabətqabiliyyətlilik amilləri Ümumdünya İqtisadi Forumun ekspertləri tərəfindən müəyyən olunur və turizm sektorunun rəqabətqabiliyyətlilik indeksinin formalaşdırılması üçün istifadə olunur. Rəqabətqabiliyyətlilik göstəriciləri dörd qrup üzrə təsnifləşdirilir ki, bunlara əlverişli mühit, turizm və səyahət siyasəti, infrastruktur, təbii və mədəni resurslar aiddir. Turizmin rəqabətqabiliyyətliliyinin göstəricilərinin kompleks təhlili nəticəsində ölkədə turizm infrastrukturunun cəlbediciliyi müəyyən edilir və inkişaf səviyyəsi qiymətləndirilir.

Məqalədə turizmin rəqabətqabiliyyətliliyi indeksləri sistemli təhlil olunur, qeyd olunur ki, bu göstəricilərin yaxşılaşdırılması ölkədə turizmin inkişafına təkan verəcək.



**Лейла Гаджиева**

**Комплексный анализ основных показателей конкурентоспособности туризма**

**Резюме**

В статье исследуются различные подходы к понятию конкуренции в туризме. Отмечается, что для развития туризма в условиях пандемии необходим комплексный анализ показателей его конкурентоспособности. Факторы конкурентоспособности представляют национальные конкурентные преимущества страны на мировом туристическом рынке и определяют национальные особенности, привлекательность и уникальность отдельных туристических направлений среди потенциальных конкурентов. Факторы конкурентоспособности туризма определены экспертами Всемирного экономического форума и используются для формирования индекса конкурентоспособности туристической отрасли. Индикаторы конкурентоспособности подразделяются на четыре группы, включая благоприятную окружающую среду, политику туризма и путешествий, инфраструктуру, природные и культурные ресурсы. В результате комплексного анализа показателей конкурентоспособности туризма определяется привлекательность туристической инфраструктуры в стране и оценивается уровень ее развития.

В статье методом системного анализа исследуются индексы конкурентоспособности туризма, отмечается, что улучшение этих показателей придаст импульс развитию туризма в стране.

**Leyla Hajiyeva**

**Comprehensive analysis of the main indicators of tourism competitiveness**

**Summary**

The article examines various approaches to the concept of competition in tourism. It is noted that for the development of tourism in the context of a pandemic, a comprehensive analysis of indicators of its competitiveness is required. Competitiveness factors represent the national competitive advantages of the country in the global tourism market and determine the national characteristics, attractiveness and uniqueness of certain tourist destinations among potential competitors. The factors of tourism competitiveness are determined by experts from the World Economic Forum and are used to form the competitiveness index of the tourism sector. Competitiveness indicators are classified into four groups, including favorable environment, tourism and travel policies, infrastructure, natural and cultural resources. As a result of a comprehensive analysis of indicators of tourism competitiveness, the attractiveness of the tourism infrastructure in the country is determined and the level of its development is assessed.

The article analyses the indices of tourism competitiveness systematically and it is noted that the improvement of these indicators will give an impetus to the development of tourism in the country.

**Ədəbiyyat**

1. Бакиева Г.Р. Особенности анализа и оценки деятельности предприятий туризма. Вестник СГУТиКД, 2011, №3 (17)
2. Капустина Л., Вязовская В. Конкурентоспособность стран на мировом рынке туристских услуг. УГЭУ,Екатеринбург, 2017, 166 с
3. Ласси М.Ю. Анализ подходов к оценке конкурентоспособности регионального туризма в России. Baikal Research Journal, 2017, т.8, №2
4. Экономика : учебник / под ред. А. И. Архипова, А. Н. Нестеренко, А. К. Большакова. М.: Проспект, 2005
5. Akvile Cibinskiene, Gabriele Snieskiene. Evaluation of city tourism competitiveness. Procedia - Social and Behavioral Sciences 213 (2015) 105 – 110. 20th International Scientific Conference Economics and Management - 2015 (ICEM-2015)
6. Bacsi, Zs. (2019). Tourism competitiveness and security. Proceedings of the III International Scientific Conference on Tourism and Security (Zalakaros, 4 December 2018), p.231-240
7. Beatriz Rodríguez-Díaz, Juan Ignacio Pulido-Fernández. Sustainability as a Key Factor in Tourism Competitiveness: A Global Analysis. Sustainability 2020, 12, 51; doi:10.3390/su12010051
8. Gisela Casado Salguero, José A. Jiménez Quintero. Competitive Intelligence in the Tourism Sector, with special focus on Southern Europe. Tourism &Management Studies. 12(1), 2016, p.136-144
9. Nuria Rodríguez-López, M. Isabel Diéguez-Castrillón and Ana Gueimonde-Canto. Sustainability and Tourism Competitiveness in Protected Areas: State of Art and Future Lines of Research. Sustainability 2019, 11, 6296; doi:10.3390/su11226296
10. Travel&Tourism, Global Economic Impact&Issues, 2017. www.wttc.org/research/economic-research/economic-impact-analysis
11. The Travel and Turizm Competitiveness Report 2019

Məqalə redaksiyaya daxil olmuşdur: 22.09.2021
Təkrar işlənməyə göndərilmişdir: 28.09.2021
Çap üçün qəbul olunmuşdur: 19.11.2021

UOT: 336.32
DOI: 10.338.70/2413-6557-2021-7-4-82-91

# SIĞORTA ŞİRKƏTLƏRİNİN RƏQABƏTƏ DAVAMLILIĞININ QİYMƏTLƏNDİRİLMƏSİ

***Vüqar Qənbərov***
*Azərbaycan Respublikası Dövlət İqtisad Universitetinin*
*Mühasibat uçotu kafedrasının dissertantı*
*AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6*
*e-poçt: Vüqar.qanbarov.bbu@gmail.com*

**Açar sözlər:** sığorta, sığorta haqları, sığorta ödənişləri, rəqabət, rəqabətə davamlılıq, sığorta sistemi.
**Keywords:** insurance, insurance premiums, insurance payments, competition, competitiveness, insurance system.
**Ключевые слова:** страхование, страховые взносы, страховые выплаты, конкуренция, конкурентоспособность, система страхования.

Məlumdur ki, sığorta, baş verə biləcək təhlükələrin iqtisadi nəticələrini aradan qaldıran hər hansı bir hadisədən əvvəl alınmış tədbirlərlə bağlı risklərin idarəedilməsidir. Sığorta və risklərin idarə olunmasında az sayda insanın zərərləri eyni riskə məruz qalan bütün insanlar tərəfindən daha asan qarşılanır. Sığortalanmış satınalmalar müəyyən edilmiş hadisələrdən qorunmaqla və sığorta şirkətləri də bu satınalmalarla bağlı məbləğləri risklərə yönəldəcək şəkildə ödəyirlər. Bu səbəblə, sığorta sektorunu, riskdən qorunmaq istəyən sıgortalılardan toplanan bütün qaynaqları risklə qarşılaşan sıgortalılara köçürən sadə bir mexanizm olaraq görmək səhvdir. Onun rəqabəti formalaşdıran amilləri sayəsində sığorta sektoru ölkənin iqtisadiyyatına da böyük töhfələr verir. Bu gün iqtisadi inkişaf modellərinə bankçılıq və sığorta sektorunun inkişafı da əlavə edilmişdir. Sığorta sistemi müxtəlif əhəmiyyətli, iqtisadi cəhətdən rəqabətə davamlılığı formalaşdıran bir sıra amillər və göstəricilər əsasında fəaliyyət göstərir. Bu amil və göstəricilərə aşağıdakılar daxildir:[1]

**- İqtisadi və sosial həyatda fərdlərə və qurumlara xəbərdarlıq və təhlükəsizlik vədi ilə təmin etmək.** Sığorta şirkətləri arasında əhali üçün ən yaxşı səviyyədə təhlükəsizlik şəraiti təqdim etmək insanların o şirkətə olan diqqətini arıtırır. Buna görə də, sığorta şirkətləri arasında rəqabət formalaşarkən bu məqama diqqət yetirirlər. Çünki sığorta gələcək risklərdən qorxmadan yaşamaq, işləmək və yeni təşəbbüslərə daxil olmaq imkanı verir. Riskləri tamamilə aradan qaldırmaq mümkün deyilsə də, sığorta şirkətləri sığortaçılara qorunma üsullarını, məlumat və təcrübə məsləhətlərini təqdim edir, risklərin qarşısını alır və ən az ziyanla riskdən qurtulmalarına kömək edir. Bütün bunları yüksək səviyyədə təmin edən şirkət isə rəqabətdə önə keçir.

**- Kredit təminatına kömək etmək.** Bu gün kreditsiz nə ticarət, nə sənaye, nə də xidmət sahələri düşünülə bilməz. Kreditə ipoteka ediləcək bir dəyərin sığortalanması kreditorların hüquqlarını gücləndirərək kredit alma prosesini asanlaşdırır. İqtisadiyyatda kredit demək risk deməkdir, kredit verən bu riski də təhvil vermək məcburiyyətindədir. Sığorta şirkətlərinin kredit məsələsində verdiyi təminat cəmiyyət tərəfindən xüsusi olaraq qiymətləndirilir. Bu təminatı ən yaxşı səviyyədə verən şirkət isə rəqabətdə üstünlük əldə edir.

**- Yığımları artırmaq və kapitalın formalaşmasına kömək etmək.** Həyat sığortası və oxşar sığortalar onların uzunmüddətli xüsusiyyətləri baxımından pul yığılmasında böyük əhəmiyyətə malikdir. Bu cəhətdən sığorta şirkətlərinin insanlar tərəfindən ən çox seçilən sığorta növünə görə güvənilir olmasına, ona daha çox insanın yatırım etməsinə və istər milli, istər dünya iqtisadiyyatında yığımın formalaşmasında daha böyük paya sahib olmasına gətirib çıxarır. Bu paya sahib olmaq həvəsi isə sığorta şirkətləri arasındakı rəqabəti gücləndirir. Çox az qənaətlə, ödəniləcək məbləğlərin təyin olunduğu tarixdə müəyyən bir məbləğ əldə edilə bilər. Bundan əlavə, toplanan pul ilə yaradılan kapital investisiyalardan istifadə iqtisadi sistemdə mühüm rol oynayır.

**- Cəmiyyətdə sülh və inam yaratmaq və həmrəylik.** Sığorta şirkətləri ölkənin iqtisadiyyatına artan sərmayələrin təsirindən, ayrı bir sektor yaratmaqla və yeni iş yerləri yaratmaqla

birlikdə və işzilik səviyyəsinin minimum səviyyəyə endirməklə işsizliyi aradan qaldıraraq mühüm fəlakətlərin aradan qaldırılmasına və məşğulluğun artmasına səbəb olur. Buna isə büdcəni düzgün idarə etməklə nail olunur. Əgər sığorta şirkətləri rəqabət şəraitində büdcələrini düzgün idarə edərsə, cəmiyyətdə yuxarıda sadalanan şəkildə iqtisadiyyata müsbət istiqamətdə təsir göstərər və digər sığorta şirkətləri ilə müqayisədə önə keçmiş olar. Bundan başqa, göstərmək lazımdır ki, sığorta şirkətləri ictimai iğtişaşların yayılmasına mane olur, çünki ölüm, yanğın, oğurluq, təbii fəlakət və əlillik kimi risklərin həyata keçirilməsindən yaranan sosial-iqtisadi problem və zərərlərin qarşısını alır. Beləliklə, təhlükəsiz mühitin formalaşmasına kömək edir.

**- Beynəlxalq əlaqələri yaxşılaşdırmaq.** Sığorta fəaliyyəti baxımından sığorta şirkətlərinin rəqabətdə digər şirkətlərə qarşı müvəffəqiyyəti mümkün qədər geniş sahəyə yayılmasına bağlıdır. Bu səbəbdən, sığorta şirkətləri xarici ölkələrdə filial açmaq və ya xarici ölkələrdə şirkətlərlə təkrar sığorta müqavilələri bağlamaqla daha geniş bir cəmiyyətdə iştirak edərək rəqabətdə üstünlüyə sahib ola bilərlər.

**- Maliyyə sabitliyini artırmaq.** Sığortanın fərdlərin və təşkilatların həyatına, sağlamlığına, əmlakına və maliyyə aktivlərinə təminat verərək maliyyə sabitliyi mühitini təmin etdiyi məlumdur. Sığorta edilmədən insanlar öz ailələrindən, qohumlarından və ya dövlətdən maddi yardım alacaqlar. Şirkətlər sığorta ilə əhatə olunmadığından, itkilər və zərərlər üzə çıxacaq və bu, iflas və ya maliyyə resurslarının azalmasına gətirib çıxara bilər. Nəticədə firmaların iqtisadi artımlara qatqısı azalacaq, işçilər işlərini itirəcəklər, sahibkarlar işlərini itirəcək və hökumətlər vergi gəlirlərini itirəcəklər. Bu mənada, risklərlə qarşı-qarşıya qaldıqları və ola biləcək risklər üçün böyük fondlar ayırmaq məcburiyyətində qalmayan şirkətlər, daha münasib vəziyyətə gələrək yeni investisiyalar etmək, istehsallarını artırmaq, texnologiyalarını inkişaf etdirmək və araşdırma-inkişaf etdirmə fəaliyyətlərinin gerçəkləşdirilməsinə zəmin yaradacaq sığorta şirkəti rəqabət mövqeyi güclü olacaqdır. Bütün bunlar üçün təminatın verilməsi və bu fəaliyyətlər üçün zəruri şərait yaradaraq iqtisadiyyatın stimullaşdırılmasına yardım edilməsi məhz bazar iqtisadiyyatı şəraitində sığorta şirkətlərinin arasında rəqabətin formalaşmasına təsirini göstərəcəkdir.

**- Risklərin daha səmərəli idarə edilməsini təmin etmək**. Sığorta sektoru riskləri ölçmək, idarə etmək və köçürməklə iqtisadiyyatın qarşılaşdığı riskləri azaldır. Sığortaçılar risklərin yaranması halında ehtimal olunan zərərin səviyyəsini təxmin edir və zərərin məbləğini ona müvafiq olaraq təyin edirlər. Bu səbəbdən, sığortaçı az mükafat ödəmək və risk meydana gəldiyi zaman ən az zərər verə bilmək üçün lazımi tədbirləri görür. Beləliklə, resursların daha məqsədəuyğun istifadəsini təmin edən sığorta şirkəti rəqiblərinin önünə keçir.

**- Maliyyə sisteminin səmərəliliyini artırmaq.** Sığorta sektoru maliyyə sisteminin effektivliyini üç yolla artırır: əməliyyat xərclərini azaldaraq, likvidliyi təmin edərək və miqyaslı iqtisadiyyatı yaratmaqla. Sığortaçılar çox sayda insanın az miqdarda ödədiyi məbləğləri yığır və istehsalda istifadə üçün kreditlər kimi təqdim edirlər. Sığortaçılar vasitəçi kimi çıxış etməyi öhdələrinə götürsələr də, onlar borc götürdükləri və sığorta şirkətlərindən birbaşa investisiya etdikləri üçün aşağı xərcləri olur. Bu proses sayəsində yığımlar hərəkət edir və yığılmaya doğru hərəkət edən ölkələr daha sürətli böyüyürlər. İkincisi, sığortaçılar likvidlik yaradır. Sığorta olunanlar uzun müddətli topladıqları vəsaitləri ödəyirlər, sığortaçılar isə qısa müddətdə zərərləri ödəyirlər. Üçüncüsü, sığortaçılar miqyas iqtisadiyyatına təsir göstərirlər. Onlar böyük və bahalı layihələrin maliyyə ehtiyaclarını sığorta üçün yığılan və yaradılan vəsaitlərlə qarşılayırlar. Xüsusilə, inkişaf etməkdə olan ölkələrdə investisiya layihələrinin həyata keçirilməsində sığortaçıların fond yaratma qabiliyyəti əhəmiyyətli bir paya malikdir. Bütün bunların yekunu kimi, bu 3 fəaliyyətin hər biri sığorta şirkətlərini daha yaxşı olmaq üçün rəqabətə təşviq edir. Müəssisələr korporativ məqsədi ilə təyin edilmiş əsas vəzifələrini və rəqabət funksiyalarını yerinə yetirərkən bir sıra əsas dəyərləri nəzərə alır; bunları birbaşa işlər və əməliyyatlara əks etdirməyə diqqət yetirirlər. Bu cəhətdən bazar iqtisadiyyatı şəraitində sığorta şirkətlərinin rəqabətə davamlılığı baxımından tabe olması vacib olan bir sıra şərtlər vardır ki, bu şərtləri aşağıdakı şəkildə göstərmək olar:

**- Tərəfsizlik və obyektivlik.** Görülən fəaliyyətə və ya prosesə aid bütün məsələləri nəzərə alan və fikirlərin, şəxsi mənafelərin və ya başqalarının təsirinə məruz qalmadan, obyektiv sübutlara əsaslandıran zehni bir vəziyyətdir. Rəqabət üçün daxili auditor öz fikirlərini, qiymətləndirmələrini və

tövsiyələrini təqdim edərkən lazımi peşəkar tərəfsizliyi nümayiş etdirməlidir. Digər şirkətlərlə rəqabət prosesində və qərarlarında təşkilat heç bir ayrı-seçkilik olmadan maraqlı tərəflərə bərabər qalır və qərarlarını faktların konkret halları və onların araşdırmalarında əldə edilmiş sübutlar və tapıntılarla əsaslandırır.

**- Qanun və proqnozlaşdırma.** Rəqabətdə qabaqcadan məlumatların toplanaraq proqnozun hazırlanması və bu proqnozun qanuni olması, yəni şirkətin müəyyən səviyyəli bilik və təcrübə ilə düzgün və adi bir vəziyyətdə nə baş verə biləcəyini bilməsi, qanunla nəzərdə tutulmuş qaydalara və qərarlara uyğun şəkildə əməl edərək, düzgün qəbul edilmiş qanunlara uyğun şəkildə hərəkət edərək, qanununvericiliyin universal prinsipləri çərçivəsində hazırlanan qanunlarla qadağan olunan və cəzalandırılan məsələləri anlamaq və tətbiq etmək. Bu, sığorta şirkətləri arasında azad rəqabətin mənbəyidir. Qanunun aliliyi qanunu və onun icrasını qoruyur. Bazar iqtisadiyyatı şəraitində hər nə qədər azad ideyalar əsasında formalaşdırılmış olsa da, rəqabətdə haqsızlığın önünü kəsmək üçün sığorta təşkilatları bu prinsipə uymalıdır. Təşkilat buna görə də işlərini prinsip və prosedurlar baxımından ardıcıl tutmağa çalışaraq özünə verilən qanuni vəzifələri yerinə yetirir. Rəqabət siyasətinə və hüquqi qaydalara uyğun olaraq, qlobal inkişafa, sərbəst bazar prinsiplərinə, rasional səbəblərə və konkret məlumatlara uyğun olaraq, ən rəqabətli və ən yaxşı bazar şərtlərini nəzərə alaraq bir proqnozlarla tətbiq sxemi yaradır.

**- Rəqib sığorta şirkətlərini və sadiq müştəriləri tədqiq etmək.** Rəqabətdən qorxmaq əvəzinə ondan rəqibləri öyrənmək vasitəsi kimi istifadə edilməsi və rəqabətə görə biznes modelinin qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Sığorta şirkətləri rəqiblərinin güclü və zəif tərəflərini öyrənməlidir. Güclü tərəfləri və zəiflikləri bir üstünlük olaraq istifadə edilməlidir. Hədəf bazarın rəqabət mühitini təsvir etmək və təhlil etmək üçün ixtisaslaşmış şirkətlərin məlumatlarından istifadə edilməsi əhəmiyyətlidir. Rəqib sığorta şirkətlərindən öyrənilənlər sığorta bazarında üstünlük təmin edərək rəqabət avantajını təkmilləşdirməyə kömək edəcəkdir. Ətraflı müştəri məlumatları rəqabət məlumatları kimi vacibdir. Sığorta müştərilərinin portfelinin dərin bir anlayışına sahib olmaq, gəlir potensialını artırmaq, müştərilərin saxlanma şansını artırmaq və müştərilərin sayını artırmağa kömək edəcəkdir. Sığorta bazarında yerini və rəqiblərinin yerini qiymətləndirmək üçün bir çox alətlər və üsullardan istifadə edilməsi məqsədəuyğundur. Bu alətlərdən biri "iqtisadi xəndək" yaradılmasıdır. İqtisadi xəndək ifadəsi Warren Buffet tərəfindən istifadə edilən bir termindir və qısaca, rəqibin digər şirkətdən nüsxəsini ala bilməyəcəyi bir xidmət və ya məhsula aiddir. Bazara daxil olmaq və marketinq payını almaq istəyən rəqiblərdən istifadə etmək üçün iqtisadi xəndəkdən faydalanmaq məqsədə uyğun hesab edilir. Bu yolla, sığorta şirkətləri işilərini gücləndirəcək və mənfəət potensialını qoruyacaqdır.

**- Rəqabət üstünlüyünü qorumaq.** Sığorta bazarında hər bir şirkət rəqabət üstünlüyü qazandıqdan sonra da işə davam etmək məcburiyyətindədir. Uğurlu olmaq üçün hər bir şirkət rəqabət üstünlüyünü davamlı olaraq inkişaf etdirməli və təkmilləşdirməlidir. Nəticədə, rəqiblərdən geri qalmayacaq və sığorta bazarında böyük paya sahib olacaqdır. Sektorun gələcək tendensiyalarını gözləyərək, rəqibləri müşahidə edərək, müştərilərin ehtiyaclarına və istəklərinə uyğunlaşaraq, davamlı tədqiq edərək, rəqabət qabiliyyətini davam etdirmək olar. Bəzən şirkətlərin əksəriyyəti qabağına çıxacaq olan maneələr və fərqlilik yaratmaq üçün risk ala bilər və bəzən böyük risklər böyük miqdarda mənfəətə səbəb ola bilər.

**- Sığorta şirkətinin adının markalanması.** Yeni şirkətlər sığorta bazarına daxil olduqda, bazar payında azalma olacaq. Ancaq bu bəzi sığorta şirkətlərinin xeyri üçündür. Hər bir sığorta şirkəti müxtəlif müştəri bazasına malikdir. Bir şirkətin bütün insanları eyni cür sığorta növü üzrə hərtərəfli təmin etməsi vacib məsələlərdəndir. Buna görə, ən yaxşı rəqabət üstünlüyü üçün hər bir sığorta növü üzrə təminatı yaxşı müəyyən etmək və insanlara cəlbedici təkliflər verməkdir. Bazar iqtisadiyyatı şəraitində əgər şirkətin fərqli bir xüsusiyyəti yoxdursa, iflasın kənarında hesab edilir. Rəqabətdən düşməmək üçün seçici olmaq vacibdir. İnsanlar başqa bir sığorta şirkətində sığorta etdirərkən, onların ağıllarında olmaq lazımdır. İnsanlarda tərəddüd yaradacaq bir sığorta şirkəti olmaq isə, onlar sığortalarını məhz bu sığorta şirkətinə etməzlərsə nə itirdiklərini düşünməsini ifadə edir. Sığorta məhsulları mahiyyətinə görə mürəkkəb quruluşa malik olduqları üçün sığorta şirkətləri arasındakı rəqabət dərəcəsini məhdudlaşdırır. Sözügedən mürəkkəblik fərdi və korporativ sığorta

müştərilərinin tələblərinə, hansı sığorta məhsulu əldə etmək prinsiplərinə, sığortaçının nüfuzuna və zərərləri ödəmək qabiliyyətinə aid bir çox məsələlərdə təsir göstərir. Bu mürəkkəbliyi aydınlaşdırmaq, sığorta müştərilərinə sığortanı izah etmək və satmaq vəzifəsi isə məhz sığorta şirkətlərinin öhdəliyinə aiddir. Sığorta şirkətləri arasındakı rəqabətin əsas ünsürlərindən biri isə sığorta vasitəçiləridir. Sığorta vasitəçiləri müştərilərə uyğun sığorta şirkətlərindən ən uyğun alacağı məhsulları müəyyənləşdirməyə kömək edir. Əlbəttə ki, bu funksiyalar sığorta bazarında rəqabəti artırır. Sığorta bazarında rəqabətin iki ölçüsü vardır: şirkətlər arası rəqabət və vasitəçilər arasında rəqabət. Sığorta şirkətləri arasında rəqabət daha çox rast gəlinən rəqabət növüdür və tədqiqatda daha çoxdur, sığorta vasitəçiləri arasında rəqabət isə daha az müşahidə edilən rəqabət növüdür. Ümumiyyətlə, sayları vasitəçilərlə müqayisədə çox olan sığorta şirkətləri sarsıdıcı şəraitdə rəqabət aparır və mikroiqtisadi cəhətdən rəqiblərin sayı ilə əlaqədar olaraq rəqabət artımının güclü nəzəri əsaslarına malikdirlər. Vurğulamaq lazımdır ki, Azərbaycanda sığorta şirkətlərinin xidmətləri dünyanın birçox inkişaf etmiş ölkələrinin iqtisadiyyatında ən vacib sektorlar sırasındadır və ölkə iqtisadiyyatında böyük paya sahib olan və dəyər yaradan sahələrdən biridir. Sığorta sahəsi bir xidmət sferası olmaqla, əhalini daimi olaraq baş verəcək qəzalardan və uğursuz hadisələrdən yarana biləcək itkilərdən, zərərlərdən qoruyur. Dünyadakı bir sıra inkişaf etmiş ölkələrdə insanlar başqa toplumlardan fərqli olaraq, baş verəbiləcək zərərlərin olması ehtimalını başa düşərək sığortaya məcburi deyil könüllü olaraq müraciət edirlər. Dünyanın ən aparıcı ölkələrindən olan sığorta sahəsi üzrə ekspertlər sığorta şirkətlərinin inkişafını, onların rəqabət mühitinin formalaşmasını və ya konkret olaraq hər hansı bir ölkənin sığorta bazarının həcminin həmin ölkənin ÜDM-də yer alan payını 44 faiz nisbətilə hansı miqdarda az və ya çox olmasının həmin ölkənin sığorta bazarının inkişafı ilə, bundan başqa ölkədə yaşayan cəmiyyət üzvlərinin sığortaya olan münasibəti ilə birbaşa əlaqələndirirlər. Azərbaycanda əsas məqsəd qeyri-neft ÜDM-ində sığorta yığımlarının payını 8%-ə çatdırmaqdır. 2018-ci ildə bu pay cəmi 0,8 faiz təşkil edir. Bizim strateji məqsədimiz bu göstəricini 8 faizədək artırmaqdır [1]. Azərbaycan Respublikasında hazırda iyirmidən çox sığorta şirkəti fəaliyyət göstərir. Bu sığorta şirkətlərinin fəaliyyətini təhlil edərkən bəzi göstəricilərinə görə bir birindən fərqləndiyini görmək olar. Azərbaycanda sığorta şirkətlərinin işçi və əməkdaş sayı təhlil zaman əməkdaşlarının sayına görə Azərbaycan Respublikasının ən böyük sığorta şirkətləri "Azərsığorta" Dövlət Şirkəti və "Azsığorta" ASC olduğunu görmək olar. Bu sığorta şirkətləri əməkdaşlarının sayına görə, digər sığorta şirkətləri ilə müqayisədə xeyli öndədir. Belə ki, dövlətə məxsus olan "Azərsığorta" şirkətinin 559 işçisi, "Azsığorta"nın isə 336 əməkdaşı var. Müqayisə zamanı görmək olar ki, sığorta şirkətlərində çalışan işçi sayına görə növbəti yeri tutan "Azərbaycan Sənaye Sığorta" şirkətinin işçilərinin sayı isə 132-dir. İşçi sayına görə sonrakı yerləri "Beynəlxalq Sığorta Şirkəti" (125), "Atasığorta" (119) və "Standard Insurance" (113) tutur [10]. Sığorta şirkətlərinin regionlardakı əməkdaşlarının sayına görə də "Azərsığorta" və "Azsığorta" liderlik edir. Yeri gəlmişkən, "Azərsığorta"nın 559 əməkdaşından 494-ü və ya 90%-i regionlardadır. "Azsığorta"da çalışan əməkdaşlarının yarıdan çoxu yəni - 172-si isə bölgələrdə çalışır. Sığorta sektorunda rəqabət maliyyə ehtiyyatlarının təkmilləşməsini və inkişafını təmin edir. Maliyyə inkişafı iqtisadiyyatda resursların düzgün şəkildə bölüşdürülməsinə imkan verir və kapital yığımını artırır. Kapital yığımını əldə edən sığorta şirkətlərinin mənbələri müxtəlif sahələrə sərmayə yatırır. Onlar ümumi sərvətdə əmanətlərin payını artırır və iqtisadi inkişafı təmin edirlər. Bu da iqtisadiyyatın əsas göstəricilərindən olan kreditin mühüm elementidir. Bundan əlavə, sığorta şirkətləri tədqiqat və inkişaf fəaliyyətləri nəticəsində müvafiq risk səviyyəsində effektiv şəkildə ölkələrinin sərvətlərinin inkişafında iştirak edirlər. Sosial təminat sisteminin yükünü azaldır və vergi gəlirlərini artırırlar. İqtisadiyyatın əsas problemlərindən sayılan işsizliyi azaldır. Maliyyə mənfəətini təmin edir, vətəndaşlara qarşı güvənilən həyat təminatı verərək kapital yığımına yardım edir və qənaəti artırır. Bu baxımdan ölkəmizdə hal-hazırda fəaliyyətdə olan sığorta bazarındakı şirkətlər bazar iqtisadiyyatı mühitində rəqabət prinsiplərinə uyğun olaraq sığorta gəlirlərinə görə müqayisə edərkən müxtəlif məqamlar ortaya çıxmış olur. Gəlirinə görə sığorta şirkətlərinin reytinqinə görə sığorta şirkətləri müqayisə edilərsə ən çox gəlirə sahib olan və siyahıda lider olan "Paşa Həyat Sığorta"dır və gəliri 152 757 723,26 AZN təşkil etmişdir.107 569 005,23 AZN gəlirlə "Paşa Sığorta", 40 444 876,00 AZN gəlirlə Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkəti isə siyahıda ikinci və üçünü yeri

tutmuşdur[11]. Ümumiyyətlə, sığorta gəlirərinin yüksək olması rəqabət baxımından hər bir sığorta şirkətini motivasiya edərək daha da bu rəqabəti gücləndirməsinə təkan verir. Buna görə də Azərbaycan Respublikasında fəaliyyət göstərən sığorta şirkətləri özlərinin sığorta gəlirlərini artırmaq üçün bir biri ilə rəqabət halındadırlar. Bilindiyi kimi, iqtisadiyyatda rəqabət şəraitində şirkətlərin hər birinin sahib olduğu aktivlər çox mühüm əhəmiyyətə malikdir. Ümumiyyətlə istər dünyada inkişaf etmiş ölkələrin, istərsə də ki inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatlarında şikətlərin sahib olduğu aktivlərin həcmi rəqabət üçün əsas göstəricilərdən biridir. Qeyd etmək lazımdır ki, aktivlər (assets) – mühasibat termini olub geniş mənada müəssisənin sahib olduğu bütün maddi varlıqları əhatə edir. Hər bir müəssisənin gücünü onun aktivlərinin həcmindən müəyyən etmək mümkündür. Ən çox aktivə sahib olan sığorta şirkətlərindən ilk üçü "Paşa Həyat Sığorta", "Paşa Sığorta", "Azsığorta"-dır. Sığorta şirkətləri aktivlərin artırılması strategiyasından istifadə edərək bazar iqtisadiyyatında böyük həcmdə paya və digər əhəmiyyətli üstünlüklərə (məsələn, cəmiyyətdə daha çox güvən qazanmaq), bundan əlavə sğorta xərcləri üzərində ciddi nəzarət sistemi quraraq gəlirlərin artırılmasına yönəlmək, xərcləri azaltmaq imkanından istifadə (məsələn reklam, servis, tədqiqat xərclərinin azaldılması) sahib olur. Demək olar ki, hər bir ölkədə minlərlə müstəqil sığorta agentliyi və nisbətən az sayda broker müştəri məmnuniyyəti anlayışı ilə sığorta məhsulları və xidmətləri təklif edir. Sığorta şirkətlərinin sayı onların konsentrasiyası sayəsində gündən-günə azalır və onların miqyası artsa da, çoxsaylı aktivi az olan şirkətlərin bazar məhdudiyyətlərinin zəif olduğunu göstərir. Bununla yanaşı, aktivlərinin həcmi artdıqca sığorta bazarlarındakı şirkətlərin rəqabət həcmi dayanmadan artır. Sığorta şirkətləri sığortaçılar zərərə uğradıqları zaman dəymiş zərərin maddi olaraq təmin edilməsi üçün sığorta olunan fiziki və ya hüquqi şəxslərə dəymiş zərərə uyğun olaraq ödənişlər edir. Bu ödənişləri daha dəqiq, zamanında və zərərə uyğun şəkildə edən sığorta şirkətləri cəmiyyətdə inam qazanaraq rəqabətdə digər şirkətlərdən önə keçir. Bilindiyi kimi sığorta şirkətlərinin rəqabətində cəmiyyətin inamını qazanmaq vacib əlamətlərdən biridir. Ümumiyyətlə 2019-cu il göstəricilərinə diqqət yetirdikdə Azərbaycanda fəaliyyət göstərən ümumi 21 sığorta şirkəti tərəfindən gerçəkləşdirilmiş ödənişlərin həcmi 258,119,658 manat təşkil etmişdir. Qeyd edək ki, Azərbaycanda fəaliyyətdə olan sığorta şirkətlərinin gəlirləri və xərcləri ilə yanaşı onların xalis mənfəəti də sığorta şirkətlərinin rəqabətinə təsir göstərir. Mənfəət yüksəldikcə sığorta şirkətləri motivasiya olur və fəaliyyətlərini daha da səmərəli şəkildə təşkil edərək rəqabətə davamlılıq prinsiplərinə uyğun şəkildə qururlar. Mənfəətin çox olması sığorta bazarında hər bir şirkətin rəqabət strategiyasını formalaşdırmağa təkan verir. Sığorta şirkətlərinin inkişafı və sığorta məbləğlərinin artımı birinci növbədə sığortaçıların diqqət mərkəzindədir. Sığorta şirkətləri hər ilin axırında gələcək il üçün xərclərlə bağlı büdcəsini və gələcəkdə görüləcək işlərin planını hazırlayarkən, eyni zamanda sığorta şirkətləri ilə bağlı maarifləndirmə tədbirlərini gələcək planına əlavə etməsi daha məqsədəuyğun hesab edilir. Bu planların dəqiq və düzgün bir şəkildə tərtib edilərək icra edilməsi sığorta şirkətləri arasındakı rəqabəti daha da gücləndirir [4]. Sığorta sektorunda xərclərin səmərəliliyinin təmin edilməsi və rəqabət qabiliyyətini artırmaqla bazar payının artırılması kimi səbəblərə görə konsentrasiya meyli güclənir. Xüsusilə inkişaf etmiş ölkələrdə, sığorta şirkətləri satış prosesində effektivliyi artırmaq üçün birləşirlər. Sığorta agentliklərinin müstəqil vasitəçilər içindəki sayı üstünlüyünə baxmayaraq, brokerlərin topdan və pərakəndə sığorta bazarlarında əhəmiyyətli üstünlüklərə malik olduğunu vurğulamaq olar. Bu tendensiya beynəlxalq sığorta bazarlarında, eləcə də milli sığorta bazarlarında da müşahidə edilir. Qeyri-neft sektoruna nəzər yetiridikdə sığorta və maliyyə bazarları sistemi bazar iqtisadiyyatının ən çox və davamlı inkişaf edən sahələrindən biridir. Diqqət etmək lazımdır ki, maliyyə xidmətlərinin təkmilləşdirilməsinə dair tədbirlərin mühüm bir hissəsi sığorta bazarının payına düşür. Öz spesfikliyi ilə fərqlənən sığorta sektoru azad bazar sərbəstliyinə əsaslansa da dövlət tənzimlənməsinə hər zaman ehtiyac duyulmuşdur. Təcrübə göstərir ki, dünya iqtisadiyyatının inkişafının bütün tarixi dövr ərzində iqtisadi münasibətlərin mövcud bazar sistemində dövlətin tənzimləyici roluna aid bəzi məsələlər elmi-ictimai fikrin hər zaman diqqət mərkəzində olmuşdur. Bir çox aparıcı iqtisadi məktəblərin (neoklassik, keynsçi, institusional) nümayəndələri iqtisadiyyatın dövlət tənzimlənməsinə dair fikirləri, onun məqsədi,funksiyaları,forması və digər məsələlər üzrə müxtəlif fikirlər bildirmişlər. İqtisadiyyatın dövlət tənzimlənməsi və onun tənzimləmə vasitələri arasında optimal olan nisbətin axtarılması

tarixən və indi bir sözlə hər zaman davam edir [3] Azərbaycan hökumətinin müasir iqtisadi inkişaf siyasəti ölkəmizin qeyri-neft sektorunun daim inkişafına yönəlmişdir. Ölkə iqtisadiyyatındakı, xüsusilə də qeyri-neft sektorunda iqtisadi artım, ölkəmizin bir tərəfdən davamlı inkişaf prespektivini yansıdır, bir tərəfdən də bu potensialı tam olaraq istifadə etmək üçün əlavə tədbirlərə ehtiyac duymaqdadır. 2019-cu ilin yanvar ayında ölkədə 5929,5 milyon manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,9 faiz çox ümumi daxili məhsul istehsal edilmişdir.[11]. İqtisadiyyatın neft sektorunda istehsal olunmuş əlavə dəyər 3,2 faiz, qeyri-neft sektorunda isə 2,7 faiz artmışdır. Bu faizin çox olması, ölkə iqtisadiyyatının inkişafının yeni dövrünün köklü əsaslarını və istiqamətlərini müəyyən edən konseptual proqramların həyata keçirilməsi zamanı qeyri-neft sektoruna hökumətin dəstəyinin nəticəsidir.Qeyri-neft sektorundakı xüsusi sığorta və maliyyə xidmətləri sistemi bazar iqtisadiyyatının davamlı və dinamik inkişaf edən sektorlarından biridir. Strateji Yol xəritəsi qlobal və maliyyə bazarlarının neftdən asılı olmayan sonrakı iqtisadi inkişaf modelinin çevik adaptasiyasını dəstəkləmək üçün maliyyə sektorunun hədəflədiyi yeni məqsədlər və imkanlar ilə hazırlanmışdır. Strateji Yol xəritəsi, 2020-ci ilə qədər strateji bir vizyon və fəaliyyət planı olmaqla, 2025-ci ilə qədər uzun müddətli bir dövr üçün baxış və 2025 il sonrası üçün böyük sahəni əhatə edən bir hədəf görünüşündən ibarətdir. Məlum olduğu kimi, maliyyə xidmətlərinin davamlı inkişafı və təkmilləşməsi üçün 5 strateji məqsəd və 16 prioritet hazırlanmışdır [1]. Qeyd etmək lazımdır ki, maliyyə xidmətlərinin yaxşılaşdırılması üzrə tədbirlərin əhəmiyyətli bir hissəsi sığorta bazarına daxil olur. Təkamülü ilə fərqlənən sığorta sektoru bazar azadlığına əsaslanır, lakin dövlət tənzimlənməsinə hər zaman ehtiyac vardır. Təcrübə göstərir ki, iqtisadi münasibətlərin formalaşmasında bazar sisteminin dövlət tərəfindən tənzimlənməsi ilə bağlı məsələ həmişə dünya iqtisadiyyatının inkişaf tarixində elmi ictimaiyyətin diqqət mərkəzində olmuşdur. Qabaqda gələn bir çox iqtisadiyyat məktəbinin nümayəndələri (neo-klassik, təşkilati, institusional), iqtisadiyyatın əsası, məqsədi, dövlət tənzimləməsinin şəkli və digər mövzularda fərqli görüşlər ortaya qoymuşdur. Dövlətin sığorta bazarlarının tənzimləyici sistemlərinin təhlili aydın şəkildə göstərir ki, maliyyə tənzimləmə vasitələrinin istifadəsi bu sistemlər əsasında istifadə olunur. Dövlətin maliyyə bazarını tənzimlənməsində əsas hədəfi cəmiyyətdə mövcud olan iqtisadi və sosail sabitliyin təmin edilməsi üçün milli sığorta bazarlarının davamlı və sağlam inkişafını təmin etməkdir. Davamlı iqtisadi inkişaf sahəsindəki yeni islahatların əsas məqsədləri və hədəfləri, əvvəlcə milli sığorta sisteminin gücləndirilməsi və maliyyə xidmətləri Strateji Yol xəritəsi tələbləri istiqamətində inkişaf etdirilməsidir. Sığorta bazarı seqmenti bazar iqtisadiyyatının ən sürətlə və davamlı inkişaf edən sahələrindən biridir. Milli iqtisadiyyatda sığorta payı getdikcə artmaqdadır. Son zamanlar, maliyyə bazarlarının əsas komponentlərindən biri olan sığorta sektoruna maraq artmışdır. Ölkədə sığorta bazarının yoxlanılması və tənzimlənməsi sahəsində əhəmiyyətli dəyişikliklər edilmişdir. 2018-ci il üçün müvafiq dövr ərzində ölkədə fəaliyyət gösdərən 21 sığorta şirkəti tərəfindən 728.0 mln. manat məbləğində sığorta haqları toplanıb, 240.3 mln. manat məbləğində sığorta ödənişi həyata keçirilmişdir. [7]. Strateji Yol xəritəsində sığorta haqda məlumat verildiyi kimi, ölkəmizdəki sığorta sektorunun inkişaf səviyyəsi kifayət deyil. Kəmiyyət və keyfiyyətcə inkişaf üçün belə bir səviyyənin artmasına böyük ehtiyac vardır. Ölkə başçısı İlham Əliyevin müəyyən etdiyi müasir yüksək sürətli dinamik inkişaf istiqaməti, milli iqtisadiyyatımızı davamlı inkişaf prosesilə yanaşı, yerli investisiyalardan əlavə xarici investisiyaların ölkəyə axınını da sürətləndirir. Prezidentin təşəbbüsünə əsasən sahibkarlıq fəaliyyəti ilə yaradılan müsbət sosial-iqtisadi mühit, onun müsbət nəticələrini daha da artırır. Dünyanın bir çox ölkəsində səhiyyə məcburi tibbi sığorta vasitəsilə maliyyələşdirilir. Bəzi ölkələrdə isə Sovet dövründə işləyən model - sağlamlıq xidmətləri tamamilə pulsuzdur və bütün xərclər dövlət tərəfindən tamamilə ödənilməsi prosesi vardır. Məsələn, bu Norveç, İngiltərə sistemidir. Ancaq bəzi ölkələrdə dövlət və bələdiyyə sağlamlıq sistemləri azaddır və özəl sağlamlıq xidmətləri tam ödənilir. Ən yaxşısı isə məcburi tibbi sığorta modeli, həm özəl, həm də bələdiyyə qurumları məcburi tibbi sığorta vasitəsilə maliyyələşdirilə bilər. Bu gün Azərbaycanda icbari tibbi sığortanın tətbiqində heç bir rəqabət problem yoxdur və bu sahədə rəqabət çərçivəsi olduqca yaxşıdır. Azərbaycanda sığorta qanunvericiliyinin yaxşılaşdırılmasının davam etməsi, sığorta şirkətləri arasındakı rəqabət üzərindəki nəzarətin yaradılması, sığorta müqaviləsinin imzalanmasından sonra sığorta sənədlərinin imzalanması və sığorta sənədlərinin imzalanmasından

sonra nələrə diqqət edilməsi lazım olduğu, sığorta məzmunu və sığortalı haqq və öhdəliklərinin müəyyənləşdirilməsi bu məqsədlə təcrübə hazırlanması və sığorta sistemi daim təkmilləşdirilməsi baxımından olduqca faydalıdır. Əsas məqsəd, sığorta sektorunun maliyyə qaynaqlarını artırmaq və milli iqtisadiyyatın davamlı inkişafı kontekstində rəqabət çərçivəsini, sığorta fəaliyyətinin nəzəri, praktiki, metodoloji və konseptual araşdırması əsasında rəqabət qabiliyyətliyinin gücləndirilməsidir. Hədəfinə çatmaq üçün milli iqtisadi inkişaf modelinin davamlılığını sığorta sisteminin əhəmiyyətinin müəyyən edilməsi, xarici ölkələrin sığorta xidmətlərinin təşkili mövzusundakı təcrübələrinin öyrənilməsi, GZIT (güclü, zəif, imkanlar, təhlükələr ) analizinə əsaslanaraq milli sığorta xidmətləri bazarının rəqabət və tənzimləmələrinin xüsusiyyətlərini qiymətləndirmək, dərinliklərə kompleks çalışması bir zərurətdir . Bu gün, ölkəmizdəki milli sığorta şirkətləri, ən fəal maliyyə sistem olduqları üçün maliyyə bazarların rəqabət çətinlikləri ilə qarşılamalı və yeni yerlər, yeni texnologiyalar əldə etməlidir. Çünki müasir zamanlarda maliyyə xidmətləri daha çox elektornlaşdırılır, bir başqa deyişlə, oflayn sistemdən online vəziyyətinə keçirlər. Rəqəmsallaşdırma, texnologiyaya yönəlmə kimi proseslərdən sığorta sistemi geridə qalabilməz. Sığorta mükafatı sığorta gəlirlərinin əsas elementidir. Sığorta mükafatı sığorta xidmətinin həyata keçirilə bilən dəyəri hesab olunur. Sığorta şirkətlərinin sığorta mükafatlarının yığılması bir sıra obyektiv faktorlarla müəyyən edilir. Bunlara konyuktura vəziyyəti, inflyasiya səviyyəsi, hüquqi bazası, vergi sistemi, sığorta bazarının rəqabət qabiliyyəti, bank faiz dərəcələrinin dinamikası, sosial müdafiə ilə bağlı inkişaf səviyyəsi və s. Sığorta xərcləri və ödəniş xərcləri sığorta iş prinsipi əsasında ümumi xərclərin 70-80% -ni təşkil edir. Bu mühüm göstərici sığorta tərəfdaşlarının sığorta əlaqələrini, bazar şərtlərini, sığorta növlərinin hər birində zərərin dərəcəsini, il ərzində bazar zərərini və sığorta şirkətlərinin öhdəliklərini necə yerinə yetirdiyini izah edir. Statistik araşdırmalar göstərir ki, 2019-ci ilin yanvar-iyul ayları ərzində müvafiq toplanan sığorta haqları 2018-ci ilin müvafiq müddəti ilə müqayisədə 46% artması deməkdir.[7] Bu tendensiya əlbəttə qəbul edilə bilər. Çünki son dövrlərdə daha çox sığorta tədiyyəsi, eyni zamanda daha çox sığorta polisi, həmçinin daha çox sığorta predmeti, bulardan əlavə daha çox sığorta hadisəsini ifadə etdiyindən sığorta mükafatlarının artımı, həmçinin sığorta məbləğlərinin artacağını hədəfləməyə əsas verir. Bu zaman, daha çox sığorta riskinin baş verməsi hadisəsi sığorta ödənişlərinin də öz növbəsində artmasına gətirib çıxarır. Azərbaycanın milli sığorta bazarı müasir standartlar, ehtiyaclar və bütövlükdə dünyadakı maliyyə bazarında dəyişikliklər nəticəsində intensiv inkişaf edir. Son illərdə Azərbaycanda milli sığorta bazarının qurulması prosesi daha yüksək səviyyədə hərəkət edir. Ölkənin iqtisadiyyatının davamlı və sabit inkişafı kontekstində sığorta sisteminin davamlı inkişafı rəqabət mühitinin formalaşması ilə izlənilir. Sığorta şirkətlərinin maliyyə sabitliyini davamlı təmin etmək adına sığorta şirkətlərinin mövcud nizamnamə kapitalı davamlı olaraq artır. Müasir dünyada pul vəsaitlərinin hərəkətinin effektiv idarə olunması əsasən şirkətlərin və ümumi sığorta bazarının inkişafından asılıdır. Milli sığorta bazarının dünya sığorta sistemi ilə uyğun bir şəkildə inteqrasiyasını təmin etmək üçün, ilk növbədə, ölkənin sığorta sistemində dərin keyfiyyət dəyişikliyinə nail olunması lazımdır. Müasir qloballaşan iqtisadiyyatda dünyaya inteqrasiya prosesində Azərbaycanda sığorta sektorunda rəqabət mühitinin təkmilləşdirilməsi rolunu müəyyən etmək lazımdır. Ölkəmiz həm iqtisadi, həm də sosial cəhətdən inkişaf dövründə unikal bir yerə malikdir. Bu gün ölkəmizin qlobal iqtisadi sistemə inteqrasiyası sığorta sektorunda rəqabət mühitinin təkmilləşdirilməsi üçün çox vacibdir. Qeyd etmək lazımdır ki, Azərbaycanın sığorta sektorunun azad bazar iqtisadiyyatı ilə üzləşdiyi iqtisadi transformasiyanın məqsədi vardır. Lakin, hər halda, hədəf özəl əmlaka əsaslanan sığorta sektorunda rəqabət mühiti üçün azad bazardır. Lakin sığorta bazarının mövcudluğu onun yüksək səviyyədə fəaliyyət göstərməsi mənasına gəlmir. Buradakı əsas hədəf Azərbaycanın sığorta sektorunda mövcud rəqabət mühitini gücləndirmək və respublikamızda fəaliyyət göstərən sığorta şirkəklərində rəqabət mühitini təkmilləşdirməkdir. Sığorta sektorunda rəqabət mühitinin təkmilləşdirilməsində diqqət yetirilməsinə lazım olan ünsürlərdən biri sığorta vasitəçiləridir. Sığorta vasitəçilərinin əsas vəzifəsi müəyyən sığorta növünün ən uyğun sığorta şirkətindən ən uyğun qiymətə əldə edilməsini təmin etməkdir. Bu məqsədlə, müştərilərinin şəxsi ehtiyaclarını təsbit edib ən uyğun sığortanı təklif edən və müqavilə əvvəli lazımlı açıqlama edən sığorta vasitəçisi, müqavilənin imzalanmasından sonra da müştəriləri ilə maraqlanmaqda və çoxu zaman riskin reallaşması halında təzminat üçün lazımlı əməliyyatları

təqib etməkdədir. Sığorta sektoru hər bir inkişaf etmiş bazarda iqtisadi artımın əsas mənbələrindən biridir. Sığorta şirkətlərinin əsas prioriteti və rəqabət mühitində üstünlük əldə etməsinin yolu sığorta olunanların sayını artırmaqdır. Sığortalıların sayını artırmaq və bununla birlikdə topladığı pulun miqdarını artırmaq üçün sığorta şirkətləri sığortalananlara çatmaq üçün müxtəlif yollardan istifadə edirlər. Həqiqətən, sığorta əməliyyatlarının aparılması, ictimaiyyətin görüşünə və müsahibələrin sonunda sığortanın faydalarına inanmağından böyük dərəcədə asılıdır. Sığorta xidmətlərinin öz xüsusiyyətləri ilə sığorta şirkətinin özü tərəfindən yerinə yetirilməsi və birbaşa əlaqə qura bilməsi bugünkü iş həyatında çox çətin və ya hətta imkansızdır. Bu vəziyyət sığorta şirkətlərinin öz təşkilatlarından və filiallarından kənarda bir təşkilatın ehtiyaclarına səbəb oldu. Bu tələbin aradan qaldırılması yalnız sığortaçıları və onları geniş sahələrdə sığortalamaq üçün mühüm funksiyanı təmin edən sığorta vasitəçiləri vasitəsilə mümkündür. Sığortaçıları və sığorta etmək istəyənlər tərəfindən sığorta bazarlarında xidmətlərinə ehtiyacı olan sığorta vasitəçiləri, sığorta şirkətləri və müştərilərin köməyini təmin etmək funksiyası var. Bu səbəblə, sığorta sektoru ilə əlaqədar olaraq sığorta sektorunu inkişaf etdirmək və genişləndirməkdə peşəkar sığorta vasitəçilərinin qatqısı və sığorta xidmətlərinin əsas identifikatoru olduqca vacibdir. Bu istiqamətdə sığorta bazarının fəaliyyət mexanizminin modernləşdirilməsi həm dövlət, həm də sığortaçıların fəaliyyətini nəzərdə tutur. Xarici ekspertlər qeyd edirlər ki, dövlətin sığorta sənayesindəki rəqabət qabiliyyətli mühitinin təmin etməsi öhdəliyi elmi olaraq əsaslandırılmış, müvafiq yeni sığorta strategiyasını tələb edir. Bu strategiyanı həyata keçirmək üçün, ilkin olaraq, istehlakçı xidməti istehlakçılarının suverenliyi prinsipi irəli sürülməlidir və ikincisi sığorta bazarında həyata keçirilməsi üçün kifayət qədər təkrarsığorta təmin edilməlidir. Bu baxımdan, ilkin olaraq, sığorta şirkətləri arasında mövcud olan real rəqabət mühiti olmalıdır. Sığortalı maraqları sığorta şirkəti tərəfindən obyektiv reallıq kimi tanınır. Bu maraqların keyfiyyətini təmin etmək adına sığortaçılar arasındakı güclü rəqabət mühiti yaradılmalı və sığorta biznesinin diqqətçəkiciliyi artırılmalıdır. Təhlillər də göstərir ki, ölkədə sığorta bazarının inkişafında yavaşlamanın əsas səbəbi sığorta şirkətlərinin şəxsi mənbələri və sığorta bazarının mövcud ehtiyat tələblərimüasir bazar tələbələrinə cavab verməməsidir. Nəticədə, sığortaçılar əsas riskləri və məsuliyyətin əksəriyyətini üstələmək üçün uyğun vəziyyətdə deyillər. Bu səbəbdən, böyük həcmli maliyyə axınlarını birja dövrünə keçirmələri lazımdır. Ümumiyyətlə, ölkəmizdəki sığorta sisteminin inkişafı istqamətləri və Azərbaycanın sığorta şirkətlərinin rəqabətə davamlılıqının müasir şəraitdə inkişaf meylləri aşağıdakılardır : - Ölkədə sığortçıların sığorta, maliyyə, iqtisadi və investisiya fəaliyyətinin əsas aspektləri və ölkənin sığorta şirkətlərinin rəqabət mühitinin yaxşılaşdırılması yolu ilə sığorta şirkətləri üzərində effektiv dövlət nəzarətinin təkmilləşdirilməsi. - Beynəlxalq sığorta bazarının tendensiyalarına əsaslanan milli sığorta şirkətlərinin rəqabət qabiliyyətliyində faktor kimi təkrarsığorta təşkilatının davamlı inkişaf perspektivlərini müəyyən etmək; - Milli sığorta şirkətlərinin uçot və statistika üzrə müvafiq rəqabət mühitinə uyğun maliyyə strategiyası, proqnozlaşdırılması və büdcəsinin hazırlanması; - Sığorta ehtiyatlarına və kapitala investisiya qoyuluşlarının effektivliyini artırmaq; - Sığorta məhsulları barəsində ictimaiyyətin məlumatlandırılmasını təmin etmək üçün kütləvi informasiya vasitələri ilə daha effektiv və intensiv iş; - Sığorta təhsili, seminarlar və təlim mərkəzlərinin inkişafı, sığorta üzrə elmi tədqiqatların aparılması, elmi nəşrlərin hazırlanması, sığorta ilə bağlı dərslik və digər elmi materialların genişləndirilməsi. Bundan əlavə, yeni mühitdə sığorta sektorunun tənzimlənməsi prinsipləri, sığorta bazarının strukturlaşdırılması, sığorta sektorunda monopoliya tendensiyalarının aradan qaldırılması, müştərilər arasında sığorta xidmətlərinin çeşidinin genişləndirilməsi və keyfiyyətin əhəmiyyətli dərəcədə artması vacibdir.

## Nəticə

Azərbaycan hökumətinin müasir iqtisadi inkişaf siyasəti ölkəmizin qeyri-neft sektorunun daim inkişafına yönəlmişdir. Ölkə iqtisadiyyatındakı, xüsusilə də qeyri-neft sektorunda iqtisadi artım, ölkəmizin bir tərəfdən davamlı inkişaf prespektivini yansıdır, bir tərəfdən də bu potensialı tam olaraq istifadə etmək üçün əlavə tədbirlərə ehtiyac duymaqdadır. Dövlətin maliyyə bazarının tənzimlənməsində əsas hədəfi cəmiyyətdə mövcud olan iqtisadi və sosail sabitliyin təmin edilməsi üçün milli sığorta bazarlarının davamlı və sağlam inkişafını təmin etməkdir. Davamlı iqtisadi inkişaf

sahəsindəki yeni islahatların əsas məqsədləri və hədəfləri, əvvəlcə milli sığorta sisteminin gücləndirilməsi və maliyyə xidmətləri Strateji Yol xəritəsi tələbləri istiqamətində inkişaf etdirilməsidir. Sığorta bazarı seqmenti bazar iqtisadiyyatının ən sürətlə və davamlı inkişaf edən sahələrindən biridir. Milli iqtisadiyyatda sığorta payı getdikcə artmaqdadır. Sığorta şirkətləri ölkənin iqtisadiyyatına artan sərmayələrin təsirindən, ayrı bir sektor yaratmaqda və yeni iş yerləri yaratmaqla birlikdə və işzilik səviyyəsinin minimum səviyyəyə endirməklə, işsizliyi aradan qaldıraraq mühüm fəlakətlərin aradan qaldırılmasına və məşğulluğun artmasına səbəb olur. Azərbaycanda sığorta sektorunun qarşı-qarşıya olduğu çətinliklər və sektorun inkişaf etmiş ölkələrin gerisində nəticələr əldə etməsi bu sahəyə bağlı daha bir çox işin görülməsi lazım olduğunu göstərir.

**Vüqar Qənbərov**

**Sığorta şirkətlərinin rəqabətə davamlılığının qiymətləndirilməsi**

**Xülasə**

Məqalədə sığorta şirkətlərinin sığorta fəaliyyətinin əhəmiyyəti göstərilir. Sığorta fəaliyyətinin tənzimlənməsində sığorta şirkətlərinin və dövlətin rolu qeyd olunur. Məqalədə dövlətin bu sahənin inkişafı üçün qəbul etdiyi qanun layihələri öz əksini tapmışdır. Sığorta şirkətlərinin rəqabət qabiliyyətinin artırılması imkanları təhlil edilir. Sığorta şirkətlərinin ölkə daxilində və xaricdəki rəqabət imkanları və fəaliyyəti göstərilir. Sığorta şirkətlərinin gəlirləri müxtəlif dövrlər üzrə müqayisəli şəkildə təhlil edilmişdir. Sığorta şirkətlərinin rəqabət qabiliyyətinin artırılması yolları göstərilir və müəyyən təkliflər verilir.

**Вугар Ганбаров**

**Оценка конкурентоспособности страховых компаний**

**Резюме**

В статье показано значение страхования деятельности страховых компаний. Отмечена роль страховых компаний и государства в регулировании страховой деятельности. В статье отражены принятые государством законопроекты по развитию данной сферы. Проанализированы возможности повышения конкурентоспособности страховых компаний. Указаны конкурентные возможности и деятельность страховых компаний в стране и за рубежом. Сравнительно анализируется доход страховых компаний за разные периоды. Показаны пути повышения конкурентоспособности страховых компаний и внесены определенные предложения.

**Vugar Ganbarov**

**Assessing the competitiveness of insurance companies**

**Summary**

The article shows the importance of insurance activities of insurance companies. The role of insurance companies and the state are noted in the regulation of insurance activities. The article reflects the bills adopted by the state for the development of this area. The possibilities of increasing the competitiveness of insurance companies are analyzed. Competitive opportunities and activities of insurance companies in the country and abroad are indicated. The income of insurance companies is analysed comparatively for different periods. The ways of increasing the competitiveness of insurance companies are shown and certain proposals are made.

## Ədəbiyyat

1. ”Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi” 2020-2025
2. Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının icmal göstəricilər 2016 - 2019.
3. Xankişiyev B. Sığorta fəaliyyətinin əsasları. Bakı 2006.
4. Xudiyev N.N. Sıgorta isi .Bakı ,2003

5. Xanhüseyn Kazımlı, İbrahim Quliyev, İqtisadi risklərin qiymətləndirilməsi və idarə edilməsi. Bakı - 2011.
6. www.isb.az
7. www.stat.gov.az
8. www.google.com
9. www.Fimsa.az
10. www.atasigorta.az
11. www.banco.az

Məqalə redaksiyaya daxil olmuşdur: 22.09.2021
Təkrar işlənməyə göndərilmişdir: 27.09.2021
Çap üçün qəbul olunmuşdur: 19.11.2021

***2021-Cİ İLİN YANVAR-SENTYABR AYLARININ YEKUNU ÜZRƏ ÖLKƏNİN SOSİAL-İQTİSADİ İNKİŞAFINA DAİR GÖSTƏRİCİLƏR***

## MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR

| Göstəricinin adı | 2021-ci ilin yanvar-sentyabr ayları, faktiki | 2021-ci ilin yanvar-sentyabr ayları 2020-ci ilin yanvar-sentyabr aylarına nisbətən, faizlə | Məlumat üçün 2020-ci ilin yanvar-sentyabr ayları 2019-cu ilin yanvar-sentyabr aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| A | 1 | 2 | 3 |
| **Ümumi daxili məhsul, milyon manat** | **62 877,4** | **104,8** | **96,1** |
| o cümlədən | | | |
| qeyri neft-qaz ÜDM | 40 204,7 | 106,2 | 97,6 |
| **Əhalinin hər nəfərinə düşən ÜDM, manat** | **6 279,0** | **104,3** | **95,3** |
| **Sənaye məhsulu, milyon manat** | **36 558,3** | **104,5** | **95,5** |
| o cümlədən | | | |
| qeyri neft-qaz sənayesi | 10 804,5 | 119,6 | 110,8 |
| **Əsas kapitala yönəldilmiş vəsaitlər, milyon manat** | **9 560,2** | **91,3** | **96,2** |
| o cümlədən qeyri neft-qaz sektoruna | 5 526,4 | 92,0 | 85,9 |
| ondan qeyri neft-qaz sənayesinə | 1 041,1 | 98,0 | 75,9 |
| **Kənd təsərrüfatı məhsulu, milyon manat** | **7 342,1** | **105,0** | **101,5** |
| o cümlədən: bitkiçilik | 3 989,4 | 107,3 | 100,1 |
| heyvandarlıq | 3 352,7 | 102,6 | 103,1 |
| **Nəqliyyat sektorunda yük daşınması, milyon ton** | **140,3** | **99,8** | **81,5** |
| **Nəqliyyat sektorunda sərnişin daşınması, milyon sərnişin** | **838,9** | **90,0** | **62,6** |
| **İnformasiya və rabitə xidmətləri, milyon manat** | **1 699,3** | **105,7** | **102,7** |
| **Pərakəndə ticarət dövriyyəsi, milyon manat** | **30 350,1** | **102,8** | **98,4** |
| **Əhaliyə göstərilən ödənişli xidmətlər, milyon manat** | **5 402,7** | **104,6** | **74,3** |
| **Dövlət büdcəsinin gəlirləri, milyon manat** | **17 871,6** | **99,5** | **106,5** |
| **Dövlət büdcəsinin xərcləri, milyon manat** | **17 711,9** | **95,0** | **111,7** |
| **Dövlət büdcəsinin profisiti, milyon manat** | **159,7** | **x** | **x** |
| **Əhalinin nominal gəlirləri, milyon manat** | **42 251,7** | **102,0** | **98,7** |

| A | 1 | 2 | 3 |
|---|---|---|---|
| **Əhalinin hər nəfərinə düşən nominal gəlirlər, manat** | **4 219,3** | **101,5** | **97,9** |
| **Əhalinin banklardakı əmanətləri, 2021-ci il 01 oktyabr vəziyyətinə, milyon manat** | **8 838,1** | **112,8** | **91,0** |
| **Kredit qoyuluşları, 2021-ci il 01 oktyabr vəziyyətinə, milyon manat** | **15 957,3** | **107,3** | **104,4** |
| o cümlədən | | | |
| vaxtı keçmiş kreditlər | 871,1 | 81,5 | 74,1 |
| **Orta aylıq nominal əməkhaqqı, manat** | **723,2** | **102,3** | **117,1** |
| **İstehlak qiymətlərinin indeksi** | **x** | **105,7** | **102,8** |
| **Əhalinin sayı, 2021-ci il 01 oktyabr vəziyyətinə, min nəfər** | **10 147,4** | **100,3** | **100,7** |
| **Xarici ticarət dövriyyəsi[1], mlyn. ABŞ $** | | | |
| **faktiki qiymətlərlə** | **23 164,1** | **129,9** | **71,9** |
| **müqayisəli qiymətlərlə** | **x** | **96,8** | **78,1** |
| o cümlədən: **ixrac** | | | |
| faktiki qiymətlərlə | 14 819,6 | 148,1 | 69,4 |
| müqayisəli qiymətlərlə | x | 103,9 | 90,3 |
| ondan **qeyri-neft ixracı** | | | |
| faktiki qiymətlərlə | 1 809,1 | 141,1 | 90,7 |
| müqayisəli qiymətlərlə | x | 128,7 | 81,8 |
| idxal | | | |
| faktiki qiymətlərlə | 8 344,5 | 106,7 | 75,4 |
| müqayisəli qiymətlərlə | x | 87,8 | 61,3 |

**Qeyd:**

[1] Hesabat dövründə gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyərinə dair məlumatlar nəzərə alınmaqla.

## ÜMUMİ DAXİLİ MƏHSUL İSTEHSALI

milyon manat

| | Yanvar-sentyabr | | 2021-ci ilin yanvar-sentyabr ayları əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| | 2021 | 2020 | |
| **Ümumi Daxili Məhsul** | **62877,4** | **52344,3** | **104,8** |
| o cümlədən:<br>Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 4359,4 | 4058,3 | 105,1 |
| Sənaye | 25212,6 | 17856,0 | 103,9 |
| o cümlədən:<br>mədənçıxarma sənayesi | 20399,9 | 14083,4 | 99,6 |
| emal sənayesi | 4029,3 | 3088,3 | 122,4 |
| elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 639,8 | 565,7 | 105,6 |
| su təchizatı, tullantıların təmizlənməsi və emalı | 143,6 | 118,6 | 112,9 |
| Tikinti | 3270,1 | 3339,0 | 96,3 |
| Ticarət və nəqliyyat vasitələrinin təmiri | 6451,3 | 5830,1 | 104,0 |
| Nəqliyyat və anbar təsərrüfatı | 4474,6 | 3727,4 | 111,9 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 702,8 | 580,0 | 118,8 |
| İnformasiya və rabitə | 1124,9 | 1064,1 | 105,7 |
| Digər sahələr | 11540,9 | 10643,2 | 104,6 |
| **Məhsula və idxala xalis vergilər** | **5740,8** | **5246,2** | **107,3** |

## MALİYYƏ MƏNBƏLƏRİ ÜZRƏ ƏSAS KAPİTALA YÖNƏLDİLMİŞ VƏSAİTLƏR

| | 2021-ci ilin yanvar-sentyabr aylarında, milyon manat | Əvvəlki ilin müvafiq dövrünə nisbətən (müqayisəli qiymətlərlə), faizlə | Ümumi yekunda xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **9560,2** | **91,3** | **100,0** |
| o cümlədən:<br>Müəssisə və təşkilatların vəsaitləri | 5437,9 | 87,5 | 56,9 |
| Bank kreditləri | 602,3 | 90,5 | 6,3 |
| Büdcə vəsaitləri | 2128,0 | 90,1 | 22,3 |
| Büdcədənkənar dövlət fondlarının vəsaitləri | - | - | - |
| Əhalinin şəxsi vəsaiti | 681,1 | 100,5 | 7,1 |
| Sair vəsaitlər | 710,9 | 195,3. | 7,4 |

## İQTİSADİYYATIN SAHƏLƏRİ ÜZRƏ ƏSAS KAPİTALA YÖNƏLDİLMİŞ VƏSAİTLƏRİN DƏYƏRİ

| İqtisadiyyatın sahələri | 2021-ci ilin yanvar-sentyabr aylarında, milyon manat | Əvvəlki ilin müvafiq dövrünə nisbətən (müqayisəli qiymətlərlə), faizlə | Ümumi yekunda xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **9560,2** | **91,3** | **100,0** |
| **Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq** | **278,4** | **103,1** | **2,9** |
| **Sənaye** | **5074,9** | **91,8** | **53,1** |
| o cümlədən: | | | |
| Mədənçıxarma sənayesi | 3457,4 | 83,3 | 36,2 |
| Emal sənayesi | 1360,8 | 149,3 | 14,2 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 199,2 | 88,0 | 2,1 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 57,5 | 24,3 | 0,6 |
| **Tikinti** | **1781,1** | **83,1** | **18,6** |
| ondan mənzil tikintisi | 727,2 | 75,8 | 7,6 |
| **Ticarət; nəqliyyat vasitələrinin təmiri** | **111,0** | **88,5** | **1,2** |
| **Nəqliyyat və anbar təsərrüfatı** | **1587,4** | **123,2** | **16,6** |
| o cümlədən: | | | |
| nəqliyyat | 1587,1 | 123,2 | 16,6 |
| poçt və kuryer fəaliyyəti | 0,3 | 46,1 | 0,0 |
| **Turistlərin yerləşdirilməsi və ictimai iaşə** | **87,3** | **148,0** | **0,9** |
| **İnformasiya və rabitə** | **69,6** | **54,4** | **0,7** |
| ondan rabitə | 67,0 | 55,9 | 0,7 |
| **Maliyyə və sığorta fəaliyyəti** | **16,5** | **43,3** | **0,2** |
| **Daşınmaz əmlakla əlaqədar əməliyyatlar** | **0,5** | **24,4** | **0,0** |
| **Peşə, elmi və texniki fəaliyyət** | **166,5** | **48,2** | **1,8** |
| **İnzibati və yardımçı xidmətlərin göstərilməsi** | **42,3** | **108,5** | **0,4** |
| **Dövlət idarəetməsi və müdafiə; sosial təminat** | **160,4** | **64,9** | **1,7** |
| **Təhsil** | **125,2** | **83,5** | **1,3** |
| **Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi** | **36,6** | **57,1** | **0,4** |
| **İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət** | **10,6** | **38,5** | **0,1** |
| **Digər sahələrdə xidmətlərin göstərilməsi** | **11,9** | **62,3** | **0,1** |

## PƏRAKƏNDƏ TİCARƏT DÖVRİYYƏSİNİN MƏHSULLAR ÜZRƏ STRUKTURU

| | **2021-ci ilin yanvar-sentyabr ayları, milyon manat** | **2021-ci ilin yanvar-sentyabr ayları 2020-ci ilin yanvar-sentyabr aylarına nisbətən, faizlə** |
|---|---|---|
| **Pərakəndə ticarət dövriyyəsi** | **30 350,1** | **102,8** |
| o cümlədən: ərzaq məhsulları, içkilər və tütün məmulatları | 16 406,3 | 102,4 |
| toxuculuq məhsulları, geyim və ayaqqabılar | 4 561,1 | 101,1 |
| elektrik malları və mebellər | 1 663,1 | 102,0 |
| kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsulları | 277,7 | 122,0 |
| əczaçılıq məhsulları və tibbi ləvazimatlar | 682,0 | 136,1 |
| avtomobil benzini və dizel yanacağı | 1 820,6 | 103,1 |
| digər qeyri-ərzaq malları | 4 939,3 | 101,4 |

## İQTİSADİYYATA KREDİT QOYULUŞU

| | **2021-ci il oktyabrın 1-i vəziyyətinə, milyon manat** | **Əvvəlki ilin eyni dövrünə nisbətən, faizlə** |
|---|---|---|
| **Kredit qoyuluşları – cəmi** | 15957,30 | 107,3 |
| o cümlədən: qısamüddətli | 2888,15 | 117,0 |
| uzunmüddətli | 13069,15 | 105,4 |
| Ödəmə vaxtı keçmiş kreditlər | 871,14 | 81,5 |
| Kreditlərin ümumi həcmində vaxtı keçmiş kreditlərin xüsusi çəkisi, faizlə | 5,5 | x |

## DÖVLƏT BÜDCƏSİNİN GƏLİRLƏRİ

| | **2021-ci ilin yanvar-sentyabr ayları, milyon manat** * | **yekuna görə faizlə** | **ÜDM-də payı, faizlə** |
|---|---|---|---|
| **Gəlirlər – cəmi** | **17948,6** | **100,0** | **28,55** |
| o cümlədən: Fiziki şəxslərin gəlir vergisi | 865,6 | 4,82 | 1,38 |
| Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 2283,5 | 12,72 | 3,63 |
| Torpaq vergisi | 28,2 | 0,16 | 0,04 |
| Əmlak vergisi | 139,4 | 0,78 | 0,22 |
| Əlavə dəyər vergisi | 3886,4 | 21,65 | 6,18 |
| Sadələşdirilmiş vergi | 217,9 | 1,21 | 0,35 |
| Aksiz | 794,3 | 4,43 | 1,26 |
| Yol vergisi | 85,8 | 0,48 | 0,14 |
| Mədən vergisi | 102,1 | 0,57 | 0,16 |
| Xarici iqtisadi fəaliyyətlə bağlı vergilər | 990,2 | 5,52 | 1,58 |
| Digər daxilolmalar | 8555,2 | 47,66 | 13,61 |

## DÖVLƏT BÜDCƏSİNİN XƏRCLƏRİ

| | 2021-ci ilin yanvar-sentyabr ayları, milyon manat | yekuna görə faizlə | ÜDM-də payı, faizlə |
|---|---|---|---|
| **Xərclər – cəmi** | **17712,1** | **100,0** | **28,17** |
| o cümlədən: | | | |
| Ümumi dövlət xidmətləri | 2725,0 | 15,39 | 4,33 |
| Müdafiə və milli təhlükəsizlik | 3388,8 | 19,13 | 5,39 |
| Məhkəmə hakimiyyəti, hüquq - mühafizə və prokurorluq | 1374,0 | 7,76 | 2,18 |
| Təhsil | 2007,0 | 11,33 | 3,19 |
| Səhiyyə | 1122,7 | 6,34 | 1,79 |
| Sosial müdafiə və sosial təminat | 2553,4 | 14,42 | 4,06 |
| Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət | 249,5 | 1,41 | 0,40 |
| Mənzil və kommunal təsərrüfatı | 120,9 | 0,68 | 0,19 |
| Kənd təsərrüfatı | 627,7 | 3,54 | 1,00 |
| Ətraf mühitin mühafizəsi | 144,8 | 0,82 | 0,23 |
| İqtisadi fəaliyyət | 2760,0 | 15,58 | 4,39 |
| Əsas bölmələrə aid edilməyən xidmətlər | 638,3 | 3,60 | 1,02 |

## NƏQLİYYAT SEKTORUNDA YÜK DÖVRİYYƏSİ

| | 2021-ci ilin yanvar-sentyabr aylarında | 2020-ci ilin müvafiq dövründə | 2020-ci ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **57 726,3** | **57 581,3** | **100,3** |
| o cümlədən: | | | |
| Dəmir yolu | 3 946,7 | 3 562,0 | 110,8 |
| Dəniz | 2 301,5 | 2 400,5 | 95,9 |
| Hava | 1 784,4 | 1 584,8 | 112,6 |
| Boru kəməri | 42 709,9 | 43 445,9 | 98,3 |
| neft kəməri | 35 254,0 | 37 896,0 | 93,0 |
| qaz kəməri | 7 455,9 | 5 549,9 | 134,3 |
| Avtomobil | 6 983,8 | 6 588,1 | 106,0 |

## NƏQLİYYAT SEKTORUNDA SƏRNİŞİN DÖVRİYYƏSİ

| | 2021-ci ilin yanvar-sentyabr aylarında | 2020-ci ilin müvafiq dövründə | 2020-ci ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **14 280,6** | **15 090,8** | **94,6** |
| o cümlədən: Dəmir yolu | 70,5 | 151,7 | 46,5 |
| Dəniz | 6,1 | 7,9 | 77,2 |
| Hava | 1 563,6 | 890,0 | 175,7 |
| Metro | 429,7 | 768,1 | 56,0 |
| Avtomobil | 12 210,7 | 13 273,1 | 92,0 |
| avtobus | 10 860,5 | 12 527,7 | 86,7 |
| taksi | 1 350,2 | 745,4 | 181,1 |

## AZƏRBAYCANIN TƏRƏFDAŞ ÖLKƏLƏRLƏ XARİCİ TİCARƏT GÖSTƏRİCİLƏRİ* (yanvar-sentyabr)

min ABŞ dolları

| Ölkələrin adı | Dövriyyə | İdxal | İxrac |
|---|---|---|---|
| **Cəmi** | **22974296,1** | **8344475,2** | **14629820,9** |
| o cümlədən: İtaliya | 5974735,7 | 327967,6 | 5646768,1 |
| Türkiyə | 3247844,3 | 1309640,4 | 1938203,9 |
| Rusiya Federasiyası | 2053856,6 | 1440083,5 | 613773,1 |
| Çin | 1293236,2 | 1158684,1 | 134552,1 |
| Almaniya | 714299,1 | 485180,3 | 229118,8 |
| Ukrayna | 646700,4 | 327039,3 | 319661,1 |
| İspaniya | 615017,0 | 56743,3 | 558273,7 |
| Hindistan | 610051,0 | 106866,7 | 503184,3 |
| Gürcüstan | 586328,8 | 73049,3 | 513279,5 |
| Birləşmiş Krallıq | 550655,4 | 213918,6 | 336736,8 |
| Xorvatiya | 549419,9 | 1551,7 | 547868,2 |
| İsrail | 542378,6 | 26114,2 | 516264,4 |
| Amerika Birləşmiş Ştatları | 391693,0 | 336840,0 | 54853,0 |
| Portuqaliya | 391177,1 | 8428,9 | 382748,2 |
| Tunis | 379515,5 | 1980,4 | 377535,1 |
| Belarus | 320303,9 | 90418,5 | 229885,4 |
| İran İslam Respublikası | 293265,9 | 272208,3 | 21057,6 |
| İsveçrə | 289928,2 | 67499,5 | 222428,7 |
| Kanada | 227584,3 | 8292,5 | 219291,8 |
| Yaponiya | 206727,7 | 194975,7 | 11752,0 |
| Fransa | 190538,6 | 143442,1 | 47096,5 |
| Tailand | 176882,9 | 42740,9 | 134142,0 |
| Yunanıstan | 176049,5 | 9655,2 | 166394,3 |
| Rumıniya | 172480,3 | 68198,6 | 104281,7 |
| Braziliya | 165634,8 | 134158,5 | 31476,3 |
| Digər ölkələr | 2207991,4 | 1438797,1 | 769194,3 |

*Gömrük məlumatı

## İXRAC OLUNAN MÜHÜM NÖV MƏHSULLAR

| Malların adı | 2021-ci ilin yanvar-sentyabr aylarında | | 2020-ci ilin yanvar-sentyabr aylarına nisbətən, faizlə | |
|---|---|---|---|---|
| | miqdarı | məbləği (min dollar) | miqdarı | məbləği |
| Təzə tərəvəz, ton | 143,5 | 142930,2 | 79,2 | 79,0 |
| Təzə meyvə, ton | 174,0 | 209592,1 | 134,3 | 113,9 |
| Kartof, ton | 91834,7 | 39855,5 | 112,9 | 118,1 |
| Çay, ton | 808,6 | 6132,3 | 82,5 | 91,4 |
| Bitki yağları, ton | 8579,8 | 11061,8 | 85,8 | 130,7 |
| Marqarin, qida üçün yararlı digər qarışıqlar, ton | 1958,5 | 2687,6 | 73,8 | 94,2 |
| Şəkər, ton | 49625,1 | 26057,1 | 1,7 d. | 2,1 d. |
| Meyvə və tərəvəz konservləri, ton | 5844,3 | 6192,8 | 117,4 | 108,1 |
| Meyvə və tərəvəz şirələri, ton | 9179,2 | 11176,7 | 111,9 | 97,7 |
| Təbii üzüm şərabları və üzüm suslosu, min dkl | 154,1 | 2552,7 | 92,3 | 91,7 |
| Tütün, ton | 2715,7 | 6900,5 | 79,8 | 82,4 |
| Bentonit gili, ton | 123,7 | 7121,0 | 97,1 | 99,1 |
| Xam neft, min ton | 20281, | 9302613,3 | 92,9 | 130,0 |
| Xam neft, min ton (ARDNŞ və ABƏŞ-in məlumatlarına əsasən) | 21042,0 | 9945459,3 | 97,8 | 1,6 d. |
| Reaktiv mühərriklər üçün və digər məqsədlər üçün kerosin, ton | 30604,1 | 15408,0 | 34,9 | 33,3 |
| Ağır destilyatlar və ya digər məqsədlər üçün qazoyllar, min ton | 929,5 | 440215,5 | 148,1 | 2,8 d. |
| Maye qaz, ton | 53343,7 | 15285,1 | 2,1 d. | 4,7 d. |
| Təbii qaz, mlyn. kubmetr | 14927,1 | 2951453,2 | 147,0 | 1,6 d. |
| Təbii qaz, mlyn. kubmetr (ARDNŞ və ABƏŞ-in məlumatlarına əsasən) | 13512,8 | 2498404,6 | 138,4 | 117,6 |
| Neft koksu, min ton | 230,0 | 19250,8 | 2,2 d. | 2,8 d. |
| Polietilen, ton | 103,3 | 122239,5 | 113,8 | 2,1 d. |
| Pambıq lifi, ton | 95768,2 | 149544,8 | 1,6 d. | 1,8 d. |
| Pambıq ipliyi, ton | 13784,2 | 40036,6 | 2,3 d. | 3,3 d. |
| Qara metallardan borular, ton | 16302,6 | 13366,4 | 107,9 | 123,8 |
| Qara metallardan yarımfabrikatlar, ton | 47553,5 | 25543,9 | 6,0 d. | 9,3 d. |
| Emal olunmamış alüminium, ton | 18942,0 | 43676,0 | 66,3 | 93,1 |

## İDXAL OLUNAN MÜHÜM NÖV MƏHSULLAR

| Malların adı | 2021-ci ilin yanvar-sentyabr aylarında | | 2020-ci ilin yanvar-sentyabr aylarına nisbətən, faizlə | |
|---|---|---|---|---|
| | miqdarı | məbləği (min dollar) | miqdarı | məbləği |
| İribuynuzlu heyvan əti, ton | 4160,3 | 16059,9 | 56,8 | 58,1 |
| Quş əti və onun əlavə məhsulları, ton | 20724,3 | 26979,4 | 89,9 | 100,5 |
| Kərə yağı, digər süd yağları və pastaları, ton | 11237,2 | 57466,4 | 88,4 | 91,6 |
| Kartof, min ton | 124,3 | 31163,4 | 119,2 | 110,6 |
| Təzə tərəvəz, ton | 30409,2 | 15649,1 | 139,2 | 124,8 |
| Təzə meyvə, ton | 92030,5 | 86563,9 | 98,9 | 101,4 |
| Çay, ton | 10880,2 | 47049,9 | 105,3 | 111,5 |
| Buğda, min ton | 689,7 | 182729,0 | 71,2 | 88,6 |
| Bitki yağları, ton | 93880,7 | 129273,2 | 92,5 | 145,4 |
| Xam şəkər və şəkər, min ton | 255,4 | 120158,3 | 103,4 | 142,7 |
| Siqaretlər, mlyn. ədəd | 629,3 | 13547,8 | 75,1 | 78,9 |
| Sement və sement klinkerləri, ton | 16765,4 | 2786,8 | 84,2 | 82,4 |
| Dərman vasitələri, ton | 15736,7 | 310903,2 | 95,7 | 131,1 |
| Mineral gübrələr, ton | 110,3 | 35700,7 | 40,3 | 45,5 |
| Polietilen, ton | 19453,8 | 25431,8 | 70,5 | 88,1 |
| Rezin şinlər, min ədəd | 1637,7 | 58905,7 | 138,7 | 119,5 |
| Polad prokatı, ton | 146,1 | 151661,5 | 61,3 | 86,4 |
| Qara metallardan çubuqlar, ton | 46775,9 | 34332,8 | 29,8 | 41,1 |
| Qara metallardan küncüklər, ton | 20335,4 | 22289,6 | 74,0 | 106,4 |
| Qara metallardan borular, ton | 87077,0 | 151898,7 | 73,9 | 77,7 |
| Məişət kondisionerləri, ədəd | 134,1 | 34400,3 | 99,4 | 104,2 |
| Məişət soyuducuları, ədəd | 32911 | 10416,9 | 139,3 | 1,7 d. |
| Paltaryuyan maşınlar, ədəd | 158,5 | 34596,5 | 128,5 | 145,1 |
| Hesablama maşınları, blok və qurğuları, min ədəd | 509,4 | 94659,0 | 99,4 | 100,1 |
| Minik avtomobilləri, ədəd | 60578 | 562679,9 | 1,7 d. | 140,1 |
| Avtobuslar, ədəd | 141 | 20100,6 | 109,3 | 1,7 d. |
| Yük avtomobilləri, ədəd | 4123 | 64150,8 | 1,7 d. | 1,8 d. |
| Oturacaq, ofis, mətbəx, yataq və digər mebellər, min ədəd | 551,0 | 46428,1 | 133,4 | 129,4 |



### *GİNDİN ALEKSANDR MOİSYEVİÇ (anadan olmasının 120 illiyinə)*

A.Gindin 1901-ci ilin noyabr ayında Rusiyanın Novorosiysk şəhərində anadan olmuşdur. 1911-1920-ci illərdə Stavropol şəhərində orta təhsil almışdır. 1920-1922-ci illərdə hərbi xidmətdə olmuşdur. Hərbi xidmətdən buraxıldıqdan sonra müxtəlif işlərdə işləməklə yanaşı, 1922-1926-cı illərdə Don Dövlət Universitetində "İqtisadiyyat" fakültəsində ali təhsil almışdır. 1926-cı ildə Kredit bürosunun yaradılması ilə əlaqədar Bakı şəhərində işləməyə göndərilmiş və 1930-cu ilədək burada müxtəlif vəzifələrdə çalışmışdır. 1930-1932-ci illərdə əvvəlcə Azərbaycan Elmi-Tədqiqat İnstitutunda, sonra isə Elmlər Akademiyasının Azərbaycan filialında İqtisadiyyat bölməsinin rəhbəri, Rəyasət Heyətinin üzvü, elmi katib kimi fəaliyyət göstərmişdir. 1931-ci ildə dosent adını almışdır. Eyni zamanda Sosial-iqtisadi İnstitutun Sovet təsərrüfatı nəzəriyyəsi kafedrasında müəllimlik etmişdir. O, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 4 noyabr 1932-ci il tarixli (protokol № 24) qərarı ilə Azərbaycan Xalq Təsərrüfatı Uçotu İdarəsinin (Mərkəzi Statistika İdarəsinin) rəisi, Dövlət Plan Komitəsi sədrinin müavini vəzifəsinə təyin edilmiş və 1934-cü ilin mart ayınadək bu vəzifədə çalışmışdır.

Onun burada fəaliyyəti dövründə cari statistikanın təşkili, müəssisə və təşkilatların illik hesabatlarının işlənməsi sahəsində işlər davam etdirilmişdir.

1933-cü ildə hesabat bazası daha da genişləndirilmişdir. Belə ki, sənaye müəssisələrinin əsas fəaliyyəti haqqında vahid illik hesabat formasının tətbiqinə başlanmışdır. 1933-cü ildə ictimai iaşə müəssisələrinin və mal-qaranın siyahıyaalınmaları həyata keçirilmişdir.

A.Gindin 1934-cü ildə Azərbaycan KP(b) MK-nın və BK-nın xüsusi bölməsinin müdiri təyin edilmiş, 1936-cı ilin sentyabr ayınadək partiya işlərində fəaliyyət göstərmişdir. Sonra 1937-ci ilin noyabr ayında həbs edilənədək "Vışka" və "Bakinskiy Raboçiy" qəzetlərində redaktor olmuşdur. Tezliklə həbsdən azad olduqdan sonra, yəni 1938-ci ilin iyul ayından ömrünün sonunadək partiya işlərində fəaliyyət göstərmişdir.

## 2021-ci İLDƏ "STATİSTİKA XƏBƏRLƏRİ" JURNALINDA DƏRC OLUNMUŞ MƏQALƏLƏRİN MÖVZU-ƏLİFBA ÜZRƏ SİYAHISI

### İQTİSADİ-STATİSTİK TƏDQİQATLAR


***Aida İbrahimova, Zərifə Nağıyeva.*** Rəqəmsal iqtisadiyyat və elektron ticarət......................... 3

***Arzu Hacıyeva.*** Azərbaycanda transmilli şirkətlərin (TMŞ) fəaliyyətinin dövlət tənzimlənməsi və xarici investisiya həcminin proqnozlaşdırılması.......................................................................... 1

***Afət Süleymanova.*** Məlumatların məxfiliyinin mütəxəssislərin rəylərinə əsasən hərtərəfli qiymətləndirilməsi.................................................................................................................. 2

***Aynurə İsmayılova.*** İxracın diversifikasiyasının nəzəri məsələlərinə dair................................ 2

***Elnur Rüstəmov.*** Azərbaycanın regionlarının tarazlı sosial-iqtisadi inkişafında əmək bazarının rolu.......................................................................................................................... 4

***Əbülfəz Kərimov.*** Azərbaycanda energetikanın inkişafı - statistik icmal.................................. 4

***Əsgər Əliyev, Sevda Məmmədova.*** Müasir dövrdə enerji təhlükəsizliyinin təminatı məsələləri....................................................................................................................... 1

***İrşad Kərimli, Şamil Əzizov, Rauf Səfərov.*** Qarabağ regionunun sənaye istehsalının potensial imkanları: dövlət və özəl investisiya yatırımlarına yeni tələblər................................. 2

***Jalə Abbaszadə.*** Azərbaycanda gəlir bölgüsünün ədalətli həyata keçirilməsi üçün vergi alətindən istifadə və beynəlxalq təcrübə.................................................................................... 2

***Jalə Dadaşova.*** Azərbaycanın idxaldan asılılığının azaldılması və iqtisadi təhlükəsizliyinin təmini................................................................................................................................ 2

***Lalə Cabbarlı.*** Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonlarında kənd təsərrüfatının mövcud vəziyyəti və inkişaf perspektivləri.................................................................................. 1

***Natavan Süleymanova.*** Azərbaycanda sahibkarlıq fəaliyyətinin müasir inkişaf mərhələləri...... 1

***Nizami Kazımov, Zülfüqar Məhərrəmov.*** Azərbaycanda aqrar sektorun statistik icmalı və azad edilmiş rayonların kənd təsərrüfatı potensialı............................................................. 3

***Nizami Qafarov.*** Aqrar sahədə mövcud investisiya potensialından istifadənin təkmilləşdirilməsi.......................................................................................................................... 3

***Nuray Kazımlı.*** Zəngəzur dəhlizi: region üçün yeni iqtisadi inkişaf imkanı.............................. 4

***Pərvin Verdiyeva.*** Azərbaycanın ixrac səbətinin İqtisadi Mürəkkəblik İndeksi (İMİ) əsasında təhlili................................................................................................................................ 3

***Rauf Əliyev.*** Turizm xərclərinin statistik ölçülməsi…………………………………………..... 1

***Rza Allahverdiyev, Səadət Rəhimova.*** Demoqrafik göstəricilərin statistik tədqiqi.................... 2

***Samiddin Qasımov.*** Naxçıvan Muxtar Respublikasında ev təsərrüfatlarının inkişafının əsas zəmini kimi sahibkarlıq fəaliyyəti................................................................................... 4

***Sevda Həsənova.*** Regionlarda məşğulluq probleminin yaranmasına səbəb olan sosial-iqtisadi amillər......................................................................................................................... 2

***Sevinc Əhmədova.*** Ölkənin davamlı inkişafında əmək ehtiyatlarından səmərəli istifadə.......... 4

***Şamxal Məmmədov.*** Azərbaycanda pandemiya dövründə elektron ticarətə artan tələbat.......... 3

***Şəfiqə Məmmədova.*** Azərbaycanın bərpa olunan enerji mənbələri və onların qiymətləri........... 4

***Vahid Novruzov, Nəcəf Talıbov, Qoşqar Əhmədov.*** Kölgə iqtisadiyyatının həcminin ölçülməsinə yeni metodik yanaşma.................................................................................... 1

***Yaşar Paşa, Nəbi Quliyev.*** COVID-19-un ev təsərrüfatlarının istehlak xərclərinə təsirləri......... 3

## METODOLOGİYA

***Çingiz İbrahimli.*** Elektron biznesin inkişaf göstəricilərinin müəyyən edilməsinin metodoloji problemləri........................................................................................................ 1
***Эльдар Гулиев, Натик Гурбанов , Фикрет Хосровлу.*** Некоторые проблемы и перспективы применения экологического маркетинга-менеджмента в Азербайджане....... 4
***Elnurə Hüseynova.*** Əmək resurslarının beynəlxalq mobilliyinin sosial-iqtisadi inkişafa təsiri.. 2
***Xaqani Məcidov.*** Fərdin iqtisadi təhlükəsizliyi: təhlükəsizlik mühitinə təhdidlər, müdafiə və qiymətləndirmə metodologiyası........................................................................................................ 3
***Leyla Hacıyeva***. Turizmin rəqabətqabiliyyətliliyinin əsas göstəricilərinin kompleks təhlili........ 4
***Mübariz Nuriyev, Saleh Mövlamov.*** Statistik tədqiqatların təşkili məsələləri............................ 3
***Novruz Hüseynov.*** Büdcədənkənar dövlət fondlarının idarəetmə orqanlarında uçot və hesabatın təkmilləşdirilməsi məsələləri.............................................................................. 3
***Nuriyyə Əliyeva.*** Kommersiya müəssisələrində material ehtiyatlarının uçotunun təkmilləşdirilməsi istiqamətləri.................................................................................................. 1
***Orxan Əhmədov, Nigar Hüseynli.*** Qiymət statistikasının keçmişi, bu günü, gələcəyi............. 1
***Рауф Салаев.*** Проблемы налогообложении в образовательных учреждениях Азербайджана.................................................................................................................................. 2
***Рауф Салаев.*** Прогнозирование налоговых поступлений в налоговой системе, их преимущество и недостатки в условиях цифровой экономики............................................... 3
***Rəşad Hacıyev.*** Azərbaycan Respublikasında valyuta kurslarının tənzimlənməsi problemləri.. 2
***Ульви Халилов.*** Некоторые проблемы и перспективы применения экологического маркетинга в Азербайджане........................................................................................................ 1
***Vaqif Quliyev.*** Uçot-hesabat sistemində normativ və pozitiv metodologiyalar………………… 4
***Vüqar Qənbərov.*** Sığorta şirkətlərinin rəqabətə davamlılığının qiymətləndirilməsi................... 4
***Yusif Yusifov, Vüqar Məmmədəlizadə.*** Rəsmi statistikada keyfiyyətin idarə edilməsinin səmərəli alətləri.................................................................................................................................... 2
***Zeynəb Qiyasova.*** Azərbaycanda innovasiyalı inkişaf və innovativ sahibkarlığın təkmilləşdirilməsi........................................................................................................................ 3

## AZƏRBAYCANIN STATİSTİKA TARİXİNİN SƏHİFƏLƏRİNDƏN

Fikrət Abidov Aqqırax oğlu (anadan olmasının 95 illiyinə)...................................................... 3
Gindin Aleksandr Moisyeviç (anadan olmasının 120 illiyinə).................................................... 4
Şahbala Aqqırax oğlu Məmmədov (anadan olmasının 85 illiyinə)............................................ 2

**Korrektor:** Arzu Məmmədli

**Çapa imzalanmışdır:** 24.11.2021